AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

**Mirzəyeva S.S.**

# SİYASİ PSİXOLOGİYA

## Dərs vəsaiti

Sumqayıt Dövlət Universitetinin
Elmi Şurasının 09 fevral 2018-ci il
iclasının (protokol 06) qərarı ilə
dərs vəsaiti kimi təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Sumqayıt- 2018

66,5
M67



**UOT 316.6 (075.8)**

**Elmi redaktor** **Məmmədova Aytəkin Telman qızı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

**Rəyçilər** **Babayeva Təranə Tofiq qızı, psixologiya üzrə fəlsəfə doktoru, dosent**
**Salamova Kamalə Bahazər qızı, psixologiya üzrə fəlsəfə doktoru, dosent**
**Quliyeva Sevinc Yəhya qızı, psixologiya üzrə fəlsəfə doktoru, dosent**

**S.S.Mirzəyeva. Siyasi psixologiya.** Dərs vəsaiti. Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, 176 s.


Vəsait 050208-Politologiya ixtisasının tədris planına daxil edilmiş İPF-B11 Siyasi psixologiya fənninin proqramı üzrə hazırlanıb. Vəsaitdə siyasi psixologiyanın mühüm məsələləri: predmeti və vəzifələri, prinsipləri, əsas tədqiqat obyektləri və metodları, təşəkkülü və inkişaf tarixi, aparıcı məktəb və istiqamətləri, siyasi lider və siyasi rəhbər, siyasi liderin psixoloji portreti və müasir modeli, hakimiyyətin siyasi psixologiyası, şəxsiyyət və siyasətin qarşılıqlı əlaqəsi və s. əks olunub. Dərs vəsaiti geniş oxucu kütləsi üçün də faydalı ola bilər.


© Sumqayıt Dövlət Universiteti, 2018
© Mirzəyeva Sevər Sərvət qızı, 2018


# MÜNDƏRİCAT


Giriş....5
**I FƏSİL. SİYASİ PSİXOLOGİYANIN BİR ELM KİMİ XARAKTERİSTİKASI**....7
1.1.Siyasi psixologiyanın movzusu və vəzifələri....7
1.2. Siyasi psixologiyanın əsas tədqiqat obyektləri....10
1.3.Siyasi psixologiyanın əsas prinsipləri....14
1.4.Siyasi psixologiyanın əsas problemləri və funksiyaları....19
1.5. Siyasi psixologiya və ya siyasətin psixologiyası....24
1.6. Siyasi psixologiya və mentalitet....27
1.7.Davranış haqqında anlayışlar siyasi psixologiyanın metodoloji....29
Mövzuya aid sual və tapşırıqlar....33
Ədəbiyyat....33
**II FƏSİL.SİYASİ PSİXOLOGİYANIN İNKİŞAF TARİXİ VƏ MÜASİR VƏZİYYƏTİ**....35
2.1. Siyasi psixologiyanın yaranma tarixi....35
2.2. Siyasi psixologiyanın bir elm kimi müasir vəziyyəti....38
2.3. Müasir siyasi psixologiyanın aparıcı məktəbləri və istiqamətləri....42
Mövzuya aid sual və tapşırıqlar....52
Ədəbiyyat....53
**III FƏSİL. ŞƏXSİYYƏT VƏ SİYASƏT**....54
3.1. Siyasi psixologiyada şəxsiyyət problemi....54
3.2. Siyasi motivlərin yaranması....65
3.3.Siyasi proseslər və şəxsiyyət....68
Mövzuya aid sual və tapşırıqlar....85
Ədəbiyyat....85
**IV FƏSİL. SİYASİ LİDERLİK**....88

4.1. Siyasi liderliyin psixoloji xüsusiyyətləri....88
4.2. Liderlik haqqında nəzəriyyələr....93
4.3.Siyasi liderin psixoloji portreti....105
4.4. Siyasi liderin müasir modeli....112
4.5. Siyasi liderin siyasi psixikası....120
Mövzuya aid sual və tapşırıqlar....123
Ədəbiyyat....124
**V. SİYASİ RƏHBƏRLİK....126**
5.1. Siyasi rəhbərin mühüm peşəkar keyfiyyətləri....126
5.2. Siyasi rəhbərliyin səmərəli metodları....129
5.3. Siyasi qərarların hazırlanması və qəbul edilməsi....132
Mövzuya aid sual və tapşırıqlar....135
Ədəbiyyat....135
**VI FƏSİL. HAKİMİYYƏT SOSİAL-PSİXOLOJİ FENOMEN KIMI....137**
6.1. Hakimiyyət fenomeninə yanaşmalar....137
6.2. Siyasi hakimiyyətin motivasiyası....142
6.3.Hakimiyyətin formaları....156
Mövzuya aid sual və tapşırıqlar....171
Ədəbiyyat....172



## Giriş

XX əsr tarixi hadisələrlə zəngin yüzillik olaraq tamamlandı. Bu yüzillikdə baş vermiş hadisələr, müharibələr, böyük kəşflər, insanın və dünyanın dərk olunma mərhələsi kimi yaddaşlara həkk olundu. Bu hadisələr yeni tarixi şərait yaratmaqla yanaşı, yeni şəxsiyyət tipinin və liderlərin və psixologiyanın müstəqil elm sahəsi kimi yeni siyasi psixologiyanın yaranmasına gətirib çıxartdı.

Müasir dövrdə gənc nəslin cəmiyyətdə baş verən siyasi dəyişikliklərə psixoloji hazırlığı günün vacib məsələlərindəndir. “Siyasi psixologiya” (050208-Politologiya ixtisası üzrə) adlı dərs vəsaiti təhsilin səviyyəsini yüksəltmək məqsədilə işlənilib hazırlanmışdır. Bu vəsaitin vəzifəsi həm dünyada, həm də Azərbaycanda baş verən siyasi proseslər və bu proseslərin psixoloji cəhətləri, siyasi psixologiyanın bir elm sahəsi kimi formalaşması, inkişaf yolları və digər mövzular haqqında ətraflı bilik verməkdir. Vəsaitdə siyasi psixologiyanın predmeti və əsas məsələləri, siyasi psixologiyanın əsas obyekti və əsas prinsipləri, siyasi psixologiyanın əsas anlayışları və kateqoriyaları, siyasi psixologiyanın inkişaf mərhələləri, ilkin siyasi nəzəriyyələr, siyasi psixologiya XIX və XX əsrlərdə, müasir siyasi psixologiyanın vəziyyəti, siyasi dərketmə və siyasi özünüdərkin psixologiyası, siyasətdə kollektiv şüursuzluq, siyasi psixologiyanın tarixi mərhələləri, şəxsiyyətin psixologiyası, siyasi liderliyin psixologiyası, liderliyə siyasi baxışlar və konsepsiyalar, böyük siyasi qrupların psixologiyası, böyük milli-etnik qruplar, milli xarakter, siyasi xarakter, siyasi kütlə psixologiyası, kütlə və siyasi xaos (qarmaqarışıq), siyasi psixologiyanın elmi problemi haqqında ətraflı məlumat verilmişdir. “Siyasi psixologiya” kursunun tədrisində bu vəsaitdən istifadə politologiya, psixologiya və digər ixtisaslarda təhsil alan gənclərin mütəxəssis kimi yetişməsində əhəmiyyətli rol oynayacaqdır. Vəsait 050208 –Politologiya

ixtisasının təsdiq edilmiş tədris planına Təhsil Nazirliyi tərəfindən daxil edilmiş "Siyasi psixologiya" (İPF-B11-75 saat) fənni üzrə kursa aid mövzulardan və sonda verilmiş ədəbiyyat siyahısından ibarətdir. Vəsait haqqında öz irad və təkliflərini *severmirzayeva@gmail.com* elektron ünvana göndərəcək oxuculara müəllif əvvəlcədən öz təşəkkürünü bildirir.



# I FƏSİL
# SİYASİ PSİXOLOGİYANIN BİR ELM KİMİ XARAKTERİSTİKASI

## 1.1.Siyasi psixologiyanın movzusu və vəzifələri

Siyasi psixologiya - sosial qrupların, millətlərin, siyasi kütlələrin, fərdlərin və şəxsiyyətlərin şüurunda formalaşan və təzahür edən və onların praktik fəaliyyətində, hərəkətlərində gerçəkləşən cəmiyyətin siyasi sferasının psixoloji komponentlərini öyrənən fənlərarası elmdir. Siyasi psixologiya politologiya, psixologiya və sosiologiyanın kəsişməsində yerləşən bir elm sahədir. Siyasi psixologiya elminin predmeti haqqında hələ də mübahisələr gedir. C.Knutsonun fikrinə görə siyasi psixologiyanın predmetini insanın, sosial qrupun və bütövlükdə xalqın siyasi davranışlarının psixoloji komponentləri və siyasəti şərh edən psixoloji biliklərin tətbiqinə imkan verən tədqiqatlar təşkil edir. E.B.Şestopal və G.G.Diligenski siyasi biheviorizmi (davranışı) müasir siyasi psixologiyanın aparıcı siyasi paradiqması kimi qeyd edir. Onların fikrincə, siyasi psixologiyanın əsas vəzifəsi kimi siyasi davranışın müxtəlif formalarını öyrənmək, xüsusən siyasi seçkilərin mexanizmlərini aşkar etmək, insanların siyasi proseslərdəki davranışlarının motivlərini müəyyənləşdirməkdir. Siyasi psixologiyanın predmeti öz strukturuna, subyektinə görə oyandırıcı qüvvələrə malik insan fəaliyyəti, bütövlükdə siyasətdir. Siyasi psixologiya insanın siyasi davranışının psixoloji komponentlərinin tədqiqinə və psixoloji biliklərdən siyasəti izah etmək üçün istifadə etməyə imkan yaradır. Bəzi müəlliflər siyasi psixologiyanın predmetini ikitərəfli təsir prosesi kimi izah edir: psixoloji amillər siyasi davranışa, siyasi hərəkətlər fərdlərin psixoloji vəziyyətinə təsir edir (M. Doyç). Psixoloji fikir tarixində siyasi psixologiyanın fərd və cəmiyyət, böyük sosial qruplar arasındakı əlaqəni öyrənən sosial psixologiyanın tərkibinə daxil edilməsi barədə fikir də söylənilirdi. Əsasən, siyasi psixologiya ABŞ-da yarandığından, elmin predmeti

davranış psixologiyası ənənələrinə əsaslanır. Eyni zamanda burada psixoanalitik konsepsiyaların təsiri də nəzərə çarpır(Z.Freyd, K.Yunq, A.Adler, V.Rayx, E.Fromm və başqaları). Siyasətin təsvirində psixoanalitik yanaşma siyasi ünsiyyətdə dərin, fərdi və kütləvi hisslərin öyrənilməsinə əsaslanır. Cins, kütlə, cinsi stereotiplər, fərdin və cəmiyyətin cinsi kimliyi kimi amillər siyasi fəaliyyətin ən vacib stimullarındandır. Rusiya psixologiya elmində onilliklər ərzində fəaliyyət yanaşması inkişaf edir. Ancaq siyasi psixologiya sahəsində müəlliflər arasında siyasi və psixoloji biliklərin inkişafı üçün bir paradiqma seçimində birlik yoxdur. Sadəcə fəaliyyət və davranış yanaşmalarını sintez etmək cəhdləri var. D.V.Olşanski, siyasi psixologiya predmetinə müraciət edərək ya davranışa, ya da fəaliyyətə ("fəaliyyət-davranış yanaşması") müraciət edir, lakin nəticədə sonuncu kateqoriya üzərində dayanır. Psixologiyada subyektiv fəaliyyət yanaşmasına (S.L.Rubinşteyn və onun məktəbi), A.N.Leontyevin konsepsiyasına və onun məktəbinin nümayəndələri (A.Q.Asmolov, V.A.İvannikov və başqaları) tərəfindən inkişaf etdirilən ideyalara əsaslanaraq, siyasi psixologiyanın predmeti siyasət hesab edilir, burada siyasət insanın sosial dünya ilə qarşılıqlı əlaqələrinin dinamik, iyerarxik sistemini təmsil edən xüsusi fəaliyyət forması kimi başa düşülür. Bu cür fəaliyyət prosesində subyekt cəmiyyətin siyasi sistemindəki münasibətlərini özündə cəmləşdirir. İnsanın xüsusi fəaliyyəti olaraq siyasətin özünün iyerarxik quruluşu və həvəsləndirici qüvvələri var. Məqsədyönlü fəaliyyətin tam sistemi kimi, yəni fəaliyyət kimi siyasətin quruluşuna aşağıdakılar daxildir: birincisi, fəaliyyət - siyasi münasibətlər subyektinin tam məzmunlu aktiv fəallığı kimi; ikincisi, hərəkətlər- ayrılmaz əlaqə kimi, siyasi fəaliyyətin vahid təhlili kimi; üçüncüsü, əməllər - hərəkətlərin kiçik bağlantıları kimi, fəaliyyətin üsulları kimi. Daxili (subyektiv) fəaliyyət iki komponentlə təmsil olunur: səbəbli tərkibli komponentlər (ehtiyaclar, dəyərlər, motivlər, məqsədlər) və tənzimləyici tərkibli komponentlər: bilik (situasiyaya və dünyaya baxış): bacarıqlar (problemləri həll etmək



və qərar qəbul etmək bacarığı); emosional vəziyyətlər, cəmiyyətin siyasi sistemindəki münasibətlərin subyekti kimi şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri. Müvafiq olaraq, fəaliyyət olaraq siyasətə hərəkətlərin və insan davranışlarının idarəedilməsinin ümumiləşdirilmiş motivi uyğundur. Konkret siyasi hərəkətlərdə ayrı-ayrı şəxslərin və qrupların maraqları müəyyən məqsədlərlə uyğunlaşdırılır və ya dəstəklənilir. Fərdi siyasi proseslər siyasi məqsədə çatmaq üsulları ilə uyğunlaşdırılır-danışıqlardan tutmuş silahlı münaqişələrə (və ya müharibələrə) və qiyamlara qədər. Fəaliyyət olaraq siyasətin predmeti ayrı-ayrı fərdlər (ayrı-ayrı siyasətçilər), kiçik və böyük, sosial, milli-etnik və digər qruplar, həmçinin kortəbii kütlələr ola bilər. Bütövlükdə bir fəaliyyət kimi siyasət və onun ayrı-ayrı hissələri mütəşəkkil və ya qeyri-mütəşəkkil, quruluşlu və ya quruluşsuz xarakterli ola bilər.

Sadalanan bütün mülahizələri nəzərə alsaq siyasi psixologiya elminin mövzusuna aid olan tendensiyaları bir ortaq məxrəcə gətirərək onun tərifini belə müəyyənləşdirmək olar - Siyasi psixologiya siyasi və psixoloji proseslərin qarşılıqlı əlaqəsini, siyasi davranışın və siyasi fəaliyyətin sosial-psixoloji komponentlərinin qanunauyğunluqlarını, mexanizmlərini, eyni zamanda siyasi proseslərin həyata keçirilməsində əsas rol oynayan insanların davranışının siyasi-psixoloji komponentlərini tədqiq edən və araşdıran elm sahəsidir.

Siyasi psixologiyanın əsas vəzifəsi siyasətin psixoloji mexanizmlərini analiz etməkdən və bütün səviyyələrdə siyasi fəaliyyətin optimal həyata keçirilməsi üçün praktik tövsiyələrin işlənib hazırlanmasından ibarətdır. Əslində siyasi psixologiya elə bunun üçün yaranmış və müasir statusunu almışdır. Bununla yanaşı siyasi psixologiyanın sadalanan əsas vəzifələri bunlardır:

- siyasi-psixoloji hadisələrin, siyasətdəki psixoloji komponentlərin təhlili, cəmiyyətin siyasi həyatında "insan amili" nin, müəyyən bir şəxsiyyətin rolunu anlamaq;

- psixoloji xüsusiyyətlərini nəzərə alaraq əvvəlki təhlilə və anlayışa əsaslanan siyasi proseslərin inkişafını proqnozlaşdırmaq;
- psixologiyanın cəmiyyətdəki siyasi vəziyyətə təsiri, ayrı-ayrı siyasətçilərin, habelə siyasi qrupların (partiyalar, hərəkatlar və s.) siyasi fəaliyyətlərinin psixoloji dəstəyi.

## 1.2.Siyasi psixologiyanın əsas tədqiqat obyektləri

Siyasi psixologiya elminin əsas tədqiqat obyektlərinin müəyyənləşdirilməsi elmlər arasındakı əlaqələrin çoxcəhətliliyinə görə mürəkkəbdir. Tədqiq olunan obyektlərin xarakteri və özünəməxsus məzmunu ilə siyasi psixologiya praktik səviyyədə bir sıra yaxın psixoloji fənlərlə, ilk növbədə, sosial psixologiya, şəxsiyyət psixologiyası, hüquq psixologiyası, imic (xarici görünüş) psixologiyası ilə sıx bağlıdır. Sosial psixologiyanın bu sırada birincilərdən təsadüfi deyil, çünki onun bölmələri birbaşa siyasi psixologiya ilə əlaqəlidir: şəxsiyyətin sosial psixologiyası, kiçik qrupların psixologiyası, böyük sosial qruplar və kütləvi hadisələrin psixologiyası, ünsiyyət psixologiyası, münaqişə psixologiyası. iqtisadi psixologiya, etnopsixologiya və s. Siyasi psixologiya sosiologiya və politologiya ilə sıx bağlıdır. Xüsusilə siyasi sosiologiya ilə sıx əlaqədə olan siyasi psixologiya onun metodlarından (kütləvi rəy sorğuları, demoskopiya və s.) istifadə edərək, daha ətraflı şərh və keyfiyyətli təhlil aparır. Bu, hər iki elmi zənginləşdirir, baxmayaraq ki, sosioloqların və psixoloqların təmsil etdikləri elmlərin rolu və əhəmiyyəti barədə daima davam edən müzakirələr bitmir.

Siyasi psixologiyanın politologiya elmi ilə ümumi araşdırma obyekti var : siyasət. Siyasi psixologiyanın gündən-günə artan nüfuzuna baxmayaraq, politologiya bir çox hallarda müəyyən funksional problemlər irəli sürərək sifarişçi rolunu oynayır. Müvafiq olaraq, hər iki elmdə metodların qarşılıqlı əvəz etməsi baş verir. Politologiya elmi və siyasi təcrübə tərəfindən qoyulmuş funksional problemlər, müvafiq olaraq, bu və ya digər tədqiqat obyektini birinci yerə qoyaraq, siyasi psixologiyanın inkişaf dinamikasına təsir göstərir.



Siyasi psixologiyanın əsas diqqət mərkəzində olan tədqiqat obyektlərinə daxildir: daxili siyasətin psixologiyası, xarici siyasətin psixologiyası, beynəlxalq münasibətlərin psixologiyası və hərbi psixologiya.

Daxili siyasətdə tədqiqat obyektləri aşağıdakılardır: "siyasi insan"ın şəxsiyyəti; siyasi kiçik sosial qruplar; cəmiyyətin siyasi elitası; siyasətdəki böyük sosial qruplar və kütlələr; cəmiyyətdəki siyasi əhval-ruhiyyə; siyasi hakimiyyət uğrunda mübarizədən qaynaqlanan qruplararası qarşıdurmalar və s.

Tədqiqatın mərkəzində şəxsiyyətin siyasi psixologiyası və onunla birbaşa əlaqəli olan siyasi sosiallaşma və sosial münasibətlər problemləri dayanır. Siyasi proseslərlə bağlı intropsixi determenantlar siyasi narazılıqların təzahürləri, hökumət əleyhinə etirazlar, seçki davranışları və s. yollarla izlənilir.

"Siyasi insan"ın şəxsiyyətinin psixologiyası iki cəhətdən nəzərdən keçirilir:

1. Liderin şəxsiyyəti. Bu aspektdə konkret dövlət xadimlərinin və siyasətçilərin fərdi psixoloji xüsusiyyətləri araşdırılır. Bildiyimiz kimi, Z.Freyd U.Bullitin həmmüəllifliyi ilə elmdə ilk dəfə "ABŞ-ın 28-ci prezidenti" adlı əsərində T.V.Vilsonun psixobioqrafik portretini yaratmışdır [10]. Sonralar bu yanaşma təkcə psixoanalitik istiqamətlə deyil, digər istiqamətlərlə də zənginləşdirilmişdir. Bu tədqiqat çərçivəsində siyasi davranışın motivasiya mexanizmləri, siyasi qərarlar qəbul etməyin yolları, siyasi təfəkkürün xüsusiyyətləri, müxtəlif sosial qruplara təsir edən siyasi-psixoloji mexanizmlər; liderlərin imicinin xüsusiyyətləri fəal şəkildə araşdırılır.

2.Siyasi proseslərin sıravi iştirakçısının və ya müəyyən sosial qrup üzvünün şəxsiyyəti. Burada bir sıra problemlər araşdırılır-insanın siyasətə cəlbolunması dərəcəsi, spesifik iştirakçılar ("lider", "qul", "ifaçı", "simpatiyaçı" və s.), siyasi fəaliyyətdə iştirakın "keyfiyyəti" (çeviklik, rigidlik, yaradıcı yanaşma), siyasi sistemə "bağlılıq" mexanizmləri (məsələn, Qərb siyasi psixoloqları "sentimental" və "instrumental" kimi sədaqət növləri fərqləndirir) və s[6].

Şəxsiyyətin siyasi psixologiyasının öyrənilməsində ən mühüm yeri sosial mühit tutur. Siyasi sosiallaşma prosesi insanın ictimai, siyasi təcrübəni necə mənimsədiyini və eyni zamanda onu fəal şəkildə (mütəşəkkil və ya kortəbii) inkişaf etdirdiyini izah edir. Şəxsiyyətin sosial münasibətlərinin formalaşması bu suala cavab verir: əldə edilmiş sosial təcrübə şəxsiyyət tərəfindən necə əks olunur və konkret olaraq onun hərəkətlərində və əməllərində necə özünü göstərir?[2]. Siyasi psixologiyada sosial münasibətlər və stereotiplər deyilərkən şəxsiyyətin vəziyyəti qavramasına, onun qiymətləndirilməsinə və sonrakı hərəkətlərinə meylli olması başa düşülür. Bu kontekstdə sosial münasibətlər siyasi davranış və fəaliyyətin aparıcı mexanizmləri kimi öyrənilir. Yalnız bu mexanizmi öyrəndikdən sonra insanın davranışının və fəaliyyətinin konkret olaraq nə ilə tənzimləndiyini başa düşmək olar. Bunun üçün ilk növbədə insanın hərəkətə təşviq edən ehtiyac və motivlərini təhlil etmək lazımdır. Ümumi psixologiya və şəxsiyyət konsepsiyalarında hərəkətə təkan verən daxili mexanizmi başa düşmək üçün sadəcə ehtiyac və motivlərin nisbəti araşdırılır. Ancaq bununla yanaşı motiv seçiminin nə ilə müəyyənləşdirildiyi aydın deyil. Bu sualın bir neçə tərəfi var: niyə müəyyən hallarda insanlar bu cür hərəkət edirlər ? Niyə məhz bu hədəfi seçirlər? Bu hədəfi niyə burada və indi seçirlər ?[3] Motivin seçimini müəyyən dərəcədə izah edən anlayış elə sosial münasibətlər anlayışıdır [5]. A.N.Leontyevin nəzəriyyəsində sosial münasibətlərə yaxın olan



anlayışın məhz "şəxsi məna" anlayışının olması təsadüfi deyil, burada "şəxsi məna" anlayışı nəzərdə tutulmuş fəaliyyətin motivinin və məqsədinin nisbəti kimi qəbul edilir. Sosial münasibətdə müəyyən bir fəaliyyətə psixoloji hazırlıqla yanaşı koqnitiv və emosional komponentlər də daxildir, yəni subyektin siyasi obyektlərə fəal münasibəti - partiyalara, hərəkatlara, siyasi xadimlərə və s. Siyasi psixologiya çərçivəsində sosial münasibətlərin öyrənilməsinin fərqli bir xüsusiyyəti yalnız onları təsvir etmək deyil, onların formalaşma mexanizmlərini aşkar etmək, dəyişikliklərin istiqamətini proqnozlaşdırmaq və bu dəyişikliklərə məqsədyönlü təsir edən metodları seçməkdir. Siyasi psixologiya xarici siyasət və beynəlxalq münasibətlərdə psixologiya elminin təsirinin olduqca vacib olması fikrini dəstəkləyir. Bu gün, əvvəlki kimi, yalnız daxili deyil, həm də xarici siyasət məsələlərinin həllinə təsir edən dövlət rəhbərlərinin rolunu, ictimai rəyi və cəmiyyətin müxtəlif sosial təbəqələrinin siyasi əhval-ruhiyyəsini diqqətsiz qoymaq olmaz. Bu problemin mərkəzində müxtəlif ölkələrin siyasi elitasının öyrənilməsi dayanır (beynəlxalq əhəmiyyətli qərarları verən fərdlər və qruplar). Münaqişələrin problemləri həm nəzəri, həm də tətbiqi baxımdan ətraflı öyrənilir: xarici siyasət qərarlarının qəbul edilməsinin psixoloji mexanizmləri, elita tərəfindən keçirilən aksiyaların ictimai rəyə təsiri, beynəlxalq ziddiyyət və münaqişələrin danışıqlar və həlli yollarının psixoloji mexanizmləri. Ümumiyyətlə, bu istiqamətin predmetini "beynəlxalq münasibətlərin insan amili" təşkil edir.

Bu cür tədqiqatlar ilk növbədə tətbiqi xarakter daşıyır. Onlar aşağıdakıları nəzərdə tutur:

- beynəlxalq münasibətlər sahəsində özünə yer tapan kollektiv subyektlərinin psixi proseslərinin, xassələrinin və hallarının öyrənilməsi;

- beynəlxalq əhəmiyyətli siyasi hadisələri şərh etmək üçün psixoloji nəzəriyyədən istifadə;

- xarici siyasət və beynəlxalq münasibətlərdə siyasi qərarların psixoloji təhlili;

-siyasi ünsiyyətin və siyasi beynəlxalq kommunikasiyasının psixoloji aspektlərinin öyrənilməsi və nəzərə alınması;

- beynəlxalq münaqişələrin həllində psixoloji biliklərin istifadəsi, dövlətlərarası münasibətlərdə sabitliyin qorunması və s.

Siyasi psixologiyanın bir sıra obyektləri hərbi-siyasi məsələlərin həlli sahəsindədir [6]. Siyasi psixologiyanın hərbi-siyasi çərçivədə istifadəsi zamanı həqiqi və potensial düşmənlərin ordularına qarşı mübarizə məsələlərinə diqqət yetirilir. Bura aşağıdakı psixoloji tədqiqatlar daxildir:

- hərbi liderlərin şəxsi xüsusiyyətləri;

-xəyanətin psixoloji mexanizmlərinin inkişaf etdirilməsi problemləri;

-təxribatçı psixoloji tədbirlərin, xüsusi əməliyyatların hazırlanması məsələləri;

- dindirmə taktikasının təkmilləşdirilməsi məsələləri;

- psixoloji müharibə aparılması mexanizmlərinin müxtəlif formaları.

Beləliklə, siyasi psixologiyanın əsas obyektlərinin ilkin araşdırması göstərir ki, müasir siyasi-psixoloji elm hələ də nəzəri yanaşmaların və tətbiqi tədqiqatların sistematik kompleksləşməsini gerçəkləşdirmir, buna baxmayaraq, siyasi proseslərin və hadisələrin kifayət qədər ətraflı psixoloji xarakteristikasını verir.

## 1.3.Siyasi psixologiyanın əsas prinsipləri

Siyasi psixologiyanın prinsiplərinə iki kontekstdə baxıla bilər:elmi prinsiplər və etik. Bu prinsiplərin belə qruplaşması bütövlükdə siyasi-psixoloji tədqiqatların tətbiqi mənasından və siyasi



psixoloqun professional işinin etik problemlərindən irəli gəlir. Müstəqil, fənlərarası və eyni zamanda, konkret tədqiqatların özünəməxsus istiqaməti olaraq, siyasi psixologiya özünə xas olan beş əsas xüsusi elmi prinsiplərdən irəli gəlir. D.V.Olşanski bu prinsiplərin əhəmiyyətini təkcə elmi tədqiqat kimi deyil, həm də siyasi psixologiyanın dayandığı etik normalar kimi vurğulayır. Siyasi psixologiya böyük tətbiqi və praktiki əhəmiyyətə malik olduğundan, real siyasətdə xüsusi psixoloji "silah" kimi istifadə edilə bilər. Buna görə də siyasi psixologiya, ehtiyac duyan hər kəsin, eləcə də hər hansı bir siyasi qüvvənin istifadə edə biləcəyi biliklər toplusu kimi çıxış edərək, obyektivliyini itirir. Bunun qarşısını almaq üçün bir sıra əsas prinsiplər hazırlanmışdır, onların məqsədi daha çox siyasi psixoloqun işində çərçivə (məhdudiyyət) yaratmaqdır. Siyasi psixologiyanın ciddi obyektiv bir elm kimi inkişafını davam etdirməsi üçün bu prinsiplərin olması zəruridir.

Birinci prinsip - elmi obyektivlik prinsipi. Siyasi-psixoloji tədqiqatların mərkəzi "siyasi və psixoloji hadisələrin qarşılıqlı təsir zonası" olmalıdır. Bu və ya digər istiqamətə daha çox yönəlmə cəhdləri reduksionizmin metodoloji təhlükəsinə gətirib çıxarda bilər, yəni mürəkkəb siyasi-psixoloji reallıqlar ya sırf siyasi, ya da yalnız psixoloji nöqteyi nəzərindən izah olunar.

İkinci prinsip - aşkarlıq və açıqlıq prinsipi. Siyasi psixologiya tədqiqatlarında əsas yeri "ictimaiyyətin diqqətini çəkən ən əhəmiyyətli və aktual siyasi problemlər" tutmalıdır. Bu cür problemlərin həllində tədqiqatların nəticələrinin aşkarlığı və açıqlığı onların ictimai və ya siyasi-eqoist, antisosial və bəzən sadəcə cinayət məqsədləri üçün istifadəsinə əlavə bir maneə rolunu oynayır.

Üçüncü prinsip – siyasi-psixoloji tədqiqatların geniş sosial-siyasi kontekstinin nəzərə alınması prinsipi. Bu prinsipə əsasən, təhlil olunan psixoloji hadisələrin siyasi və sosial kontekstinə maksimal dərəcədə diqqət olunmasının vacibliyi vurğulanır. Konteks-

tin düzgün qiymətləndirilməməsi tərtib olunan nəticələrin etibarlılığını təhlükə altına alır və ictimai-siyasi inkişaf üçün təhlükəli olan tövsiyələrə səbəb olur. Eyni zamanda, kontekstin reallıqdan daha yüksək qiymətləndirilməsi də bəzən təhlükəlidir. Bu ziddiyyəti aradan qaldırmaq üçün mütəxəssislər geniş metodik prosedurlardan və məlumat toplama yollarından, o cümlədən tədqiqat prosedurlarından istifadə olunmasını təklif edirlər, çünki onların fikrincə, metodoloji plüralizm və müxtəliflik nəinki bəzən qaçılmaz, bəzən çox məhsuldar bir işdir. Nəticədə, bu cür plüralizm əvvəlcə metodoloji, sonra da məzmun genişliyi səbəbindən siyasi-psixoloji elmin izah imkanlarının əhəmiyyətli dərəcədə genişlənməsinə kömək edir.

Dördüncü prinsip - ən son nəticəyə diqqətin yetirilməsi prinsipi. Bu prinsipə əsasən, müəyyən psixoloji amillərin siyasətə təsirinin spesifik nəticələrini deyil, müəyyən siyasi hadisə və proseslərin formalaşması prosesini, həmçinin onların inkişafındakı potensial meylləri də öyrənmək lazımdır. Bu, təbii ki, siyasi-psixoloji tədqiqatların məzmun genişliyini daha böyük dərəcədə təmin edir.

Beşinci prinsip - neytrallıq prinsipi. Müasir siyasi psixologiya xarici və daxili siyasətin siyasi proseslərlə əlaqəli qiymət-ləndirilməsinə çox adekvat yanaşır, yəni müəyyən siyasi situasiyalarda insanların davranışını və ya cəmiyyətin siyasi qurumlara münasibətini neytral xarakterizə edir. Bu, siyasi və ideoloji cəhətdən neytral bir elmdir.

Siyasi psixologiyanın etik prinsipləri aşağıdakılardan ibarətdir [11]:

1. Siyasi obyektə zərər verməmək prinsipi. Siyasi psixoloqun araşdırmaları yalnız siyasi subyektlərin əleyhdarlarını mənəvi, iqtisadi, fiziki cəhətdən sıxışdırmaq məqsədi olmayan adekvat bir siyasətin yaradılmasına və həyata keçirilməsinə yönəldilməlidir:



-25806-

a) Siyasi psixoloq və siyasi obyektin qarşılıqlı hörmət qaydası. Siyasi psixoloqun açıqlamalarında təhqiramiz rəylər, tövsiyələr, qiymətləndirmələr, şərhlər olmamalıdır;

b) Siyasi psixoloqun davranış və hərəkətlərində siyasi obyektə qarşı təhlükəsizlik qaydası. Siyasi psixoloqun araşdırmaları və onun tövsiyələri siyasi proses iştirakçılarının heç biri üçün təhlükə zəmini yaratmamalıdır;

c) Siyasi subyektin siyasi obyektə qarşı qeyri-adekvat hərəkətləri haqqında əvvəlcədən xəbərdarlıq etməsi qaydası. Siyasi subyekt tələb etməməli, siyasi psixoloq isə işinin nəticələrinin siyasi obyektə zərər verməsi üçün istifadəsinə icazə verməməlidir.

2. Siyasi psixoloqun səriştəliliyi prinsipi. Siyasi psixoloq, müvafiq təhsili və dərəcəsi, habelə rəsmi sənədlər ilə təsdiq edilmiş iş təcrübəsi olan bir mütəxəssisdir:

a) Siyasi psixoloqun fəaliyyətinin nəticələrinin etibarlılığı qaydası. Siyasi psixoloq fəaliyyətinin elmi nəticələrini formalaşdırmaq üçün bilik və bacarıqlara sahib olmalıdır;

b) Siyasi psixoloq və siyasi subyektin (millət vəkili, partiya lideri, dövlət xadimi, ictimai xadim və s.) əməkdaşlıq qaydası. Siyasi psixoloq və siyasi subyekt fəaliyyətlərinin əsl səbəblərini gizlətmədən əməkdaşlığın bütün aspektləri barədə bir-birlərinə məlumat verməlidirlər;

c) Siyasi psixoloqun siyasi obyektə qarşı (seçicilər, nümayişçilər, tətillər və s.) peşəkar davranış qaydası. Siyasi psixoloqun ünsiyyət, siyasi obyekt ilə qarşılıqlı əlaqə yaratmaq qabiliyyəti və bacarığı olmalıdır.

3. Siyasi psixoloqun qərəzsizliyi prinsipi. Təcrübəli siyasi psixoloq hakimiyyət uğrunda mübarizə aparan istənilən siyasi təşkilatın lideri olmamalıdır:

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

a) Siyasi psixoloqun nəticələrinin elmiliyi qaydası. Tədqiqatın gedişində siyasi psixoloq yalnız ali təhsil müəssisələrində aldığı elmi biliklərə, bacarıqlara və vərdişlərə əsaslana bilər;

b) Siyasi obyekt ilə bağlı siyasi psixoloqun fəaliyyət metodlarının adekvatlıq qaydası. Siyasi psixoloq məlumat əldə etmək və ya siyasət subyektlərinə və obyektlərinə təsir etmək üçün qeyri-qanuni metodlardan istifadə etməməlidir.

c) Siyasi psixoloqun açıqladığı məlumatlar haqqında balansın qorunması qaydası. Siyasi psixoloqun açıqlamaları, tövsiyələri, hərəkətləri siyasətlə məşğul olan insanlar üçün hər hansı bir təhlükə yaradan səbəb və ya əsasları ehtiva etməməlidir.

4. Siyasi psixoloqun fəaliyyətinin məxfiliyi prinsipi. Siyasi psixoloq, siyasi subyektlər və obyektlər haqqında aldığı məxfi məlumatları heç bir şəkildə açıqlamamalıdır:

a) Psixoloji-siyasi xarakterli məlumatların kodlaşdırılması qaydası. Siyasi psixoloqun bütün tədqiqat materialları kodlanmış formada olmalıdır: hər hansı ixtiyari nömrələrin və ya hərflərin birləşməsi, ad və soyadın əvəzinə nömrə;

b) Psixoloji-siyasi məlumatların nəzarətdə saxlanması qaydası. Siyasi psixoloq, siyasi obyekt və subyekt haqqında psixoloji-siyasi xarakterli məlumatları, onların nəzarətsiz istifadəsini istisna edən bir yerdə və şəraitdə saxlayır;

c) Psixoloji-siyasi məlumatların düzgün istifadəsi qaydası. Siyasi psixoloq tərəfindən əldə edilən bütün psixoloji məlumatlar yalnız tədqiqatın aparıldığı məqsədlər üçün istifadə olunur.

Siyasi psixologiyanın bu prinsiplərinə riayət edildiyi təqdirdə, siyasi subyektlərin və obyektlərin, eləcə də siyasi psixoloqun özünün peşəkar və şəxsi təhlükəsizliyi təmin olunur, adekvat siyasət zərər görmür.



## 1.4. Siyasi psixologiyanın əsas problemləri və funksiyaları

Siyasi psixologiyanın tədqiqat əhatəsi siyasi psixologiyanın konkret obyektlərinə, habelə siyasətdə müəyyən olunan komponentlərinə əsaslanır. D.V.Olşanski siyasi psixologiyanın aktuallıq səviyyəsi ilə sadalanan və mərkəzində şəxsiyyət probleminin dayandığı beş qrup problemlərini müəyyən etmişdir. Bu təsnifatın konsentrik dairələri aşağıdakılardır: siyasətdəki kiçik qrupların psixologiyası; siyasətdəki böyük qrupların psixologiyası; siyasətdəki kütlələrin psixologiyası.

Siyasi psixologiya şəxsiyyət problemi kontekstində aşağıdakıları araşdırır:

- insan və siyasət münasibətləri;
-siyasətdə şəxsiyyətin rolunu müəyyən edən amillər;
-cəmiyyətdəki sosial-siyasi vəziyyət şəraitində inkişafın müxtəlif mərhələlərində şəxsiyyətin siyasi sosiallaşması;
- siyasi iştirakın genezisi;
- siyasi rəhbərlik və siyasi liderin şəxsiyyəti;
- cəmiyyətin siyasi elitasının təşkili.

Siyasətdəki kiçik qruplar problemi müxtəlif kontekstlərdə tədqiq olunmasını tələb edir:

- kiçik qrupların tipologiyaları;
-psixoloji mexanizmlər və mərhələlərin formalaşması;
-siyasi qrupların formalaşmasının daxili mexanizmləri;
- siyasətdə kiçik qrupların formalaşmasının əsas meyarları;
- liderin yaranması, lider və qrup (komanda) arasında münasibətlər.

Böyük sosial qruplar siyasi-psixoloji tədqiqatlar üçün xüsusi problemdir, onlar aşağıdakıları nəzərdə tutur:

- təsnifat, eləcə də böyük qrupların siyasətdəki rolunun və yerinin təhlili;
- böyük sosial qrupa aid olmağın insan psixikasına təsirinin öyrənilməsi;
- qrup psixologiyasının, qrup şüurunun qrup ideologiyası və qrup mədəniyyəti arasında əlaqələrin öyrənilməsi;
- böyük sosial qrupların siyasi-psixoloji səviyyələrinin və xarakterik xüsusiyyətlərinin müəyyənləşdirilməsi və öyrənilməsi;
- əhalinin marginallaşdırılmış qruplarının və təbəqələrinin, siyasi radikalizmin və psixoloji xüsusiyyətlərinin öyrənilməsi.

Böyük milli-etnik qruplar problemi siyasi psixoloqlar üçün xüsusi maraq yaradır:
- onların müxtəlifliyi və formalaşması;
- milli xarakter və milli temperament;
- milli emosiya və hisslər;
- milli şüur və milli kimlik;
- müasir dünyada milli-etnik problemlər və onların siyasi-psixoloji həlli yolları.

Siyasi psixologiyanın müraciət etdiyi ilk problemlərdən biri də siyasətdə kütlələrin psixologiyası və kütləvi siyasi davranış problemidir. Bu problemin araşdırılması siyasi psixoloqların aşağıdakı məsələlərlə bağlı diqqətini çəkir:
- dinamik siyasi proseslərdə kütlələrin psixologiyasının aparıcı rolu;
- kütləvi şüur, kütlənin əsas keyfiyyətləri kütləvi şüurun daşıyıcısı kimi;
- kütləvi şüurun genezisi, quruluşu, səviyyəsi və əsas xüsusiyyətləri;
- fərdi və kütləvi davranış, kütlənin fərdə təsiri;
- kütləvi siyasi əhval-ruhiyyə;
- davranışın kortəbii formaları;



- kütlənin psixologiyası, kütlə çaxnaşması və təcavüz .

Bura kütləvi siyasi təşkilatların və siyasi hərəkatların problemləri, eyni zamanda kütləvi kommunikasiya prosesləri də daxildir.

Siyasi psixologiyanın funksiyaları onun siyasi proseslərə, siyasi subyektlərin vəziyyətlərinə və xüsusiyyətlərinə, siyasi institutların fəaliyyətinə təsir göstərmək qabiliyyətini ifadə edir. Siyasi psixologiyanın ən vacib funksiyalarından biri, insanı siyasi münasibətlərin subyekti kimi təfəkkür ilə təmin edən qnoseoloji funksiyasıdır. Siyasi gerçəkliyin dərk olunmasında iştirak edən digər siyasi şüurun formalarından (elm, ideologiya və s.) fərqli olaraq, insanın siyasi emosiyaları və hissləri rasional-məntiqi yolla əldə edilmiş siyasi informasiyanı nəinki tamamlayır, zənginləşdirir və şaxələndirir, həm də insan öz siyasi mövqeyini seçəndə onu əvəz edə bilir. Siyasi psixologiyanın bu cür rolu, xüsusilə böhran dövrlərində cəmiyyətdə yaranan mənəvi boşluq insanın hissi qiymətləndirmələri ilə doldurulduqda, daha aydın görünür. Zamanla ayaqlaşmaqla, psixologiya emosional olaraq insanın siyasi baxışlarının və mövqelərinin müvafiq təkamülünü "formalaşdırır". Eyni zamanda, emosiyalar, hissi stereotiplər də reallığın inikasının rasional formalarını rədd edərək, insan baxışlarının dinamikasına inadkar müqavimət göstərə bilər. Bu vəziyyətdə siyasi hisslər insanın təfəkkürünün rigidliyini təhrik etməyi bacarır, bütün əldə edilmiş normalara və standartlara sadiq qalmasına səbəb olurlar.

Adaptasiya funksiyası insanın ətraf mühitə uyğunlaşmasını siyasi psixologiya vasitəsilə təmin etməyi nəzərdə tutur. Üstəlik, psixologiya insanın ətraf mühitə həm passiv, həm də aktiv qarşılıqlı uyğunlaşması zamanı bu məqsədə çatır. Aktiv qarşılıqlı uyğunlaşma zamanı, məsələn, yeni siyasi rolların mənimsəməsi prosesində insanın xüsusiyyətləri və rolların təsirindən xarici şərtlər də aktiv şəkildə dəyişir.

İnsanın ətraf mühitin reallıqlarına məcburi adaptasiyası üçün siyasi psixologiya stressli vəziyyətlərə, şəxsin mənfi siyasi reaksiyalarına səbəb olan sosial və siyasi amillərin təsirini neytrallaşdırmalıdır. Bu baxımdan siyasi psixologiya iki istiqamətdə hərəkət etməlidir:

1.İnsanın pozitiv davranış reaksiyalarını stimullaşdırmaq, yəni insanda pozitiv stereotipləri və vərdişləri formalaşdırmaq (bəzən insanın öz fikirlərini, mövqelərini geniş spektrdə nəzərdən keçirməsini tələb etdiyi üçün bunu etmək hərdən çox çətin olur)

2.Neytral-konformist münasibət, yəni bu cür hadisələrə sakit və nisbətən qərəzsiz münasibət göstərmək vərdişi formalaşdırmaq.

Psixologiya insanın ətraf mühitə uyğunlaşmasının üç növünü təmin edə bilər: konformluq (fikirlərin, ideaların artıq müəyyən olunmuş qayda ilə qəbul olunması), innovativlik (ətraf mühitə münasibətdə fəallıq və müstəqillik mövqeyini qorumaq) və ritualizm (insanın ətraf mühitə münasibətdə simvolik və tənqidsiz mövqeyini ifadə etməsi) [4]. İnsanın sabit proqnozlaşdırılan davranışını ifadə edən adaptasiyanın birinci və üçüncü növləri hakimiyyətdə olanlar üçün ən uyğundur. Daha çox yayılmış konformist uyğunlaşma insanı siyasi vəziyyətə qarşı hər hansı kəskin cavab reaksiyalardan məhrum edir, dövlətlə əlaqə və münasibətlərini rituallaşdırır. Konformistli adaptasiya edilmiş insan, bir qayda olaraq, hakimiyyətin səhvlərini görmür və ona hər şeyi, hətta cinayətləri də bağışlamağa hazırdır.

Siyasi psixologiyanın funksiyalarından biri fəaliyyətin motivləşməsi funksiyasıdır. Şəxsiyyətin fərdi xüsusiyyətlərini inteqrasiya etməklə, siyasi psixologiya onun siyasi məqsəd və niyyətlərinin şüur sahəsindən davranış sahəsinə keçirilməsi prosesində əsas mexanizm kimi çıxış edir. Yəni, o, yalnız şüur və praktikanın daimi təmasını təmin etmir, həm də insan fəaliyyətinin motivasiyasında kifayət qədər avtonom amil rolunu oynayır.



Eyni zamanda, siyasi emosiya və hisslər iki şəkildə hərəkət edir. Siyasi psixologiyanın motivasiya funksiyası fərdi və qrup subyektlərinin hərəkətlərini müstəqil müəyyənləşdirir. Bu variantda emosional münasibətlərin nisbəti bütün digər mülahizələrə üstünlük təşkil edəcək. Ümumiyyətlə, emosional-hissedici komponentin üstünlük təşkil etməsi ilk növbədə, insanların siyasi funksiyalarını və rollarını gerçəkləşdirdikdə özünü göstərir. Amerika sosioloqu R.Merton bunu aşağıdakı şəkildə göstərirdi:

- insanın funksional şəxssiz siyasi əlaqələrinə şəxsi xarakter vermək istəyi olanda (məsələn, dövlətlə münasibətlərinə dərin şəxsi mənasını verməyə və ya səsvermə aktını dramatikləşdirməyə çalışarkən, onu həyatında həlledici məsələ kimi qəbul etmək);

- şəxsiyyətin partiya və ya peşə ilə eyniləşdirilməsində (məsələn, partiyanın hədəfləri insanın əsas həyat dəyərlərinə hakim olmağa başlayanda);

-siyasi təşkilatlarla həddindən artıq həmrəyliyin təzahüründə;

- liderin nüfuzuna artan emosional münasibətdə [6].

Siyasi psixologiyanın belə motivasiya qabiliyyəti cəmiyyətin kritik dövrlərində xüsusilə aydın şəkildə ortaya çıxır. Məsələn, inqilabi dönüşlər şəraitində siyasi arenada yüksək emosionalhəssas və ya, sadəcə, sinir pozuntusu olan, hətta ruhi xəstə insanlara rast gəlmək olar. İtalyan sosioloq S.Sigelenin yazdığı kimi: “... dəli insanların sayı həmişə inqilablar və ya qəzəblər zamanı çox olur, bu təkcə dəli insanların hadisələrdə iştirak etdikləri üçün deyil, həm də cəmiyyət yalnız dəliliyə meylli insanları dəli etdikləri üçün baş verir” [9] .

Tarixdə neçə inqilab liderlərinin fikirlərinin inkişaf etdiyinə dair çox nümunələr var. Məsələn. Robespyer və onun bir sıra digər məşhur həmkarları, inqilabi proseslərin sürətlə artması ilə sevincli insanlara, onlarla razılaşmayan insanlara qarşı xoşagəlməz münasi-

bət başlayanlara və sonra, etirazlara dözə bilməyən, özlərinə qapanan, hər yerdə xəyanət və sui-qəsd təsəvvür edən şəxslərə çevrildi.

Siyasi psixologiyanın motivasiya funksiyasını həyata keçirməsinin başqa bir yolu onun insanın müxtəlif səmərəli və rasional niyyətlərinin hərəkətlərini əks etdirmək və tamamlamaq xüsusiyyətidir. Bu baxımdan siyasi emosiya və hisslər artıq aparıcı deyil, əksinə, tabeedici rol oynayır. Bu cür motivasiyanın mexanizmi onun siyasi psixologiyanı rasionallaşdıran ideologiya ilə qarşılıqlı əlaqəsi nümunəsində aydın görünür. Bununla belə, ideoloji tələblərin həyata keçirilmə dərəcəsi insanın onun elementlərini – idealları, dəyərləri, normalari, prinsipləri və s. – hansı formada emosional qavramasından asılıdır. Buna görə də, konkret hallarda ya ümumi ideoloji dəyərlər, ya da müxtəlif siyasi hakimiyyət institutları tərəfindən formalaşdırılan ayrı-ayrı subyektlərin davranışlarına dair konkret norma və tələblər insanların motivasiyasında üstünlük təşkil edə bilər.

Vətəndaşların məqsədyönlü siyasi davranışının müvafiq formalarını siyasi ideologiyanın normativ tələblərinin emosional-həssas reaksiyası müəyyənləşdirir. Vətəndaşların məqsədyönümlü hərəkətləri, bir qayda olaraq, siyasi məqsədlərin və onlara çatmaq vasitələrinin insan tərəfindən sərbəst seçimini əks etdirən, avtonom siyasi davranış tipinə aiddir. Bu davranış tipi, xarici faktorların təzyiqi ilə insanın məcburi şəkildə fəaliyyətə yönəlməsini xarakterizə edən fəaliyyət formalarına qarşıdır.

### 1.5. Siyasi psixologiya və ya siyasətin psixologiyası

Siyasətin psixologiyası-sovet dövründə ictimaiyyət kimi araşdırılan, politologiya və sosial psixologiyanın birləşməsindən yaranan elmdir. Əvvəlcə o, qərb ənənələrinin təsiri altında sosial psixologiyanın nisbətən müstəqil sahəsi kimi inkişaf etmişdir. Zaman keçdikcə kifayət qədər müstəqil elmi istiqamət kimi xüsusi status əldə etməyə başladı. Bununla da siyasətin psixologiyası çərçivəsində tədqiqatlara başlanılır. “Siyasətin psixologiyası” anlayışı özü qərb “siyasi psixologiya”sına zidd anlayış kimi yaranmışdır. Hesab olunurdu ki, siyasətin psixologiyası marksizmin metodologiyasına və prinsiplərinə müvafiq olaraq formalaşacaq. Lakin bu cəhd uğurlu alınmadı. Buna baxmayaraq, “siyasətin psixologiyası” termini hələ də tədqiqatlarda istifadə olunur. Hazırda siyasətin psixologiyası öz marginal statusunu demək olar ki, saxlayır. Bir tərəfdən empirik tədqiqatlar davam edir, digər tərəfdən isə yalnız empirik-metodiki tədqiqatlar deyil, eyni zamanda “siyasətin psixologiyası”nın politologiya sistemində nəzəri-metodiki tədqiqi də aparılır. Onlar arasında bir sıra prinsipial fərqlər vardır. Əgər Qərb siyasi psixologiyası əvvəllər müstəqil status tələb edirdisə, siyasətin psixologiyası uzun illər politologiyanın bir istiqaməti kimi qalaraq, cür status tələb etmirdi. Siyasətin psixologiyasının ontoloji kökləri Qərb siyasi psixologiyası ilə bağlı idi. Hər şeydən əvvəl onların tədqiqat obyekti eyni idi. “Siyasi psixologiya” və “Siyasətin psixologiyası” anlayışları hələ də bir-birindən fərqləndirilmir və sinonim kimi işlədilir.

“Siyasətin psixologiyası”nın predmeti real siyasi institutlara, proseslərə və bu institutlara “insan faktoru” tərəfindən təsir edən amillərin xüsusi, sistemli təşkil olunmuş məcmusu kimi başa düşülürdü. Bütün fərqlər metodologiyada özünü göstərir.

Hal-hazırda politologiya çərçivəsində müəyyən yer tutan “siyasətin psixologiyası” sosial psixologiyanın bir qolu kimi çıxış edir. Əgər sosial psixologiya insanların cəmiyyətdə davranışlarının daha ümumi qanunlarını və mexanizmlərini tədqiq edirsə, “siyasətin psixologiyası” sosial psixologiyanın sırf siyasi davranışların qanunauyğunluqları və mexanizmləri ilə əlaqədar olan məsələləri tədqiq edir.

"Siyasətin psixologiyası" 80-ci illərdə üç nəzəri əsasa malik idi. Birinci əsas, siyasi fəlsəfə ilə əlaqədar idi. Siyasi həyatda insan amilinin roluna aid marksist düşüncələrə uyğun gəlirdi. Materialist yanaşmaya görə siyasət insanın həssas fəaliyyəti olaraq, praktika kimi subyektiv cəhətii özündə özündə ehtiva edir. Fəaliyyət isə məlum olduğu kimi subyektsiz mümkün deyil. Siyasətin subyekti də insan fəaliyyətinin xüsusi növü kimi ayrı-ayrı fərdlər, həm də xüsusi sosial-psixoloji xüsusiyyətlərə malik müxtəlif sosial təşkil olunmuş insan birlikləri olan insanlardır.

Siyasətin psixologiyasının ikinci əsası sosiologiya və sosial psixologiya idi. Onlar siyasətin psixologiyasına tədqiqatın əsas metodik üsullarını, həmçinin siyasi-psixoloji və sosializasiya proseslərinə analitik yanaşmanın konkret-elmi metodologiyasını vermişlər. Siyası psixologiyanın üçüncü əsası tarixi materializmə əsaslanan marksist siyasi elmin özü idi. 80-ci illərdə çox saylı daxili böhranlar keçirərək o, artıq monopolizm iddialarından uzaq idi və əsasən özünəməxsus ideoloji "örtük" kimi çıxış edirdi. Siyasi psixologiyadan fərqli olaraq "siyasətin psixologiyası" politologiyanın tərkibində öz predmetini cəmiyyətin siyasi həyatını öyrənən mürəkkəb təzahürlər kimi ayırd edir. Ümumi obyekt kimi siyasətə və elmi fənn kimi politologiyaya tabe olan "siyasətin psixologiyası" psixoloji amillərin təzahürü olduğunu etiraf edir. Məhz belə həm siyasət, həm də psixoloji mərkəzləşmiş metodoloji yol "siyasətin psixologiyasının" əsası olmaqla yanaşı sanki qneseoloji cəhətdən onu "siyasi psixologiya"dan ayıran bölmədir.

Politologiya bütöv bir elm kimi siyasətin qavranılması sistemini özündə əks etdirir. beləliklə, çoxmərtəbəli binaya bənzəyir. onun hər mərtəbəsində siyasətin müəyyən aspekt və amillərini öyrənən bu və ya digər konkret bilik sahəsi yerləşir. Müvafiq olaraq "siyasətin sosiologiyası" və "siyasətin fəlsəfəsi" və s. fənnlərlə yanaşı "siyasətin psixologiyası"na da "mərtəbə" ayrılması ədalətli



olar. "Siyasətin psixologiyası" və "Siyasi psixologiya" anlayışlarının tərkibi bir-birinə zidd deyil, əksinə bir çox hallarda bir-birini tamamlayır. Hər iki anlayış müxtəlif metodoloji ənənələrdə yaranan terminlərdir. Bunu nəzərə alaraq müasir ədəbiyyatlarda yalnız "Siyasi psixologiya" terminindən istifadə edilir. Bundan başqa, artıq nə "Qərb" və ya "Şərq" siyasi psixologiyası, nə də "Marksist" və ya "Antimarksisit" siyasi psixologiya anlayışı yoxdur. Artıq vahid dünya elmi mövcuddur və bu elm müxtəlif cəmiyyətlərdə müxtəlif xüsusiyyətlərə malikdir.

### 1.6. Siyasi psixologiya və mentalitet

Bəzi mənbələrdə siyasi psixologiyanın predmetini siyasi "mentalitet" adlandırırlar. Mentalitet ingilis sözüdür. "Mentality"-şüur deməkdir-siyasi-publisistik planda bir qədər ifadəli anlayış kimi ümumiləşmişdir. Bu anlayış geniş mənada təşkilatın spesifik forması və məcmusunu, müxtəlif psixi xüsusiyyətləri və keyfiyyətləri, davranışların öxünəməxsus bazasını ifadə edir. Əslində orijinal düşünmə qabiliyyətini ağıllı ifadə etmək üçün istifadə olunur. Məsələn, bəzən ədəbiyyatlarda milli mentalitet –"azərbaycanlı", "gürcü", "rus" və s. anlayışları kimi də işlənir. Bəzi mənbələrdə regional mentalitet anlayışına da rast gəlinir. Hərdən sosial qrupun. təbəqənin, sinfin "intelligent", "marginal" və s. mentalitetlərindən danışılır. Bir vaxtlar mentalitet anlayışı tarixi-psixoloji istiqamətin nümayəndələri A.Lfevr, M.Blok və başqaları tərəfindən ictimaiyyətşünaslığa gətirilmişdir. İlk günlər mentalitet kontekstində eyni bir tarixi mədəni sistemə aid insanların sosial-mədəni, milli-etnik birlikləri başa düşülürdü. Onların özünəməxsus psixoloji xüsusiyyətləri onlara təbiəti və sosial ətrafı həmçinin, özlərini qavramaq və qəbul etmək imkanı verirdi.

Siyasi psixoloji mənada mentalitet sosial-siyasi qruplar və ya təşkilatın üzvləri üçün müəyyən ümumi siyasi–psixoloji tezaurusu ("lüğət","leksikon"-dünyanı düşünmə və qavrama prizması) ifadə edir. Məhz o, ətrafdakı sosial-siyasi reallığı kifayət qədər eyni şəkildə qəbul etməyə, onu qiymətləndirməyə və bir-birini adekvat anlayaraq və qəbul edərək cəmiyyətə qoyulmuş və möhkəmlənmiş müəyyən normalara və nümunəvi davranışlara müvafiq hərəkət etməyə imkan verir. Bu halda ümumi mentalitet özü mentalitet üzvlərinin hamısı üçün vahid siyasi-psixoloji birliyi yaradan təşkiledici faktora çevrilir.

Funksional-sosial siyasi nöqteyi-nəzərdən bu və ya digər qrup üçün ümumi olan mentalitet -hər şeydən əvvəl sabit, lakin xüsusilə, böhran vəziyyətlərində öz üzvlərinin davranışlarının möhkəmliyinə və öz mövcudluğunu saxlamağa kömək edir. Böhran vəziyyəti mentalitetə əsasən elə dağıdıcı təsir göstərir ki, onun bütövlüyü təhlükə altına düşür, ekstremal halda isə kritik təsirlər stabilliyi pozur, təbəqələşmə yaradır və qrup üzvlərinin mentalitet birliyini dağıdaraq siyasi-psixoloji birliyin də tamamilə dağılmasına səbəb olur. Bu cür hadisələr nəticəsində yaranan anormallıq deviant davranışın çoxsaylı formalarının yaranmasına və bu birliyin münaqişələrinin kəskin psixoloji böhranına və bunların ardınca da sosial-siyasi nəticələrə səbəb olur. Belə hallarda birlik sosializasiyası struktursuz davranışlara qadir olur ki, bu da yalnız sosial ətrafın deyil, birliyin özünün də dağılmasına səbəb olur. Bu zaman xüsusu "böhran mentaliteti" yaranır. Onun əsas xüsusiyyətləri özünəməxsus qarışıqlıq, sistemsizlik, bütövlüyün və möhkəmliliyin olmaması, fasiləsiz dəyişkənlik hesab olunur. Strukturlaşmış böhransız mentalitetdən fərqli olaraq böhranlı mentalitet növü labil, axınvari xarakter daşıyır. Bu növ mentalitet totalitarizimdən demokratiyaya sərt keçid vəziyyətində yaranır. Bu, ictimai həyatda çoxlu sayda yeni normaların yaranması, ən çox da sosial-siyasi



pluarizm, çoxpartiyalılıq və s. əmələ gəlməsi ilə xarakterizə olunur. Sovet cəmiyyətində yenidənqurmaya keçid zamanı müxtəlif islahatların aparılmasına cəhd edilməsi də bu qəbildəndir. Bu islahatların əsas faktoru "insan faktoru" olmalı idi. Hadisələrin gedişi göstərdi ki, mentalitetin dəyişməsi uzunsürən və ağrılı prosesdir. Yəni, birinci, əvvəlki psixoloji düşüncədən imtina edilmənin çətinliyi ilə əhəmiyyətli dərəcədə ətalətlilik və əvvəlki mentalitetin müqavimət göstərməsi özünü büruzə verir. İkincisi, onun destruktiv nəticələr verməsi və çox tez məhv olması qorxusu yaranır. Üçüncüsü, yeni mentalitetin formalaşdırılmasının mürəkkəbliyi, insanların yeni şəraitə məcburi adaptasiya olunmasının uzunsürən və çətin olması özünü göstərir. Bu cür çətinliklər ona gətirib çıxarır ki, ictimai yeniləşmə cəmiyyəti kütləvi mentalitetinin dəstəyindən məhrum edir və cəmiyyət üzvlərinin siyasi-psixoloji tərəfdən əlavə müqavimətini dəf etməyə məcbur edir.

### 1.7. Davranış haqqında nəzəriyyələr siyasi psixologiyanın metodoloji bazası kimi

Müasir qərb siyasi psixologiyasının metodoloji əsası davranışlar haqqında nəzəriyyələr və yaxud da birbaşa biheviorist nəzəriyyələr hesab olunur. Bu nəzəriyyələrin əsasını isə siyasətə insan davranışlarının xüsusi sahəsi kimi baxılması təşkil edir. Davranışlar haqqındakı ilkin tədqiqatların tarixi XX əsrin 30 cu illərinə təsadüf edir. Davranış nəzəriyyəsi öz inkişafı tarixində siyasi və psixoloji biliklərin birləşməsi əsasında siyasətə daha "konstruktiv–praqmatik" yanaşılmasına çalışırdı. Bunun vacibliyini ilk anlayan və həyata keçirməyə çalışan amerikalı tədqiqatçı Ç.Merriam olmuşdur. Siyasi davranış haqqındakı vəziyyəti siyasi elmin mərkəzi konsepsiyası kimi əsaslandıraraq, o, empirik yolla, empirik sosiologiya və sosial psixologiyanın tədqiqat üsullarını siyasi elmdə

birləşdirməklə, şəxsin və bu və ya digər sosial qrupun, eləcə də kütləvi fenomenlərin siyasi davranışlarının spesifik əlamətlərini aydınlaşdırmağı tələb edirdi. Ç.Merriamın siyasi psixologiyanın yaranmasındakı əməyinin danılmaz olmasına baxmayaraq, onun ideyaları bu gün tam şəkildə reallaşmamışdır. Siyasi psixo-logi-yada davranış nəzəriyyəsində H.D.Lassuellin əməyini də qeyd etmək lazımdır. Ç. Merriam və H.D.Lassuellin tədqiqatlarından sonra tədqiqatların sayı artmağa başladı və uzun illər qərb siyasi elmlərində "davranış yanaşması" tədqiqatların əsasını təşkil etməyə başladı.

Siyasi psixologiyada davranış haqqındakı nəzəriyyələr insanın siyasi fəaliyyətinin yalnız xaricdən müşahidə olunan aspektlərini deyil, həm də bu davranışın daxili subyektiv mexanizmlərini diqqət mərkəzinə çəkir. Qərb elmində siyasətə davranış yanaşması ənənəvi olaraq "ideal" sayılan "siyasi insan" modelinə, bəzi siyasi münasibətlər sisteminin daxilində mövcud olan vətəndaş modelinə əsaslanır. Bu cür insan həyat üçün vacib olan sosial siyasi keyfiyyətlərə malikdir. Yəni, o cəmiyyətin normaları kimi qəbul olunmuş yüksək keyfiyyətlərə malikdir və cəmiyyət üçün "təbii" olan qayda qanunlara müsbət yanaşır. Adətən, o, qarşısına müəyyən sosial-siyasi məqsədlər qoyur, onlara çatmaq üçün effektiv vasitələri seçə bilir, həmçinin mövcud siyasi sistemin norma və dəyərlərinə müvafiq olan siyasi qüvvələri və ayrı-ayrı ictimai-siyasi xadimləri "düzgün" qiymətləndirməyi bacarır. Bu cür model ənənəsi müxtəlif variantlarda C.Lok, A.Smit, J.Russo, A.Ferqyusson və başqalarının fəlsəfi baxışlarına uyğun gəlir. Davranış yanaşmasının tərəfdarları kifayət qədər sadə mülahizələr söyləyirlər: Seçicinin "müəyyən prinsipləri var", o , "müəyyən qədər ağıllıdır", onun "öz maraqları var", lakin o, bunları heç də həmişə dərk etmir və bunlar onun şüurunda siyasi filosofların dediyi qədər ekstremal və detallı formada əks olunmur. Empirik meyilli davranış yanaşmasının



məqsədi elə konkret siyasi-psixoloji normaların axtarışıdır ki, bunlarda anlayışlar və kateqoriyalar daha yüksək və fəlsəfi qaydada real mövcud olsun və özünü göstərsin. Digər variantlarda, dav-ranış yanaşması siyasi elmin mərkəzində ümumiyyətlə, hakimiyyətin həyata keçirilməsində (yaxud onun həyata keçirilməsinə qarşı çıxılmasında) insanın və ya qrupun istənilən tərzdə iştirakının dayandığını bildirir. Bu rəsmi təşkilatlarda və kütləvi hərəkatlarda iştirakı əhatə edən siyasətin müxtəlif elementlərinə qoşularaq və ya şüurlu şəkildə onlardan uzaqlaşmaq, ictimai və ya siyasi institutlara və hakim (rəhbər) siyasi qruplara təsir etmək məqsədilə öz baxışlarını açıq nümayiş etdirmək formasıdır. Bu variantda davranış yanaşması siyasi sistemə münasibətdə hər hansı şəxsin hərəkətlərinin bəzi analızlərini etməyə meyllidir. Bu cür hərəkətlərin strukturu adətən, hərəkət subyektindən bu fəaliyyətin həyata keçirilməsi şəraitindən, fəaliyyət obyektindən və həmin fəaliyyətin müvafiq məqsədlə qurulmasından ibarətdir. Bu cür yanaşmada analiz üçün maraqlı olan siyasi-psixoloji nöqteyi-nəzərdən siyasi fəaliyyətin subyekti və onu hərəkətə gətirən daxili subyektiv mexanizmlərdir. Davranış yanaşmasının əsas üstünlüyü siyasətin vəziyyətinə və subyektiv aspektinə yetirilməsindədir. İctimai həyatın siyasi psixoloji sahələri buna qədər düzgün qiymətləndirilməmişdi.

Davranış yanaşmasının ideyalarına digər istiqamətlərin nümayəndələri birmənalı yanaşmırdılar. Bəzi çatışmazlıqlar aşağıdakılardır:

1.Siyasi davranışın təhlil olunmasına nail olmaq, bir çox hallarda isə məhz seçki qabağı davranış kimi baxmaq, yəni vacib, lakin siyasi həyatın yalnız bir forması kimi qətiləşdirmək. Davranış yanaşmasının bu variant daxilində aparılan statistik və sorğu tədqiqatları bir qayda olaraq yalnız elektoratın mümkün seçkisi barədə nəticələr verir, lakin bu seçicinin siyasi psixoloji mexanizmlərinə nüfuz etməyə imkan vermir. Bu məlumatlar bəzi siyasətçi və

politoloqlara kifayət qədər görünsə də, bu belə deyil. Müasir tədqiqatlara görə isə siyasi davranışın psixoloji mexanizmlərinin analizi daha məhsuldar istiqamət sayılır.

2.Siyasi davranışa yalnız siyasi sistemin sabitliyi daxilində baxmaq kifayət deyil, qeyri-sabit vəziyyətdə, məsələn böhran və ya müharibə şəraitində siyasi davranışın analizinin arxa planda qalması həmin variantların çatışmazlıqlarındandır. Əslində isə bu varianta görə davranış yanaşması çərçivəsində söhbət məhz sistemləşdirilmiş siyasi davranışlardan gedir. Bu, hər şeydən əvvəl siyasi institutların insanlara və onların davranışlarına təsiri nəticəsinin analizi əsasında dolayı yolla öyrənilməsidir. Bu cür yanaşmada digər tərəf –siyasi proseslərin insanların davranışlarına təsiri aradan çıxır. Hesab edirik ki, tənqidin bu tərəfi də ədalətlidir. Real olaraq davranış yanaşmasının imkanları əhəmiyyətli dərəcədə genişdir. Davranış yanaşmasının dinamik-prosessual variantı siyasi psixologiyanın qarşısında əhəmiyyətli perspektivlər açır və digər siyasi elmlərin edə bilmədiklərini edir.

3.Davranış yanaşmasının davranışın yalnız verbal qiymətləndirilməsi, siyasi davranışın təzahürlərinin nəzərə alınmaması ilə analizin məhdudlaşması meyilləri təhdidə səbəb olur. Burada isə məqsəd qeyri-verval davranışları əsas götürməkdir.

4. Bəzi tənqidçilər siyasi davranış subyekti anlayışını qəbul etmirlər. Davranış yanaşmasının ilkin mərhələlərində insan birlikləri deyil, onları seçkilərdə iştirak etməyə və yaxud ondan kənar durmağa sövq edən ayrı-ayrı fərdlər və onların davranış motivasiyası tədqiq olunurdu. Davranış yanaşmasının müasir variantları göstərir ki, siyasi davranış həm ayrı-ayrı fərdlərə, həm də müxtəlif sosial qruplara (siyasi davranışın "kollektiv" və ya "qrup" forması adlanan), həmçinin də strukturlaşmamış böyük insan kütləsinə ("kollektivləşməmiş forma" və ya "korkoranə" davranış) xasdır. Bu kontekstdə hesab olunur ki, siyasi davranış iki növ mexanizm-



lə tənzimlənir. Bir tərəfdən, o, siyasi fəaliyyətin xarakterini, səbəbini, çərçivə və istiqamətini müəyyənləşdirən obyektiv amillərlə tənzimlənir. Bu amillər sosial-iqtisadi şərait və siyasi institutlar tərəfindən verilir. Nəticədə bu, insanların bütün tarixi fəaliyyətinin bazasını yaradan maddi həyatın və istehsal şəraitinin xarakteri məsələsidir.

Digər tərəfdən, siyasi davranışın daxili subyektiv mexanizmləri olur. Siyasi sistemlə münasibətdə insanların davranışı digər davranışlar kimi onların fikirləri, hissləri, əhval ruhiyyələri və ümumiyyətlə psixikası ilə əlaqədar olur. Bu kontekstdə davranış yanaşmasının əsas vəzifəsi dialektika və transformasiyanın daxili motivasiyaya təsirinin, əks qaydada, xarici şəraitə insan davranışından keçən oyandırıcı qüvvələrin təsirinin öyrənilməsidir.

**Mövzuya aid sual və tapşırıqlar:**

1.Siyasi psixologiyanın obyekti və predmeti nədir?
2.Siyasi psixologiyanın tədqiqat obyektləri hansılardır?
3.Siyasi psixologiyanın əsas prinsipləri hansılardır?
4.Daxili siyasətin psixologiyası istiqamətinin banisi kim idi?
5. Siyasi mentalitet nədir?

**Ədəbiyyat**

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar-Çap, 2002, 623s.
2. Piriyeva E.A., Məmmədli İ.M. Siyasi psixologiya. Bakı: Eco-print, 2016, 236 s.
3. Андреева Г.М. Социальная психология. М.: Аспект-Пресс. 2000, 373 с.

4. Бозаджиев В.Л. Политическая психология. М.: Академия Естествознания, 2015, 474 с.
5. Иванников В.А. Основы психологии: Курс лекций. СПб: Питер, 2010, 336 с.
6. Мертон Р.К. Социальная теория и социальная структура. М: АСТ, Хранитель, 2006, 873 с.
7. Обуховский К. Психология влечений человека. М: Прогресс, 1972 , 254 с.
8. Ольшанский Д.В. Основы политической психологии. Екатеринбург : Деловая книга, 2001, 496 с.
9. Сигеле С. Преступная толпа. Опыт коллективной психологии. М.: Академический проект, 2011, 125 с.
10. Фрейд З.. Буллит У. Вудро Вильсон. 28-й президент США. Психологическое исследование. М.:Прогресс, 1992. 288 с.
11. Этический кодекс политического психолога. http://www.spbpo.ru/info.php.
12. Merton R.K. Approaches to the study of social Structure. USA: Free Press, 1975, 294 p.



# II FƏSİL
# SİYASİ PSİXOLOGİYANIN İNKİŞAF TARİXİ VƏ MÜASİR VƏZİYYƏTİ

## 2.1. Siyasi psixologiyanın yaranma tarixi

Siyasi psixologiya kifayət qədər cavan elmdir. Qərb siyasi psixologiyasının yaranma tarixi rəsmi olaraq 1968-ci ildə Amerika Siyasi Elmlər Assosasiyasının nəzdində təşkil olunmuş siyasi psixologiya şöbəsi təsis edildiyi vaxtdan hesab olunur. Elə həmin dövrdən Amerika Universitetlərində siyasi psixologiya fənləri tədris olunmağa başlanmışdır, eyni zamanda bir sıra universitetlər psixoloji biliklər sahəsində politoloqlar hazırlanmasının xüsusi proqramını tətbiq etdilər.

Buna qədər siyasi psixologiya ayrı-ayrı, demək olar təsadüfi, sistemləşdirilməmiş faktorları, müşahidələri, əsassız formaları özündə əks etdirirdi, həll edilməmiş metodoloji problemlər onun inkişafına mane olurdu.

Əslində siyasi-psixoloji ideyaların, müşahidələrin, biliklərin və hətta konkret tədqiqatların tarixi kökləri daha qədim dövrlərə təsadüf edir, çünki eradan əvvəldən bu günə qədər empirik və nəzəri tədqiqatlar bu elmin tarixi köklərinin olduğunu təsdiq edir. Həm siyasi xadimlər, həm də alimlər siyasi proseslərin subyektiv və obyektiv tərəfləri ilə maraqlanmış və siyasi psixologiyanı politologiya və sosial psixologiya elmlərinin kəsişməsində yaranan fənn kimi araşdırmışlar.

Müasir qərb dövlətlərində siyasi psixologiya praktik siyasət meydanlarına möhkəm nüfuz edir. Bu sahələrdə çalışan ekspertlərin xüsusi köməyi və məsləhətləri olmadan demək olar ki, heç bir vacib siyasi qərarın qəbulu mümkün deyil. Buna prezidentlər, senatorlar, seçki kompaniyalarında iştirak edən namizədlər, kütləvi informasiya vasitələri və ictimai birliklərin hamısı əməl edirlər.

Siyasətin subyekti ayrı-ayrı şəxslər, kiçik və ya böyük qruplar, həmçinin kor-koranə kütlə ola bilər. Siyasət yaradıcılıq kimi, bütövlükdə və ya ayrı-ayrı tərkib hissələrində təşkil olunmuş və ya təşkil olunmamış, strukturlaşdırılmış və ya strukturlaşdırılmamış xarakter daşıya bilər. Siyasi-psixoloji biliklərin tətbiqinin tarixi, əsas nəzəriyyə və praktiki bir elm kimi siyasi psixologiyanın həll etdiyi 3 problemi qeyd etməyə imkan verir. Müəyyən səviyyədə bu məsələlər tarixi inkişaf yolunu keçib və siyasi psixologiyanın inkişafının 3 mərhələsinə uyğun gəlir:

1.Birinci mərhələ siyasətdə psixoloji komponentlərin analizi, siyasi proseslərdə "insan faktoru"nun rolunun başa düşülməsidir.

2.İkinci mərhələ birinci mərhələnin üzərində qurulmuşdur və siyasi proseslərdə "insan" faktoru"nun rolunun və bütövlükdə siyasətin psixoloji aspektlərinin proqnozlaşdırılmasıdır.

3.Üçüncü mərhələ isə siyasi fəaliyyətə onun psixoloji təminatı, yəni, subyektiv faktorları tərəfindən idarəedici təsirlərdir.

Ümumiyyətlə, siyasi psixologiya elminin inkişaf tarixi məşhur siyasi mütəfəkkirlərin adları ilə zəngindir. Aristotel, Seneka, N.Makiavelli, Jan Jak Russo, T.Hobbs, A.Smit, Q.Hegel və bir çox digər məşhurların şəxsiyyət və iqtidar arasında münasibətlər haqqında, insanın siyasət haqqında, əsl vətəndaş tərbiyəsi haqqında, dövləti idarə edən şəxsin xarakterik xüsusiyyətləri haqqında əhəmiyyətli fikirləri yeni fənnin əsasını qoydu. Ancaq onlar öz ideyalarını psixoloji yanaşma tələb etməyən fərqli kontekstdə irəli sürürdülər. Bununla belə, onu da qeyd etmək lazımdır ki, Jan Jak Russo və ya T.Hobbsun dövründə psixologiya heç özü də bir elm kimi yox idi. Yalnız XIX əsrin ikinci yarısında müasir siyasi-psixoloji elmi əsərlərin birbaşa sələfləri adlandırıla biləcək anlayışlar meydana çıxmağa başladı. Həmin dövrdə tarixçilər və filosoflar, sosioloqlar və politoloqlar siyasətin özündə tamamilə yeni bir hadisənin meydana çıxmasını qeyd edirdilər : liderlər, krallar, prezi-



dentlər və siyasi elitanın digər nümayəndələri ilə yanaşı siyasətdə önəmli yer tutmağa başladı. Bu mövzuya ilk diqqət yetirənlərdən biri "Xalqların psixologiyası", "Kütlə psixologiyası" və "Sosializm psixologiyası" kitablarının müəllifi fransız tədqiqatçısı Q.Lebon oldu. Həmin dövrdə italiyan S.Sigelenin "Cinayətkar kütlə", fransız J.Q.Tardın "Sosial məntiq", "Təqlidin qanunları" və bir sıra digər əsərlər, o cümlədən rus sosioloq N.K.Mixaylovskinin "Qəhrəmanlar və kütlə" əsəri nəşr edildi. Həm Q.Lebon, həm də N.Mixaylovski kütlənin bir neçə növünü fərqləndirərək, əvvəlcə camaatı mütəşəkkil olmayan fəaliyyətin ən kortəbii təzahürü kimi dəyərləndirirdilər. Onlara görə kütlənin psixoloji xüsusiyyətləri: aqressivlik, isteriya, məsuliyyətsizlik, anarxizm - bu gün də olduqca real və aktualdır. Ancaq XIX əsrin sonu - XX əsrin əvvəllərində kütləvi davranışın yalnız mənfi tərəfləri və onların təhlükəli nəticələri qeyd edilirdisə, növbəti tədqiqatlarda isə, əksinə, demokratiyanın inkişafında kütləvi siyasi iştirak formalarının müsbət tərəflərinə diqqət yetirirdilər. Belə ki, müasir siyasi psixologiya kütləvi hərəkatlara daha çox diqqət yetirir (qadın hüquqları hərəkatından ətraf mühit hərəkatlarına qədər). Erkən siyasi psixoloqların maraq dairəsində olan digər bir mövzu xalqların və irqlərin psixologiyası, milli xarakter idi. F.Boas və B.Malinovskinin antropoloji məktəbinin fikirlərinə əsaslanaraq, psixoloqlar şəxsiyyət haqqında bilikləri sosial və mədəni hadisələrin, xüsusən də siyasətin təhlili ilə birləşdirməyə cəhd etdilər. Eyni zamanda, mədəniyyətin özü "tarixi planda əks olunmuş fərdin psixologiyası" kimi şərh edilmişdir. Fərdin psixologiyasını əks etdirən bu mədəniyyət milli xarakter daşıyır.

Müasir Qərb siyasi psixologiyasının formalaşmasının digər bir mənbəyi psixoanaliz nəzəriyyəsi idi. H.D.Lassuell özünün məşhur "Psixopatologiya və siyasət" kitabında haqlı olaraq qeyd edir ki, "tarixi şəxsiyyətsiz siyasi elm taksidermiyaya bənzəyir ".

Həqiqətən də, siyasi prosesi bütün detalları ilə təsvir edərkən onların yaradıcıları haqqında daha geniş məlumat vermək lazımdır. Siyasi portret janrından müxtəlif müəlliflər istifadə edirdi. Məsələn, XX əsrin əvvəllərində Rusiya psixiatrı P.İ.Kovalevskinin "Tarixdən psixiatrik eskizlər" adlı əsəri böyük maraq doğururdu, burada siyasi xadimlərin portretlərinin qalereyası təqdim olunur. Burada Çar Daviddən I-ci Pyotra, Suvorovdan Məhəmməd Peyğəmbərə, Janna Darkdan Napoleona qədər bir çox dunya səviyyəsində məşhur ictimai və siyasi xadimlərin adı çəkilirdi. Məhz psixoanalitik hərəkat siyasi portret janrını elmə geniş şəkildə tanıtdı. Z.Freyd və U.Bullit tərəfindən aparılan ilk araşdırmalarda obyekt kimi Vudro Vilsonu seçməsi də təsadüfi deyildir. Bu cür portretlərin yaradılmasında Z.Freydin davamçısı, Çikaqonun siyasi psixoloqu H.D.Lassuellin böyük əməyi var idi. O, Amerika siyasətçilərinin şəxsiyyətlərini təhlil etmək üçün tibbi vəsiqələrdən istifadə edirdi. H.D.Lassuell, ilk növbədə, siyasətçilərin hərəkətlərində gizli şüursuz motivlər axtardı və onları uşağın inkişafının xüsusiyyətlərində, gələcək siyasətçi üçün psixoloji travmaya səbəb olan münaqişələrdə tapdı. H.D.Lassuell və sələfi A.Adlerin fikrincə, bu cür travmaları kompensasiya edən vasitələrdən biri hakimiyyətə can atmaq və ya ümumiyyətlə hökm etmək arzusudur.

### 2.2. Siyasi psixologiyanın bir elm kimi müasir vəziyyəti

Siyasi psixologiya sahəsində fundamental və sistematik nəzəri araşdırmaların inkişafı 60-cı illərdə ABŞ-da "davranış hərəkatı" nın təsiri altında başladı. O dövrdə beynəlxalq siyasətin problemlərinin öyrənilməsi üçün Amerika psixiatrik assosiasiyasının nəzdində bir qrup yaradılmışdı. İllər sonra 1970-ci ildə, o,



Psixiatriya və xarici siyasət institutuna çevrildi. 1968-ci ildə Amerika siyasi elmlər birliyinin (American Association of Political Science) nəzdində siyasi psixologiya üzrə tədqiqat komitəsi yaradıldı (Research Committee in Political Psychology) və bunun əsasında 1979-cu ildə beynəlxalq status almış Beynəlxalq Siyasi Psixologiya Cəmiyyəti təşkil edildi (International Society of Political Psychology, ISPP). Bu Cəmiyyət öz Political Psychology (Siyasi Psixologiya) jurnalını nəşr etdirir. Hal-hazırda siyasi - psixoloji mövzulara həsr olunan əsərlərə bütün siyasi elmlər və psixologiya ilə bağlı nüfuzlu nəşrlərdə rast gəlmək olar. İSPP-nin hazırda demək olar ki, bütün qitələrdən 1000-dən çox üzvü var; "Dəyişmə siyasətinin psixoloji aspektləri", "Multikultural cəmiyyətlərdə milli quruluş və demokratiya" və digər ən aktual nəzəri problemləri müzakirə etmək üçün hər il iclaslar keçirilir. 1999-cu ildə Amsterdamda illik toplantı " Münaqişə, ünsiyyət, vətəndaşlıq" mövzusuna, 2001–ci ildə isə Kuernavakada (Meksika) keçirilmiş yığıncaq "Siyasətin dili, vətəndaşlıq dili, mədəniyyət dili" mövzusuna həsr edilmişdi. 2002-ci ildə illik toplantının mövzusu "Dil və siyasət" idi. Siyasi psixologiya bir elm kimi beynəlxalq miqyasda tanınsa da, tədqiqatçıların əksəriyyəti ABŞ və ya Kanadada yaşayır və işləyirlər. M.Hermann, R.Siqele, D.Sirs, S.Renşon, F.İ.Qrinstayn, A.Corc, R.Taker, J.Post, B.Qled, R.Kristi, S.Makfarland, K.Morno kimi bir neçə böyük alimlərin adını xusi qeyd etmək lazımdır. Avropanın siyasi-psixoloji hadisələrinin təhlili istiqamətində bir sıra özünəməxsus ənənələr mövcuddur. Bu sahədə ciddi əsərlər Almaniyada (A. Aşkenazi, P. Şmidt, Q. Lederer, H.D. Klinqemann, Q. Mozer, Q. Mauyer və s.), Fransada (A. Perşeron, A. Dorn, C.Moskoviçi), İngiltərədə (H. Heyst, M. Billiq, A. Samuel), həmçinin Finlandiya, Hollandiya, Çexiya, İspaniya, Polşa və digər ölkələrdə nəşr edilmişdi. Qeyd olunmalıdır ki, Avropa siyasətşünasları əksər hallarda ənənəvi

olaraq siyasi psixologiyanı psixoloqların irrasionalistik anlayışları ilə (ilk növbədə psixoanalizlə) əlaqələndirərək bu mövzuya müəyyən bir həssaslıqla yanaşırlar. Qeyd etmək lazımdır ki, hal-hazırda əvvəllər ümumiyyətlə siyasi və psixologiya elmlərinin inkişafı olmamış və ya ənənəvi məktəblərin müasir metodolo-giyasından təcrid olunmuş bölgələrdə də artıq siyasi psixologiyaya maraq müşahidə olunur. Belə ki, son onilliklərdə bu sahədə Latın Amerikasında, Afrikada, Asiya-Sakit Okean bölgəsində, xüsusilə Çin, Hindistan, Pakistan, Cənubi Koreya, Avstraliya və Yeni Zelandiyada geniş tədqiqatlar aparılır, onlarla monoqrafiyalar nəşr etdirilir. Ayrı-ayrı illərdə və sayca azlıq təşkil edən kitablar və məqalələr yazılsa da, müasir siyasi psixologiya elminin inkişaf tarixinin 1973-cü ildə C.Knutson tərəfindən redaktə edilmiş, bu elmin inkişafını ümumiləşdirən və gələcək tədqiqatların ən vacib sahələrini vurğulayan, kollektiv monoqrafiyanın nəşr olunma-sından sayılması daha düzgün olardı. Digər mühüm mərhələ 1986-cı ildə M.Hermann tərəfindən redaktə edilmiş monoqrafiyanın meydana çıxması idi. Bu kitab siyasi psixologiyada baş verən dəyişiklər barədə təsəvvürlər yaradır: ilk növbədə, tədqiqatçıların əksəriyyəti siyasi və psixoloji hadisələrin qarşılıqlı əlaqəsinə diqqət yönəldilməsinin qənaətinə gəldilər; ikincisi, tədqiqatın obyekti ictimaiyyətin diqqətini cəlb edən ən əhəmiyyətli siyasi problemlər olmalıdır; üçüncüsü, təhlil olunan psixoloji hadisələrin siyasi və sosial məzmununa daha çox diqqət yetirilməlidir; dördüncüsü, müəyyən siyasi inancların formalaşması prosesini başa düşməyə çalışmaq lazımdır; və nəhayət, beşinci, müasir siyasi psixoloqlar, metodoloji plüralizmin nəzəriyyənin inkişafının hazırkı mərhələsində qaçılmaz bir fenomen olduğuna inanaraq məlumat toplama metodlarına və tədqiqat prosedurlarına daha çox güvəndilər. Hal-hazırda İSPP-də son onilliklərdəki siyasi psixologiyanın inkişafına yekun vuran yeni kollektiv monoqrafiya hazırlanır. Elmin inkişaf dərəcəsi çox vaxt onun kimə və necə tədris edildiyi əsasında qiymətləndirilir. Misal olaraq ABŞ və Kanadadakı universitetlərin təcrübəsini göstərə bilərik: 90-cı illərdə 78 universitetdə 100-dən çox siyasi psixologiya kursları tədris edilmişdir; siyasi psixologiya üzrə mühazirələr və seminarlarda yalnız kiçik kurslarda 2300-dən çox tələbə iştirak etmişdir; tədris həm politoloqlar, həm də psixoloqlar üçün aparılır. Ohayo Dövlət Universiteti hər il siyasi psixologiya üzrə ixtisaslaşmış gənc alimlər üçün yay məktəblərinə ev sahibliyi edir. 2002-ci ildən başlayaraq belə məktəblərin təşkili Avropada (Varşavada) planlaşdırılır. Elmin inkişafının digər bir göstəricisi - onun tətbiqi istifadəsidir. Belə ki, siyasi psixoloqlar münaqişə vəziyyətindən çıxış yollarının tapılmasında fəal iştirak edirlər. Karib böhranı dövründə, İsrail və Misir arasındakı Kemp-David sazişinin bağlanmasında siyasi psixoloqların təsirli rolu məlumdur. 1999-cu ildə New York şəhərini bomba ilə təhdid etdiyi Unibomber adlı bir terrorçunun məşhur siyasi psixoloq Cerri Post tərəfindən psixoloji portretinin təsviri onun tapılmasına və həbs olunmasına köməklik göstərmişdir. Avropa və Amerikanın müxtəlif ölkələrin siyasi kommunikasiya üzrə mütəxəssisləri siyasi liderlərin parlament və prezident seçkilərinə hazırlıq prosesinə öz töhvələrini verdilər. Bir çox siyasətçilər psixoloji metodlara sahibdirlər, onlardan gələcək strategiyalar hazırlamaq və keçmişi təhlil etmək üçün istifadə edirlər. 1988-ci il prezident seçkilərində Corc Buşun rəqiblərindən biri olan M.Dukakis siyasi-psixoloji nəzəriyyə sahəsində fəal işləyir. Tanınmış siyasi xadimlər R.Nikson və D.Lokard keçmiş siyasi təcrübələrinin psixoloji tərəflərini təhlil etdilər. Müxtəlif partiya və qruplara mənsub olan siyasətçilər siyasi psixologiyaya həsr olunmuş əsərlərə maraq göstərirlər. Bu elmin məlumatlarından ictimai münasibətlər qurmaq, əhalini islahatlar aparmaq məqsədilə səfərbər etmək və siyasətin ən vacib strateji sahələri ilə bağlı qərarlar vermək üçün istifadə edirlər.

## 2.3. Müasir siyasi psixologiyanın aparıcı məktəbləri və istiqamətləri

Müasir siyasi psixologiya çoxsaylı nəzəri modellərlə təmsil olunur. Bununla belə, bütün bu dəyişən fərqli yanaşmalar, tədqiqat strategiyaları və metodlar iki aparıcı cərəyanı səciyyələndirir. Birincidə araşdırma obyekti - insan - siyasi maşının xırda bir hissəsi olan vintə bənzədilir. Buna görə də cərəyanın nümayəndələrinin böyük əksəriyyətinin tədqiqat fəlsəfəsində texnokratizm müşahidə olunur. Bu qrup siyasi psixoloqlarının nəzəriyyələrinin metodoloji əsasını həm psixologiya, həm də siyasət elmindən götürülmüş pozitivist nəzəriyyələr təşkil edir. İkinci cərəyanda isə insan təkcə siyasi təsir obyekti deyil, həm də siyasi sistemin inkişaf etdirilməsinin məqsədi və onun fəal subyektidir. Bu tendensiyanın çərçivəsində digər metodologiyalardan istifadə olunur. Bu istiqamətin nümayəndələri şəxsiyyətin antipozitivist modellərinə müraciət etmələri ilə xarakterizə olunur; eyni zamanda onlar manipulyativ meyillərlə xarakterizə olunmayan nəzəri paradiqmaları seçirlər.

Siyasi psixoloqların nəzəri fikirləri ilə ilk tanışlığı ***pozitivist*** tipli modellərdən başlayaq. 1950-ci illərin sonu - 1960-cı illərin əvvəllərində, ilk siyasi-psixoloji tədqiqatların başladığı bir dövrdə, alimlərdə praktiki olaraq nəzəri modelləri seçmək imkanı yox idi: struktur funksionallıq və onun növü - siyasətin sistematik təhlili – onlar metodologiya sahəsində monopolist mövqeyində idilər. Politoloqlar qarşıya bir məqsəd qoymuşdular: bu metodun qurucuları olan T.Parsons və R.Mertonun fikirlərini siyasi sistemə tətbiq edərək elmi inkişaf etdirmək. K.Doyç, Q.Almond, D.İston, C.Dennis, F.İ.Qrinstayn, C.Tomi, R.Hess və digər Amerika politoloqları subyektiv və ideoloji fikirlərdən azad olan, sırf elmlə bağlı siyasət haqqında nəzəriyyə yaratmağa çalışdılar. Bu sahədəki ən məşhur siyasi və psixoloji konsepsiyalardan biri 60-cı illərdə Amerika politoloqları D.İston və C.Dennis tərəfindən hazırlanmış



siyasətin sistemli təhlilinin ümumi nəzəriyyəsinə uyğun olan "siyasi dəstək" nəzəriyyəsi idi. Bu konsepsiya bir neçə fundamental fərziyyələrə əsaslanırdı. İlk növbədə, siyasət bir sistem kimi anlaşılırdı. Vətəndaşlar hakimiyyətə müəyyən tələblər irəli sürür, eyni zamanda onlar təklif etdikləri qaydalara könüllü şəkildə tabe olmağı da öhdələrinə götürürlər. Hakimiyyət vətəndaşların tətbiq edəcəyi qərarlar verir. Politoloqlar aşkar etdilər ki, bütün bu proseslərdə psixoloji reallıqlarla qarşılaşmaq məcburiyyətində olurlar: həm vətəndaşların siyasətçiləri dəstəkləmək istəkləri, həm də siyasətçilərin qərarları müəyyən psixoloji qanunauyğunluqlara tabedir. Müvafiq olaraq, siyasi sistemin işindəki uğursuzluqlar insan amili ilə izah olunur, bu amili nəzərə aldıqda sistemin işi də düz qurulacaq. İnsan bir şəxsiyyət kimi "siyasi dəstək" nəzəriyyəçilərini çox da maraqlandırmırdı. Onların vəzifəsi sıyasi sistemin işində pozulma mənbələrini axtarmaq idi. İnsan sistemin stressinə səbəb olan amillər arasında olduğundan, onu təhlil etmək lazım idi. D.İston və C.Dennis tərəfindən tapılan cavabın əsas əhəmiyyəti ondan ibarət idi ki, vətəndaşların sistem tərəfindən təklif olunan oyun qaydalarını müqavimət göstərmədən və könüllü olaraq qəbul etmələri halda sistemin stressi (böhrana aparan gərginlik) azalır. Bu təbii ki, sistemin tələbləri ictimailəşdikcə, erkən yaşlarından mənimsənildiyi təqdirdə mümkündür, o zaman vətəndaşların öz istəkləri qabaqcadan bilinir və müxtəlifliyi ilə fərqlənmir. Əlbəttə ki, eyni effekti güclə də əldə etmək olar. Lakin belə bir yol artan siyasi qeyri-sabitliyə düçar olur və müasir cəmiyyətlərdə iqtisadi baxımdan sərfəli deyil. İkincisi, C.Dennis və D.İstonun psixoloji baxışlarının mənbəyi psixoanalitik və biheviorisitik (davranış) fikirlərin qarışığıdır. "Siyasi dəstək" nəzəriyyəçiləri eyni zamanda əmindirlər ki, vətəndaşların münasibət və fəaliyyət məcmusu hökumətə və ölkənin siyasi həyatına təsir göstərir, hər şeydən əvvəl onun sabitliyini müəyyənləşdirir.

Aydındır ki, uşaq psixikasının mərkəzini siyasət təşkil etmir. D.İston və C.Dennis belə bir hipotez irəli sürmüşlər ki, bizim siyasi fikirlərimizin əsasını şəxsi siyasi yönəlişliklər deyil, köklərini uşaqlıq təcrübəmizdən tapa biləcəyimiz yönəlişliklər təşkil edir: ailə tipi, ata və ya müəllim hakimiyyəti ilə qarşılıqlı əlaqə təcrübəsi. "Siyasi dəstək" nəzəriyyəçiləri vətəndaşın dövlət hakimiyyətinə qarşı olan sonrakı münasibət təcrübəsinin buradan qaynaqlandığını bildirmişlər. Belə ki, əgər uşaq avtoritar valideynli ailədə böyümüşsə, nəticədə bu onun hakimiyyət başçısı və ya prezidentə münasibətini formalaşdıra bilər. Belə ki, bu zaman prezident şəxsiyyətin şüurunda nə zamansa onun atasının tutduğu yeri tutacaq.

Nəzərdən keçirdiyimiz konsepsiyanın mərkəzi ideyasını – vətəndaşlar tərəfindən hakimiyyətə olan psixoloji dəstək təşkil edir. İnsan yetkin yaşında siyasi sistemə o halda dəstək göstərir ki, uşaqlıqda onun sistemə olan münasibəti pozitiv olmuşdur. Dünyanın uşaqlıq siyasi mənzərəsi əlbəttə ki, yetkin insanın təsəvvürləri ilə üst-üstə düşmür. Lakin baza dəstək dəyərləri dəyişməz olaraq qalır və hakimiyyətə qarşı loyallıqda, dövlətə qarşı olan inamda, milli bayrağa olan simpatiyada, öz ölkəsi ilə identifikasiyada təzahür edir.

Biz siyasi dəstəyin şəxsiyyət səviyyəsində necə təzahür etdiyini gördük. Sistem nöqteyi-nəzərindən belə dəstək, onun zəruri stabilləşdirici komponentini təşkil edir. Siyasətçinin neqativ obrazı geniş yayıldığı halda ekstremizm, etiraz, terrorizm, apatiya və sistemin sabitliyi üçün digər xoşagəlməz və təhlükəli olan disfunksiyalar yaranır. Buradan D.İston, C.Dennis və onların həmfikirləri belə nəticəyə gəlmişlər ki, əgər sistem özünü qorumağa cəhd edirsə, o, xüsusi tədbirlər görməlidir ki, yeni nəsil vətəndaşlar erkən uşaqlıqdan siyasətçidən müsbət təəssüratlar əldə etsinlər. Bu zaman tərbiyə vasitələri uşaq qavrayışına adekvat olmalıdırlar: komikslərdə, cizgi filmlərində, oyunlar və uşaq kitablarında müxtəlif hakimiyyət nümayəndələri – polisdən prezidentə qədər – uşağı yaşlıların sabit və "yaxşı" dünyası ilə tanış edirlər.



Siyasi psixologiyanın növbəti inkişaf mərhələsində tədqiqatçılar D.İston və C.Dennisin fərziyyələrini tədqiq edərək qənaətə gəldilər ki, ümumiyyətlə bu prosesi onlar düzgün təsvir etdilər. Belə ki, Nyu-Yorkdakı uşaq bağçalarından birində tədqiqatçılar beş yaşındakı uşaqlarla görüş keçiriblər. Onları uşaqların prezident və polis (siyasi sistemin "başı" və "quyruğu") haqqında nə bildikləri maraqlandırırdı. Məlum oldu ki, uşaqlar polisin funksiyaları haqqında kifayət qədər ətraflı bir təsəvvürə sahibdirlər. Prezidentlə bağlı vəziyyət isə bir qədər pis idi. Bir oğlan prezidentin (bu Riçard Nikson idi) onun babasına oxşadığını, digəri sülh və azadlıq prezidenti olduğunu, üçüncüsü isə prezidentin müharibə etdiyini söylədi. Yalnız son cavab siyasətlə maraqlanan bir uşağa aid idi: onun ən sevimli televiziya proqramı "Xəbərlər" idi. Digər uşaqların siyasi təsəvvürləri hələ formalaşmamışdır və ya uşaqlar anlamadan onlara təqdim edilən hazır ideoloji obrazları qəbul edirdilər. Əgər orta sinifdən, ağ dərili və şəhər sakinləri olan Amerikalı uşaqlarda siyasi dəstəyin formalaşması prosesi D.İston və C.Dennisin təsvir etdiyi kimi görünürdüsə, digər sosial və etnik qrupların hakimiyyətlə münasibətlər tam başqa cür idi. Belə ki, ABŞ-ın yüksək işsizlik və bir çox sosial problemlərin olduğu əlverişsiz bölgələrindən birində (Appalaçi) uşaqlarda və yeniyetmələrdə dünyanın siyasi mənzərəsi fərqlidir. Daha uğurlu həmyaşıdlarından fərqli olaraq, bu bölgədə yaşayan 10 ilə 12 yaş arasındakı yeniyetmələr özlərini Amerikalı kimi tanımırdılar, ölkələri ilə fəxr etmirdilər, yəni hətta siyasi mənada belə milli kimliyə sahib deyildilər. Prezident və siyasətçilər haqqında çox qeyri-müəyyən fikirləri var idi.

80-90-cı illərin siyasi psixologiyası "siyasi dəstək" nəzəriyyəçilərinin fikirlərindən istifadə edərək bəzi mövqelərini inkişaf etdirdi, digərlərindən isə imtina etdi. Tədqiqatçılar nəzəriyyələrin parçalanmasının əsas səbəbi kimi o dövrün bənzərsiz vəziyyətini, yəni siyasi dəyərlərin bir nəsildən digərinə tədricən köçürülməsində fasilələrin yaranmasını göstərirdilər. Siyasi tarixin növbəti dövrü hər şeyi öz yerinə qaytardı. D.İston və C.Dennisin digər tezisi də - vətəndaş sistemə mütləq dözümlü olmalı, tənqidi yanaşma sabitləşmənin pozulmasına gətirib çıxardır - həmkarları tərəfindən tənqid edildi. "Siyasi dəstək" nəzəriyyəçiləri tərəfindən təsvir edilən şərti əxlaqa sahib olan ideal insan tipini, yəni qəbul edilmiş ümumi normalara riayət edən, hökumətə və siyasi fəaliyyətə yüksək etimadı olan tipi tapmaq cəhdləri boşuna çıxdı, belə tip insan normal deyil, hətta sabit siyasi sistemlərdə istisna adlandırıla bilər. Belə halda, C.Dennis və D.İstonun fərziyyələrinin yenidən yoxlanmasına ehtiyac duyulur.

Funksionalist nəzəriyyənin digər bir növü siyasətin "rol" nəzəriyyəsi idi. burada siyasi proses (həm beynəlxalq, həm də daxili) "rol" anlayışı ilə izah edilirdi. Yeni nəzəri modelin təzahürünə siyasi proseslər özləri səbəb olmuşdur. 70-80-ci illər bir çox ölkələrin (həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan) siyasi sistemlərinin modernləşmə dövrü oldu, bunun üçün əvvəllər siyasi fəaliyyətdən kənarlaşdırılan yeni təbəqələrin səfərbər edilməsi tələb olunurdu.

Seçki prosesinə, siyasi partiyalara və təşkilatlara yeni üzvlərin cəlb edilməsi zərurəti yeni nəzəri yanaşmalar tələb edirdi. Siyasətin təhlilinə rollu yanaşmanı funksionalistlər sosiologiya və sosial psixologiyadan götürmüşdülər. "Rol" psixoloji kateqoriyasının siyasi nəzəriyyəsinin dövriyyəyə daxil edilməsi çox səmərəli oldu, lakin onun funksionalist təsviri müəyyən etirazlara səbəb oldu. Birincisi, bir sıra tədqiqatlar göstərir ki, siyasi proses iştirakçısının rolu, funksionalistlərin bildirdiyi kimi vətəndaşın siyasi sistemə olan sadə adaptasiyası, onların mövcud nümunələri passiv mənimsəmələri deyil. Avtomatik və normativ rol reseptləri hazırlanmamışdır.



İkincisi, siyasətin rol nəzəriyyəsinin digər tezisi də praktikada təsdiqlənmir. Həmin tezis bundan ibarətdir ki, insanın rola effektiv olaraq qoşulması şəxsiyyətin bütünlükdə sistemlə və xüsusən də ayrı-ayrı siyasi institutlarla (ilk öncə, partiya və təşkilatlarla) identifikasiyası vasitəsilə baş verir. Əgər əvvəllər partiya mənsubiyyəti və ya seçkilər zamanı bu və ya digər partiyanı dəstəkləmək nəsildən nəslə ötürülən ailə ənənəsi idisə, son onillikdə ən sabit siyasi sistemlərdə belə identifikasiya daha çox istisna qaydadan hesab edilirdi.

Siyasətin rol nəzəriyyəsi bir çox problemləri həll etmək üçün kifayət qədər təsirli oldu. Belə, B.Koen və A.Rapoport tərəfindən irəli sürülən "rolları dəyişdirmə" üsulu ilə beynəlxalq münaqişələrin həlli ideyası yayıldı. Rol nəzəriyyəsinin istifadəsinin başqa bir nümunəsi, oyunların riyazi nəzəriyyəsi ilə birlikdə tətbiq edilməsidir. Məsələn, beynəlxalq qarşıdurmada tərəflərin davranış motivləri "sürücü" və "avtomobil qarətçisi", "ev sahibi" və "oğru-soyğunçu" kimi rollara bənzədilir. Bu modellərin köməyi ilə Amerikalı siyasi psixoloqlar hələ son zamanlar SSRİ-yə münasibətdə xarici siyasət hərəkətlərini hesablayırdılar, təbii olaraq özlərini müdafiəçi, rəqibinə isə təcavüzkar rolları aid edirdilər.

Siyasətin funksionalist modeli, siyasətdəki insan davranışının müasir anlamına az təsir göstərməmişdir. Onlar əsasən makroamillərə əsaslanmışlar. Onların tədqiqat metodları və praktik tövsiyələri daha özəl siyasi məsələlərin həlli üçün yararsız olmuşdur. Bunun üçün siyasətin daha da psixolojiləşmiş nəzəriyyələrinin yaranması zəruri oldu. Belə nəzəri istiqamət siyasi biheviorizm (davranış) oldu.

Bu nəzəriyyənin başlıca məqsədi siyasətdə fərdi davranışı tədqiq etmək olmuşdur. Məqsəd isə elita tərəfindən bu davranışın idarə edilməsini optimallaşdırmaq olmuşdur. Bu məqsədlə geniş psixoloji metodlar dəstindən istifadə olunmuşdur.

Klassik biheviorizmin başlıca ideyası mühitin fərdin davranışına olan birbaşa təsiridir. Siyasi davranış bihevioristlərin qədim düsturuna tabedir: S-R(stimul-reaksiya). Biheviorist radikallar "stimul-reaksiya" düsturundan ilk öncə, fərdin davranışına nəzarət etmək üçün və ya onların termininсə desək "davranışın modifikasiyası" üçün istifadə edirlər. Bu istiqamətin aparıcı nəzəriyyəçisi Amerika psixoloqu B.Skinner bu fikri aşağıdakı şəkildə tərtib etmişdir: "Problemin insanları azad etməkdən ibarət olmasını güman etmək səhvdir. Problem onlar üzərində nəzarəti yaxşılaşdırmaqdan ibarətdir". Skinnerin arqumentləri vətəndaş davranışı üzərində nəzarəti ən varvar üsullarla ( elektroşok və s. daxil olmaqla) həyata keçirən zorakı proqramlar üçün "elmi" əsas olmuşdur. Sosial öyrənmə məktəbinin nümayəndələri sərt davranış modelini ona bir sıra aralıq dəyişənlər əlavə etməklə yumşaltmışlar (yönəlişlik, rəy və hətta bütünlükdə şəxsiyyət). Siyasi davranışın təhlilinə fərdin həyati təcrübə əldə etmə prosesində mənimsədiyi dəyərləri də aid etmək önə doğru atılan addım oldu.

İndi ikinci - ***antipozitivist*** - ortaq siyasi psixologiyanın nəzəri modellərinin tipini nəzərdən keçirək. Siyasi biheviorist və funksionalistlərin insanın daxili aləmini rədd etmələrinə qarşı yaranan reaksiya nəticəsində antipozitiv konsepsiya ön plana gəldi. Avropa siyasi psixologiyasında bu dönüş şəxsiyyət probleminin pozitiv izahını qoyan digər nəzəri məktəblərin ideyaları altında yarandı.

ABŞ və Böyük Britaniyada pozitivist konsepsiyalar nəzəriyyəçilər tərəfindən deyil. insan davranışına nəzarət üçün daha effektiv modellərə ehtiyac duyan praktiklər tərəfindən tənqid edildi.



Birbaşa davranışa təsir etmə üsullarını inkar edən bu mütəxəssislər koqnitiv və humanist psixologiya tərəfindən təklif olunan şüurun tədqiqinə və psixoanaliz tərəfindən həyata keçirilən psixikanın strukturunun tədqiqinə istiqamətləndilər. Siyasi psixologiyanın koqnitiv istiqaməti ilk növbədə siyasi təfəkkür prosesini araşdırır. Bu məktəbin psixoloqlarının ümumi fikirlərinə görə, siyasi davranış modelinin seçilməsi insan şüurunun məzmununu təşkil edən baxışlar və dəyərlər vasitəsilə müəyyən olunur. Eyni zamanda, bəzi tədqiqatçılar siyasi şüurun formalaşmasına diqqət yetirir, digərləri isə onun quruluşu ilə daha çox maraqlanır. Son iki onillikdə tədqiqatlarda uşaqlıq dövründə siyasi təfəkkürün formalaşması prosesinə o qədər də yer verilməmişdir, daha çox tədqiqatçıları böyüklərin öz siyasi seçimini edərkən nəyi rəhbər tutması maraqlandırır. Belə ki, ingilis siyasi psixoloqu X.Himmelvayt alıcının bu və ya digər məhsulu seçmək qərarı ilə siyasi qərarı qəbul etməsi arasında bir bənzətmə yaradan " tələbat modeli"ni təklif etdi. Bu və ya digər namizədə səs verən seçici qaydaların partiya proqramlarına maksimum uyğunluğunu və ya aralarındakı ən kiçik uyğunsuzluğu axtarır. Müəyyən partiyaya səs vermə vərdişi, müəyyən bir dükana və ya şirkətə bağlanmaya bənzəyir, referent qruplarının təsiri isə dostlarımızın və ya həmkarlarımızın həyat maraqlarımıza təsirinə bənzəyir. Koqnitivistlərin işi göstərdi ki, sabit siyasi sistemə sahib olan və seçicilərin həqiqətən müəyyən bir partiyaya səs vermə vərdişləri olan ölkələrdə vətəndaşların siyasi şüuru müəyyən "ideyalar paketi" ilə doldurulur. Fərdi psixologiya səviyyəsində insan şüurunun bir hissəsinə çevrilən ideologiya bir kontekstdə fikirlər toplusu kimi ortaya çıxır. Antipozitivist cərəyanlar arasında mühüm yeri siyasətin təhlilində şəxsiyyətin emosional-motivasiya sahəsini nəzərə almağı təklif edən humanist psixologiya nümayəndələri tutur. Bu məktəbin siyasi psixoloqlarına A.Maslounun tələbatların ierarxiyası haqqında ide-

yaları və K.Rocersin istiqamətlənməmiş terapiyası böyük təsir göstərmişdir. Bu məktəb nümayəndələri, şəxsiyyəti mühitin təsirlərinin passiv obyekti kimi izah edən bihevorist ideyaya cavab reaksiyası olaraq şəxsiyyətin aktivlik dəyərini qabardır. Onların fikrincə şəxsi inkişafın hərəkətverici qüvvəsi kimi tələbat çıxış edir.

Siyasi psixoloqları siyasi şüurun və davranışın formalaşmasının şəxsi mexanizmlərinə tələbatlar sistemi vasitəsilə dərindən nüfuz etmək imkanı cəlb etdi. Onlar bu fikirdən çıxış etdilər ki, siyasi iştirakın vacib motivi sadə mənfəət və ya siyasi saziş deyil, şəxsiyyətin fikirlərinin əsasını təşkil edən dərin tələbatlardır. Bu baza tələbatlar öz növbəsində siyasi yönəlişliklərin təməlini təşkil edir.

Amerika siyasi psixoloqu S.Renşon A.Maslounun tələbatlar nəzəriyyəsindən demokratiya problemlərini tədqiq etmək üçün istifadə etmişdir. O, bu fikirdən çıxış etmişdir ki, yalnız əsas insani tələbatları ödəyən sistem, öz vətəndaşlarını siyasi aktivliyə effektiv şəkildə cəlb edə və onların dəstəyinə arxalana bilər. Demokratiyanın təşəkkülü üçün mühüm olan belə tələbatlardan biri insanın iştiraka olan tələbatıdır. Psixoloji səviyyədə bu situasiya üzərində şəxsi nəzarətin müəyyənləşməsi kimi təzahür edir. S.Renşon siyasi problemlərin, xüsusən də demokratiyanın araşdırılmasına psixoloji göstəriciləri daxil etmək təklifini irəli sürən ilk siyasi psixoloqlardan biri idi. Əgər humanist və koqnitiv psixologiya nümayəndələri fərdə rasional hərəkətlər proqramı verən tələbatları, duyğuları, motivləri, siyasi təfəkkürün mexanizmlərini araşdırırdılarsa. siyasi psixoanaliz psixikanın şüursuz strukturlarına diqqət yetirir. Hal-hazırda bu istiqamət. xüsusilə Amerika tədqiqatçıları arasında ən çox yayılmışlardan biridir. Siyasi psixoanalizin vəzifəsi şəxsiyyətin siyasi quruluşunun öyrənilməsi, şəxsiyyət tiplərinin təsnifatı və siyasi şəxslərin psixobioqrafiyalarının yaradılmasıdır. Bu istiqamətdəki siyasi davranış haqqında fikirlərin əsasını Z.Freydin şüursuz-



luq nəzəriyyəsi təşkil edir. Şəxsiyyət bütövlükdə və xüsusən də onun hökm etmək istəyi psixoanaliz tərəfindən irrasional, instinktiv hadisələr kimi şərh olunur. Siyasi psixologiyada bu məktəb vacib bir fikri ortaya qoydu: bir insan tam şüurlu bir varlıq deyil və öz davranışında instinktiv impulslar tərəfindən idarə olunur. Z.Freyd və H.D.Lassuellin davamçıları iddia edirlər ki, hərəkətlərin əsl motivləri adətən müəyyən bir formada gizlədilir. Məsələn, ədalət uğrunda mübarizə və ya kasıblara kömək etmək istəyi siyasətçinin başqa. sırf şəxsi motivləri ilə diktə edilə bilər. H.D. Lassuell siyasi davranışın müxtəlif üslublarını araşdıraraq, ilk siyasi psixoanalistlərdən biri olaraq belə fərziyyə ilə çıxış etmişdi ki, nitq qabiliyyəti, şəxsiyyətlərarası münasibətlər tərzi və liderlərin digər xüsusiyyətləri ümumi fərdi xüsusiyyətlərlə əlaqəlidir. O, siyasətçiləri üç növə ayırırdı: "təşviqatçı", "idarəçi" və "nəzəriyyəçi" və hər bir tipin xüsusiyyətlərini təsvir edirdi. Məsələn, tipik təşviqatçı belə təsvir olunur. Bu, ictimayyətin qarşısında çıxış etməyə meyilli bir insandır. Əqidəsi ilə sosialistdir. H.D.Lassuell bu ideologiyaya bağlılığını sırf ailə vəziyyəti, daha doğrusu, qardaşı ilə münasibətdə, ona qarşı yaşadığı həsədlə izah edir. Bu cür hisslər, adətən, dərin gizlədilir. çünki onlar sosial baxımdan qəbuledilməzdir, lakin gizli bir şəkildə belə həsəd ona əzab verir, günah hissini yaradır, bu günah hissi sonradan sosialist şərhlərində bərabərlik və qardaşlıq ideyalarına bağlılığa çevrilir. H.D.Lassuell tərəfindən gətirilən başqa bir nümunə - Amerikada irqçilik əleyhinə hərəkatın nümayəndələrinin birinin üzərində tədqiqat aparılması oldu. H.D.Lassuell siyasətçinin siyasi baxışlarını gənc yaşlarında qara dərili qadın tərəfindən intim əlaqəyə məcbur edilməsinin nəticəsi kimi göstərir. Əlbəttə ki, bu gün belə bir sadə şərh anaxronizm kimi görünür. Bununla yanaşı, H.D.Lassuell siyasi fəaliyyətini ruhlandıran şüursuz motivləri axtarmağın zəruriliyi fikri çox aktual olaraq qalır. Siyasi psixoanaliz vacib bir problem-

lərdən biri olan avtoritar şəxsiyyət probleminin öyrənilməsinə öz töhvəsini verdi. Hələ 1950-ci ildə Teodor Adorno həmmüəllifləri ilə birlikdə "faşist" tipinin təhlilini apardı, təhlil üçün xüsusi bir miqyas təklif edildi: F – "faşizmin miqyası". Belə bir mövzuya maraq İkinci Dünya müharibəsi faciəsinin təkrarlanacaq qorxusu diktə edirdi. Tədqiqatın obyekti əsl faşistlər deyil, orta təbəqəyə aid olan adi ağ dərili amerikalılar idi. Tədqiqatın nəticələri gözlənilməz oldu: məlum oldu ki, orta Amerika vətəndaşları arasında avtoritar tipə olduqca tez-tez rast gəlmək olar. Avtoritar şəxsiyyət psixoloji xüsusiyyətlərin xüsusi dəsti ilə xarakterizə olunur: başqalarını sıxışdırmaq istəyi, dözümsüzlük, etnosentrizm (millətinin başqalarından üstün olması ideyası) və s. Bununla yanaşı, belə insan zəifləri əzir, daha güclü olanlardan qorxur. Hal-hazırda aparılan tədqiqatların əksəriyyəti avtoritarizm psixologiyasına həsr edilmişdir. Siyasi psixoanalizin ilkin müddəalarının çoxu inkişaf etdirildi, xüsusən vacib müddəalardan biri - avtoritarizmin mənşəyinin erkən ailə təcrübəsində, ailə hakimiyyətinin quruluşunda axtarılması oldu.

**Mövzuya aid sual və tapşırıqlar:**

1. Qərb siyasi psixologiyasının formalaşması mərhələlərini sadalayın.
2. Pozitivist konsepsiyanın strukturuna hansı nəzəriyyələr daxil idi?
3. "Siyasi dəstək" nəzəriyyəsinin əsas ideyası nədən ibarət idi?
4. Aparıcı pozitivist məktəblər və siyasi psixologiyadakı meyllər barədə məlumat verin.
5. Antipozitivist cərəyanlar çərçivəsində inkişaf edən əsas nəzəri yanaşmalar hansılardır?



**Ədəbiyyat:**


1. Ələkbərova N. Siyasi elmin tarixi və metodologiyası. Bakı: Maarif, 2005, 240 s.
2. Андреев А.Л. Политическая психология. М.:Весь мир, 2002, 240 с.
3. Вахитова З.З. Политическая психология. Тюмень: Издательство Тюменского Государственного Университета, 2011, 220 с.
4. Гозман Л.Я., Шестопал Е.Б. Политическая психология. М.:Изд РНД, 1996, 460 с.
5. Деркач А.А., Жуков В.И, Лаптева Л.Г. Политическая психология. М.: Академический Проект, Екатеринбург: Деловая книга, 2003, 858 с.
6. Ольшанский Д.В. Политическая психология. Москва: Питер, 2002, 576 с.
7. Шестопал Е.Б. Политическая психология. Хрестоматия: Учебное пособие.М.:ИНФРА-М, 2002, 304 с.
8. Шибутани Т.Социальная психология. М.:Мысль,1999, 239 с.
9. Юрьев А.И. Введение в политическую психологию. СПб.: Изд-во Санкт- Петербургскго ун-та, 1992, 232 с.

# III FƏSİL
# ŞƏXSİYYƏT VƏ SİYASƏT
## 3.1. Siyasi psixologiyada şəxsiyyət problemi

Şəxsiyyət dünyanı dərk edib müəyyən istiqamətdə dəyişən, əmək fəaliyyətinə qabil olan konkret, ictimai varlıq olan insandır. Müasir dövrdə şəxsiyyət problemi müxtəlif elmlər tərəfindən tədqiq edilir. Psixologiya şəxsiyyətin ən aktual problemlərini, ünsiyyət və fəaliyyət proseslərini, fərdi psixoloji xüsusiyyətlərin şəxsiyyətin inkişafına təsirini və ruhi həyat proseslərini öyrənir. Bu proses və xüsusiyyətlər şəxsiyyət fenomeninə məxsusdur və ondan asılıdır. İnsan sadəcə olaraq bioloji varlıq deyil, həm də ictimai varlıqdır, cəmiyyətin fəal üzvü, tarixin yaradıcısıdır [5].

Şəxsiyyət: 1) fərdin sosial münasibətlərinin və şüurlu fəaliyyətinin subyektidir; 2) fərdin şəxsiyyətdə və müştərək fəaliyyətdə formalaşan ictimai münasibətlərə daxil olması ilə istiqamətlənən sistemli keyfiyyətlər məcmusudur [17].

Ə.S.Bayramov və Ə.Ə.Əlizadə şəxsiyyətə aşağıdakı kimi tərif verirlər: "Şəxsiyyət fərd üçün subyektiv olaraq onun "Mən"i - özü haqqında təsəvvürlər sistemi kimi meydana çıxır, şəxsiyyətin özünə verdiyi qiymətlərdə, özünə hörmət hissində, iddia səviyyəsində və s. onun özü haqqında təsəvvürləri əks olunur. Şəxsiyyətə çevrilmək, hər şeydən əvvəl, əxlaqi mövqe tutmaq, öz mövqeyini cəmiyyət üzvü kimi aydın dərk etmək və onun üçün məsuliyyət daşımaq, özünün əməlləri, işləri, bütün həyatı ilə onu təsdiq etmək deməkdir [1].

B.H.Əliyev şəxsiyyət probleminə yeni bir kontekstdən yanaşır: "Müasir elmin, o cümlədən psixologiya elminin mərkəzi, əsas problemi şəxsiyyətdir. Şəxsiyyət çox sirli, müəmmalı, ancaq mövcud olan möcüzələrin möcüzəsidir. Onun mahiyyətini açmağa çox cəhdlər edilməsinə baxmayaraq, bu günə kimi şəxsiyyət sirli bir dünya olaraq qalır" [3].



S.İ.Seyidov şəxsiyyətin psixoloji məzmununu aşağıdakı kimi xarakterizə edir: "Şəxsiyyət, fərdin özünü cəmiyyətlə eyniləşdirməsinə imkan verən sabit, fiziki və psixoloji keyfiyyətlər məcmusudur" [19].

R.S.Nemov şəxsiyyəti aşağıdaki kimi xarakterizə edir: "Şəxsiyyət - insanın elə keyfiyyətlərinin məcmusudur ki, bu keyfiyyətlər və cəhətlər sosial baxımdan şərtlənmişdir və insanın özü və başqaları üçün əhəmiyyətli rol oynayaraq insanın mənəvi hərəkətlərinin istiqamətlənməsində, eləcə də ictimai əlaqə və münasibətlərdə təzahür edir. Buradan belə qənaətə gəlmək olar ki, şəxsiyyət ictimai əlaqələrdə və münasibətlərdə gerçəkləşir. Deməli, yalnız şəxsiyyətin özünü öyrənməklə məsələyə aydınlıq gətirmək mümkün deyil. Münasibətlərin özləri də təhlil olunmalı və problemə bu kontekstdən yanaşılmalıdır [15].

Məşhur amerikalı psixoloq Q.V.Olporta görə şəxsiyyət bir fərdin davranışını və təfəkkürünü müəyyən edən psixofiziki sistemlərin dinamik təşkilidir. Müəllifə görə, şəxsiyyət nə mental, nə də müstəqil olaraq birtərəfli psixoloji hadisə deyil. O, bu məsələyə konseptual əhəmiyyət verərək, şəxsiyyəti psixofiziki sistemlərin dinamik təşkili kimi xarakterizə etdi. Q.V.Olport "psixofiziki sistemin dinamik təşkili" dedikdə şəxsiyyətdəki fiziki və zehni birliyi başa düşürdü [16].

A.V.Petrovski və M.Q.Yaroşevskiyə görə şəxsiyyət fərdin həyat və fəaliyyətində və ünsiyyətində ifadə olunan sosial keyfiyyətlər sistemi ilə xarakterizə olunur. Bu keyfiyyətlər fərddə ictimai münasibətlərin təmsil olunma səviyyəsini xarakterizə edir.

Göründüyü kimi şəxsiyyətin psixoloji mahiyyətini açmaq, onu sərt kriteriyalar altında birləşdirmək, hamının anlaya biləcəyi və qəbul edə biləcəyi bir sistemə salmaq olduqca çətindir. Eyni zamanda, şəxsiyyətin strukturunun tam sistem kimi ayrı-ayrı elementlərlə səciyyəsi hər bir elementin təşəkkülünün istiqamətlərini

də müəyyənləşdirir ki, bu da şəxsiyyət anlamında bu elementlərin üstünlük dərəcəsinə görə ierarxiyasını fərqləndirməyə imkan verir. Şəxsiyyətin quruluşunun öyrənilməsi onun daxili aləminin, iç dünyasının ümumi psixoloji portretini ortaya qoyur ki, bu da şəxsiyyətin bütöv şəkildə öyrənilməsini asanlaşdırır. Şübhəsiz ki, şəxsiyyətin strukturundan danışarkən Z.Freyd konsepsiyasını istisna etmək mümkün deyil.

Şəxsiyyətin strukturu Z. Freydin əsərlərində sistematik şəkildə öz əksini tapmışdır. Z.Freydə qədərki psixologiya elminin tədqiq etdiyi introspektiv metodun artıq tətbiq oluna bilməyəcəyinə dair praktik sübutundan sonra Z. Freydin şəxsiyyətə horizontal yanaşması, yəni onun ayrı-ayrı hissələrdən, laylardan ibarət olması fikri çox aktuallaşdı.

Şəxsiyyət quruluşunda Z. Freyd üç komponenti fərqləndirirdi. Birinci komponentdə dərk edilməyən psixi proseslər – arzular, xəyallar, düşüncələr, təsirlər, affektlər və s. toplaşır. Ikinci komponentdə təhtəlşüur prosesləri, üçüncü komponentdə isə şüur hadisələri yer tutur. Z. Freyd bunların hər birinin müstəqil bir sistem kimi qəbul edilməsini tələb etdi. Z.Freyd əsərlərində birinci instansiya komponentini "O" (İd), ikincini "Mən" (Ego), üçüncünü isə "Fövqəl mən" (Super-Ego) adlandırırdı. O, inanırdı ki, şüurlu proseslərin çoxu ancaq qısa müddətdə şüurlu olur, çox tezliklə onlar latent mövcudluğa keçirlər [21].

Z.Freydə görə "O" (İd) psixi həyatın ən aşağı instansiyasındadır. Bu instansiyaya sərvət hissləri, müxtəlif cür niyyətlər, təşəbbüslər, affektlər, şəxsiyyətin xarakteri ilə əlaqədar olan subyekt üçün mənşəyi və səbəbi bilinməyən hadisələr daxildir.

Z.Freydə görə şəxsiyyətin quruluşundakı ikinci element "Mən"dir. Bunu şüurun sinonimi kimi də xarakterizə etmək olar. "Mən", "Fövqəl mən"lə "O"nun, habelə fərdlə reallıq arasında vasitəçi rolunu oynayır. Xarici aləmin dərk edilməsi, ona



uyğunlaşmaq üçün subyekti hazırlamaq, onu öz şəxsi, iradi ambisiyalarından əl çəkib reallığın qanunları ilə yaşamağa vadar etmək onun vəzifələrinə daxildir.

Z.Freydin gəldiyi qənaətə görə, üçüncü instansiya "Fövqəl mən"dir. "Fövqəl mən" ruhi aləmdə sosial gerçəkliyin insanda insani olanın nümayəndəsi kimi çıxış edir. Bu instansiyaya vicdan, əxlaqi, hüquq normalar və mənəvi hazırlıq və s. daxildir. Məşhur psixoanalitikə görə, "O" şəxsiyyətin varlığının ən qaranlıq və əlçatmaz bölgəsidir. Xalis xaos, tamamilə isti bir qazandır [21]. Eyni zamanda, həmin instansiya şəxsiyyətin spesifikliyinin və sərvət törətmə fəaliyyətinin, hər cür yaradıcılıq imkanlarının hərəkətvericisi kimi çıxış edir.

Şəxsiyyət anlayışına, öyrənilməsinə və formalaşma istiqamətlərinə töhvə verən psixoloji fikir tarixinə toxunmadan məsələyə aydınlıq gətirmək mümkün deyil. Bir sözlə, bu məktəb insan psixologiyasını və davranışını heyvanlarla eyniləşdirən bioloji konsepsiyaların alternativi kimi meydana çıxan humanistik psixologiyadır. Qeyd etmək lazımdır ki, humanist psixologiya çərçivəsində ortaya çıxan şəxsiyyət psixologiyası, fərdin daxili təcrübəsinin inkişafı və mənimsənilməsinə əsas diqqət yetirir. Humanist psixologiyanın tərəfdarlarını maraqlandıran əsas məsələ, şəxsiyyətin gerçəkliyi necə qavraması, başa düşməsi və gerçək hadisələri öz həyat fəaliyyətində hansı şəkildə nəzərə almasıdır. Düzdür, onlar öz tədqiqatlarında şəxsiyyəti fenomenoloji baxımdan geniş şəkildə təsvir etmiş, lakin elmi təhlilini verməkdən çəkinmişlər.

Bu məktəbin qabaqcıl nümayəndələrindən olan K. Rocersə görə, hər bir şəxs özünügerçəkləşdirməyə və özünü təkmilləşdirməyə çalışır. K.Rocers üçün şəxsiyyətdə mərkəzi element "Mən"dir. İnsan öz məqsədini və gələcək inkişaf perspektivlərini məhz "Mən" vasitəsilə müəyyənləşdirir. Onun fikrincə, fərdin normal inkişaf tendensiyası "real mən" və "ideal mən" arasındakı

tarazlıq sayəsində mümkündür. Onun yaratdığı "Mən-konsepsiya" ikili bir təbiətə malikdir: həm mənfi, həm də müsbət ola bilər. K.Rocers nəzəriyyəsinin hərtərəfli təhlili göstərir ki, o da başqaları kimi şəxsiyyətin strukturunu aşkar edərək onun mahiyyətini birbaşa izah etməyə çalışır. Lakin onun şəxsiyyət haqqında fikirləri, hər şeydən əvvəl, bir şəxsiyyətə çevrilmək və onu qazanmağın yolları və vasitələri ilə uyğundur. Yalnız onun deyil, digər humanist psixoloqların fikirlərində də şəxsiyyətin sayca bir neçə sistemlərindən biri olan tələbatlarının mahiyyəti açılır və onun şəxsiyyətin təşəkkülündə rolu və mövqeyi tədqiq edilir. Humanist psixologiyada şəxsiyyət kimdir və onun psixoloji keyfiyyətləri hansılardır? - sualları – Mən nə edə bilərəm? Mən fəaliyyətimi necə həyata keçirə bilərəm? - analoji sualları ilə əvəz edilmişdir. Öz-özlüyündə K.Rocersin konsepsiyası şəxsiyyətin özünün kimliyini açmasa da, onun struktur elementlərinin, dominant komponentlərinin təsvirində aparıcılığa malikdir. Bu nəzəriyyə şəxsiyyətin normal və anormal inkişaf meyillərinin təyin edilməsində əvəzsiz bir mənbədir.

Humanistik nəzəriyyəyə görə şəxsiyyətin başlıca tələbi özünüaktuallaşdırmağa, özünütəsdiqə və özünütəkmilləşdirməyə aiddir. Baxmayaraq ki, bu nəzəriyyənin nümayəndələri arasında bəzi fikir ayrılıqları var, bununla birlikdə, şəxsiyyət üçün başlıca tələbatın - özünüaktuallaşdırma tələbatının olmasının hər kəs tərəfindən qəbulu, bu konsepsiyanın nümayəndələrinə ortaq məxrəcə gəlməyə imkan verir.

Bu məktəbin aparıcı nümayəndələrindən biri A.Maslou özünüaktuallaşdıran şəxsiyyətin bir sıra xüsusiyyətlərini təsvir edir ki, bu da öz növbəsində şəxsiyyətin təşəkkülü istiqamətlərini müəyyənləşdirməyə imkan yaradır. Onun fikrincə, özünü aktuallaşdıran şəxsiyyət aşağıdakı psixoloji keyfiyyətlərlə xarakterizə olunur:



- reallığı fəal surətdə qavramaq və ona yaxşı uyğunlaşma qabiliyyəti;
- özünü və digərlərini necə var elə də qəbullanmaq;
- hərəkətlərində əlaqəsizlik, öz fikir və emosiyalarını göstərə bilmək;
- xaricdəki proseslərə, daxilində baş verən təlatüm və duyğularına diqqəti yönəldə bilmək;
- zarafatcıl olmaq [14].

A.Maslou özünüaktuallaşdırmada əsas cəhətlər kimi adaptasiya prosesini və şəxsiyyətin daxili aləmində gedən proseslərdən xilas olmağı əsas götürür. Daha sonra o, şəxsiyyətdə bir sıra xüsusiyyətləri də göstərir:

- yaradıcılıq bacarıqlarının formalaşması;
- həyatın bütün çətinliklərini araşdırmaq;
- həyata daha realllıqla baxmaq bacarığı;
- bütün şəraitlərdə səmimi və gözlənilən davranış nümayiş etdirmək;
- məsuliyyətdən uzaqlaşmaqdan çəkinmək bacarığı;
- qarşıya qoyulmuş məqsədə çatmaq üçün maksimum enerji sərf etmək;
- ehtiyac olduqda digərlərinin təzyiqinə dözmək, onları sıradan çıxarmağa çalışmaq[14].

Humanist psixologiyada əsasən ideal şəxsiyyətdən danışılır və əslində bu istiqamətin nümayəndələri şəxsiyyət kimi formalaşmanı özünüaktuallaşdırma ilə eyniləşdirirlər. Düzdür, tələbatlar şəxsiyyəti idarə edən psixoloji vəziyyətdir. Lakin elə şəxsiyyətlər vardır ki, onlar öz iradəsi hesabına həmin tələbatlarını özləri üçün adiləşdirirlər. Olduqca dəyərli mühakimələri yüksək qiymətləndirilən psixoloji məktəbin nümayəndələri neqativ özünüaktuallaşdırmadan qurtulmağın yollarını və vasitələrini göstərirlər. Bununla yanaşı, bir çox hallarda şəxsiyyətə şəxsiyyət kimi, insana insan

kimi münasibət bəsləmək prinsipi əksər hallarda özünü doğrultmur. Əslində biz burada şəxsiyyət kimdir? - sualına cavab verməsək də, həqiqi bir insan və əsl şəxsiyyət kimi formalaşmanın yollarını və vasitələrini gördük. Məhz elə bu əhəmiyyətinə görə humanistik psixologiya öz ənənələrini bu gün də davam etdirir.

Q.M.Andreyeva psixoloji yanaşmaları təhlil edərək, müxtəlif nəzəriyyələrdə şəxsiyyət və sosial münasibətlərin obyektinə fərqli bir şəkildə baxıldığı qənaətinə gəlir. Ümumi psixoloji kontekstdə isə daha çox fərdin psixi fəaliyyətinin ümumi mexanizmləri açıqlanır. Halbuki, şəxsiyyət ictimai münasibətlərin yalnız obyekti deyil, həm də subyektidir. Demək olar ki, sosial psixologiyanı şəxsiyyət elə bu kontekstdə maraqlandırır.

Q.M.Andreyevanın fikrincə, sosial psixologiyada şəxsiyyətin ümumi psixologiyada verilmiş tərifindən istifadə edilir. Lakin eyni zamanda, şəxsiyyətin bir tərəfdən sosial təcrübəni hansı sosial qrupda mənimsəməsi, digər tərəfdən də özünü bu qrupda necə reallaşdırması məsələsi ön plana çəkilir. Başqa sözlə, sosial psixologiya fərdin davranışını və fəaliyyətini real konkret qruplarda öyrənir [6].

Şəxsiyyətin ümumiyyətlə mürəkkəb bir fenomen olduğu qənaətinə gələ bilərik. Onun psixoloji mahiyyətinin araşdırılması ayrıca bir tədqiqatın obyekti kimi ortaya çıxsa da, əslində onu qrupdan, sosiallaşmadan, yönəlişlikdən, "Mən" konsepsiyadan, özünütəsdiqdən və s. kimi psixoloji və sosial-psixoloji kateqoriyalardan ayırmaq, ayrıca təhlil etmək çətindir. Buna görə şəxsiyyət fenomenini təhlil edərkən ilk növbədə sosializasiyanın mexanizmini bilmək vacibdir. Bir fərd necə şəxsiyyətə çevrilir? Şəxsiyyət hansı keyfiyyətlərə sahib olmalıdır? Ümumiyyətlə, psixoloji baxımdan şəxsiyyət kateqoriyası digər elm sahələrində araşdırılan şəxsiyyət kateqoriyasından nə ilə fərqlənir?



Fərdin sosiallaşması çox faktorlu bir prosesdir: onun cəmiyyətə inteqrasiyası mürəkkəb və çoxşaxəli sosiallaşma prosesi ilə başlayır və bu prosesin sonunda inkişaf edir.

N. Smelzerə görə şəxsiyyət faktorları sosiallaşma prosesinə ciddi təsir göstərir. Şəxsiyyətin iki elementini – həya və günahın rolunu xüsusi vurğulayır. Müəllifə görə, həya hissi o zaman əmələ gəlir ki, bir insan ifşa olunmaqdan ehtiyat edir. Günahkarlıq hissləri isə vicdanın strukturunda, müəyyən ictimai davranışları qadağan edən və qarşısını alan utanc hissi ilə birlikdə meydana gəlir.

Son onilliklərdə şəxsiyyətə sistemli inteqrasiya olunmuş yanaşma tendensiyaları artmışdır. Burada şəxsiyyətin inkişafına inteqrativ konsepsiyalar, ona hərtərəfli yanaşma başlıca istiqamət kimi diqqəti cəlb edir. Belə konsepsiyalardan biri də Amerika psixoloqu E.Eriksonun konsepsiyasıdır. E.Eriksonun konsepsiyasında şəxsiyyətin formalaşması və təşəkkülü ayrı-ayrı inkişaf mərhələlərinin dəyişməsi, bir-birini əvəz etməsi kimi müəyyən edilir. Hər bir mərhələdə insanın daxili aləmində keyfiyyət dəyişilmələri baş verir, eyni zamanda onun ətraf gerçəkliyə, insanlara münasibətində radikallıq müşahidə olunur. Nəticədə fərd şəxsiyyət kimi yeni heç nə qazanmır, yalnız müəyyən bir mərhələdə baş verənlər başqa bir mərhələdə müəyyən dəyişikliklərə məruz qalaraq orijinal sabitliyini qoruyur.

E.Eriksona görə fərd bir şəxsiyyət kimi təşəkkül edib formalaşdıqda həm müsbət, həm də mənfi keyfiyyətlərə sahib olur. E. Erikson, bu müddəaya əsaslanaraq şəxsiyyətin inkişafını iki sahəyə ayırır: normal və anomal inkişaf [22]. E.Erikson, digərlərindən fərqli olaraq, Z. Freydin şəxsiyyət və cəmiyyətin ontoqonist münasibəti barədə mülahizələrini inkar edir. O, "şəxsiyyətin identikliyi" anlayışını təbliğ edir və həmin anlayış altında insanın onu əhatə edən sosial amil ilə ayrılmaz əlaqəsini bildirən mərkəzi keyfiyyəti nəzərdə tutur. Bu keyfiyyət aşağıdakı parametrlərlə

ifadə olunur: insanın özünə doğru mərkəzləşməsində, sosial qrupla, onu əhatə edənlərlə eyniləşdirmədə,özünə hörmətdə, insanın öz qiymətini və rolunu müəyyənləşdirməsində[22].

Bir sıra tədqiqatçıların fikrincə, E.Eriksonun konsepsiyası antidinamik konsepsiyadır. Burada hər bir yeni mərhələyə sadəcə olaraq sonrakı əlavə olunur. O, şəxsiyyətinin dolğunluğundan danışsa da, hər bir sonrakı mərhələnin keyfiyyətcə yenidən qurulduğunu qəbul etmir. Bundan əlavə olaraq, həmin mərhələlərdə baş verən keyfiyyət dəyişilmələrinin necə baş verməsinə dair bir açıqlama verilmir.

Şəxsiyyətin inkişafı və formalaşmasında bütöv nəzəriyyə kimi fərqlənən konsepsiyalardan biri də interaksionist nəzəriyyədir. Onun yaradıcılarından biri C.Mid belə hesab edir ki, insan daima cəmiyyətlə qarşılıqlı əlaqədə olduğuna görə şəxsiyyətin necə davranacağını qabaqcadan müəyyənləşdirmək mümkün deyildir. İnteraksionizm nöqteyi-nəzərdən şəxsiyyətin inkişafı cəmiyyətdəki digər insanlarla qarşılıqlı təsir prosesində baş verir. M.Kun belə hesab edir ki, şəxsiyyətin əsas mexanizmlərinə və strukturuna onun oynadığı rol şəraiti təsir edir. M. Kuna görə fərd öz davranış reaksiyasını. yerinə yetirdiyi rolu mənsub olduğu qrupda oynadığı rola, tutduğu statusa müvafiq olaraq formalaşdırır. Onun bir obyekt kimi özünə qarşı münasibəti, obyektivliyi həmin davranış planı üçün ən yaxşı göstərici hesab olunur. Bu nəzəriyyənin tərəfdarlarının fikrincə, insan hər hansı bir mücərrəd şəxsiyyət kimi deyil, daima hər hansı bir normativin, hüquq və vəzifənin daşıyıcısı kimi çixiş edir. Məhz bu kontekstdə onlar öz nəzəriyyələrini "rollar nəzəriyyəsi" adlandırmışdılar.

Məlumdur ki, şəxsiyyəti birmənalı şəkildə sırf psixolojiləşdirmək mümkün deyil. Şəxsiyyət sosial bir fərd olaraq tarixi prosesin obyekti və subyektidir. Ona görə də şəxsiyyətin xarakterik



cəhətlərinin mahiyyətini tədqiq edərkən insanın ictimai varlığı, onun tarixi inkişafı, təbii xüsusiyyətləri də ön plana gətirilməlidir.

Rus psixoloqu İ.S.Kon maraqlı araşdırmalarında şəxsiyyəti insanın digər xüsusiyyətlərindən fərqləndirir:" Şəxsiyyət anlayışı insanın onun tərəfindən yerinə yetirilən sosial funksiyaların və onun fərdi qabiliyyətlərinin bütövlüyünü, vəhdətini bildirir" [13]. Bu mülahizələri ümumiləşdirsək, şəxsiyyətin sosial varlıq olduğu, *cəmiyyətdəki rolu və özünüdərketməsinin ictimai inkişafın* məhsulu olduğu qənaətinə gələ bilərik. Əlbəttə ki, bu heç vaxt nəzərdən qaçırılmamalıdır. Digər tərəfdən, cəmiyyət şəxsiyyət üçün yalnız müəyyən bir xarici mühit deyil. O, cəmiyyətin üzvü kimi obyektiv olaraq sosial münasibətlər sisteminə daxil edilmişdir. Bu prosesdə insanda sistematik xarakter daşıyan, insanın əməl və hərəkətlərində, intellektual, emosional, iradi və s. xassələrində ifadə olunan müxtəlif sosial keyfiyyətlər formalaşır. Şəxsiyyət dedikdə, bu baxımdan fərdi bu və ya digər cəmiyyətin üzvü kimi xarakterizə edən sosial keyfiyyətlərin sistemi nəzərdə tutulur. Araşdırmalar göstərir ki, şəxsiyyət sosial proseslərə daxil olmaqla öz həyat şəraitini fəal surətdə dəyişdirməyə başlayır.O, münasibət subyektinə, şüurlu fəaliyyət subyektinə çevrilir. Bu o deməkdir ki, şəxsiyyət yalnız mənlik şüuru və özünüdərkin yaranması ilə birlikdə formalaşır.

Nəzərə alınmalıdır ki, şəxsiyyətin özünün psixoloji mahiyyətini müəyyənləşdirmək nə qədər çətindirsə, onun struktur elementlərinin formalaşmasında müsbət təsir göstərən amilləri araşdırmaq daha çətindir. Yəni onu müəyyən meyarlar əsasında sistemləşdirmək olduqca çətindir.

Sosiallaşma şəxsiyyətin əsas təzahürü və göstəricisidir. Eyni zamanda, siyasi sosiallaşma da şəxsiyyətin əsas parametri kimi qəbul edilməlidir. Çünki əksər hallarda şəxsiyyət fenomenindən danışarkən siyasi cəhətdən sosiallaşmış şəxsiyyətlərin sosial feno-

menindən danışırıq. Məsələn, Mussolini, Ruzvelt, Stalin, Hitler, F.Kastro və başqaları. Bu səbəbdən şəxsiyyət haqqında danışarkən onun sosiallaşması haqqında da danışmaq vacibdir .

Siyasi sosiallaşma cəmiyyətin siyasi quruluşunun təkmilləşməsinə təsir göstərən amillər sistemində özünəməxsus yer tutur. Sosiallaşma siyasi sahədə tarixi varisliyin təşkili yoludur. O, keçmiş nəsillərin təcrübəsini mənimsəmək əsasında fərdlərin cəmiyyətin siyasi təsisatlarına və ilk növbədə siyasi sistemə cəlb olunmasını təmin edir.

Şəxsiyyətin siyasi sistemlə qarşılıqlı əlaqəsi gedişində iki proses nəzərə çarpır. Bir tərəfdən, siyasi sistemə yeni üzvlərin cəlb edilməsi ilə bu sistemin öz-özünə təkrar istehsalı baş verir, digər tərəfdən, siyasi sistemin tələbləri şəxsiyyətin strukturuna təsir göstərir.

Şəxsiyyətin siyasi sosiallaşmasının ilk nəzəriyyəsi D.İstonun nəzəriyyəsidir. Bu nəzəriyyəni qəbul edən alimlərin əksəriyyəti, ilk növbədə, L. Coyen, R. Linton, T. Parsons və başqaları siyasi sosiallaşmanın mahiyyətində insanın siyasi sistemlə və onun təsisatları ilə qarşlıqlı fəaliyyətini başlıca cəhət kimi qiymətləndirirlər.

M. Hoberman və K.Zuman, siyasi sosiallaşmaya insanın onun üçün yeni sərvətləri mənimsəməsi prosesi kimi baxırlar. Bu cəhət şəxsiyyətin siyasi sosiallaşmasında daha çox diqqətə layiqdir. Bu prosesdə insan konkret siyasi şərtlərə uyğun gəlməyən hər şeyi tərk edir, hər şeydən imtina edir və siyasi həyatda təzahür edən müxtəlif hadisələrə yeni bir yanaşma göstərir. Təbii ki, siyasi sosiallaşma şəxsiyyət kimi formalaşmada artıq yeni keyfiyyətlərin mövcud olması və ya yaranmasıdır.

Şəxsiyyət siyasi sosiallaşmada yeni keyfiyyətlər sistemi qazanır. Ancaq bu keyfiyyətlər psixoloji təməllər üzərində qurulur.



Bu səbəbdən, istər şəxsiyyətin sosiallaşması, istərsə də siyasi sosiallaşması psixoloji qanunauyğunluq üzrə baş verir.

### 3.2.Siyasi motivlərin yaranması

Şəxsiyyətin fəaliyyət və fəallığı onun tələbatlarının ödənildiyi zaman meydana çıxır. Şəxsiyyətin tələbatlarına isə onun psixoloji strukturu təsir edir. Şəxsiyyətin strukturu özündə beş komponenti birləşdirir. Bu komponentləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Şəxsiyyətin istiqaməti və gerçəkliyə münasibəti;
2. Şəxsiyyətin hazırlıq səviyyəsi;
3. Şəxsiyyətin qabiliyyətlər sistemi;
4. Şəxsiyyətin xarakteri və ya sosial mühitdəki davranış qaydaları;
5. Şəxsiyyətin idarə olunma sistemi.

Qeyd olunan psixi hadisələr şəxsiyyətin inkişafında, onun davranış və fəaliyyətində müəyyən keyfiyyətləri təmin edir. Şəxsiyyət öz fəallığını ətraf aləmlə qarşılıqlı əlaqə prosesində və fəaliyyətdə hiss edir. Şəxsiyyətin fəallığının mənbəyi isə onun tələbatlarıdır. Hər bir şəxs üçün müəyyən olunmuş tələbatlar sistemi xarakterikdir.

Tələbatlar insanı fəaliyyətə təhrik edən səbəbə çevrilir və motivlər sistemini yaradır. Motiv - "motivasiya" sözündən götürülüb, insanın fəallığına səbəb olan və onun fəaliyyətini yönəldən amillərin məcmusudur. İnsanın hərəkətini, davranışını istiqamətləndirən səbəblərin aşkar edilməsi onun idarə edilməsi üçün imkan yaradır. İnsan fəaliyyətinin həyata keçirilməsinə bir neçə motiv təsir edir. Bu isə onun motivasiya sahəsini yaradır. İdarəetmə fəaliyyətində şəxsiyyətin motivasiya sahəsi nəzərə alınmalıdır. Şəxsiyyətin motivasiya sahəsində əsas yer tutan sosial motivlər özünü onun davranış və rəftarında büruzə verir.

Müasir psixologiyada insan davranışının motivasiyasının araşdırılması baxımından üç əsas yanaşma mövcuddur: bioloji, koqnitiv və sosial. ***Bioloji yanaşmalar*** insanın anadangəlmə, genetik proqramlaşdırılmış davranış formalarını həlledici qəbul edirlər. Bu "instinktiv" motivasiya nəzəriyyələri arasında Z.Freydin üç komponentli motivasiya nəzəriyyəsi daha məşhurdur. Bu nəzəriyyədə iki böyük instinkt qrupundan: həyat və ölüm instinktlərindən söhbət gedir. Həyat instinktlərində aclıq, susuzluq, seks və s. fərqləndirilir və fərdin özünün hafizəsinə və növün yaşayışına istiqamətlənirlər.

Ölüm instinktinə isə həm daxilə (mazoxizm və ya özünəqəsdetmə), həm də xaricə (nifrət və təcavüz) yönəlmiş dağıdıcı qüvvələr daxildir. Motivasiya mexanizminin üç prinsipi insan şəxsiyyətinin şüurlu və qeyri-şüuri cəhətlərinin qarşılıqlı əlaqəsinə əsaslanır.

K.Xollun təhrik olunma nəzəriyyəsinə əsasən davranış motivasiyasına ən çox təhrik olunanlar (davranışa tələbatların ödənilməsi üçün enerji verən hallar) təsir edir. Bu baxımdan əsas və ikinci dərəcəli təhriklər fərqləndirilir. Birinci bioloji tələbat əsasında meydana gəlir, ikinci isə orqanizmin bioloji və fizioloji ehtiyacları ilə birbaşa əlaqəsi olmayan tələbatlar əsasında formalaşan təhriklərdir (məs., nailiyyətə və ya yüksək ictimai statusa ehtiyac). İstər ilkin, istərsə də ikinci dərəcəli motivlər insanın davranışını birbaşa şərtləndirmir, davranışın motivləri ətraf gerçəkliyin konkret şərtləri ilə qarşılıqlı təsir nəticəsində formalaşır. K.Xollun motivasiya mexanizminə görə davranış motivlərini aşağıdakı kimi göstərmək olar tələbat-disbalans-mühit-motiv-fəallıq-balans-tələbat.

***Koqnitiv nəzəriyyəyə*** görə isə davranış motivasiyasının əsas amilləri kimi stereotiplər, yönüm, təsəvvürlər, etiqad qəbul edilir. K.Xollun koqnitiv nəzəriyyəsi əsasında üç müxtəlif nəzəriyyə və konsepsiya yaranmışdır:

1) *L.Festinqerin koqnitiv dissonans nəzəriyyəsi*-L.Festinqerin nəzəriyyəsinə görə, insanın əsas tələbatı-informasiyaya olan



tələbatdır. Bu tələbat insan davranışının tənzimləyici amili kimi çixiş edir. Lakin bir çox hallarda insanın davranışı onun malik olduğu informasiyaya müvafiq olur. Bu isə qeyri-müvafiqlik koqnitivi yəni, dərketmə dissonansı adlanır. Bu hal L.Festinqerin təsvir etdiyi siqaret çəkən fenomenidir. Siqaretin zərəri haqqında informasiya hamıya məlumdur, lakin bu əksər hallarda siqaret çəkməyə mane olmur. Çünki, insan öz davranışlarına haqq qazandırmaq qabiliyyətinə malikdir.

2. *C.Rotterin lokus-nəzarət konsepsiyası*- Davranış və fəaliyyətdə məsuliyyətlə bağlı C.Rotter tərəfindən işlənmiş lokus nəzarət konsepsiyasina görə isə insanları iki qrupa bölmək olar-daxili determinasiya olmuşlar və xarici determinasiya olmuşlar.

Birincilər baş vermiş hadisələrin səbəblərini özlərində axtarır, onların davranışının motivasiyası daxili aləmlərdən irəli gələn stimullarla şərtlənir.

İkinci qrupa daxil olanlara görə isə baş verənlərin əsas səbəbi xarici təsirlərdir. Belə insanlara görə taleh, alın yazısı insan həyatında həlledicidir və insanın fəallığı onların müəyyən etdiyi istiqamətə yönəlir.

3. *H.Kellinin atribusiya nəzəriyyəsi*- H.Kellinin atribusiya nəzəriyyəsi də koqnitiv motivasiya nəzəriyyəsinə aiddir. Bu nəzəriyyəyə görə başqalarının davranışını izah edərkən onlara xas olan xassələrə istinad edirik, bu zaman isə ya situativ, ya da dispozisiyon amillərə əsaslanırıq. H.Kelliyə görə, atribusiyanın (aidedilmə) özü, üç mənbədən yaranır:

a) Birinci mənbə özünə baş verən hadisənin sabitliyi haqqında informasiyanı daxil edir Hadisənin baş vermə tezliyi təsadüfilik səviyyəsini müəyyən etməyə imkan verir.

b) İkinci mənbə insanın davranış və fəaliyyətinin ümumi qəbul olunmuş normalardan nə dərəcədə fərqləndiyi haqqında informasiya daşıyır.

d) Üçüncü mənbə-digərlərinin verilən şəraitdə insanın yerinə yetirdiyi davranışa nə dərəcədə müvafiq olması haqqında bizim

düşüncəmizdir.

Motivasiyanın *ictimai nəzəriyyələri* arasında Amerika psixoloqu A.Maslounun "Özünüaktuallaşdırma nəzəriyyəsi" xüsusi yer tutur. A.Maslou tərəfindən xüsusi "piramida" - tələbatların iyerarxiyası təklif edilir. Bu "piramida"nın əsasında qidaya, suya və havaya olan ilkin tələbatlar, ondan sonra isə özünüaktuallaşdırmaya, fərdi imkanların daha çox və hərtərəfli açıqlanmasına olan tələbat durur.

### 3.3. Siyasi proseslər və şəxsiyyət

Siyasi xadimlərin şəxsiyyəti, başqa cür deyilsə, şəxsi keyfiyyətləri siyasi hadisələrə müxtəlif və saysız-hesabsız yollarla təsir göstərir. Şəxsiyyət və siyasətin qarşılıqlı təsir məsələsi gündəlik həyatda müəyyən statusa malik olan fərdləri bir-bir dəyişməsi və dəyişilmənin zərurət olduğu bir zamanda xüsusi aktuallıq kəsb edir. Liderin şəxsiyyəti onun siyasi rolu ilə müəyyən edilir. Fərdi keyfiyyətlər siyasi rolların tələbatlarına müxtəlif cür uyğunlaşdırıla bilər [12].

ABŞ-da keçən əsrin 60-cı illərində baş vermiş siyasi hadisələrdə şəxsiyyət amili, onun siyasi proseslərə təsiri araşdırılsa, bir sıra məqamlar, o cümlədən şəxsiyyətin siyasi hadisələrə təsiri mexanizminin bəzi elementləri aydınlaşa bilər. Məsələn, deyək ki, F.Kennedi sağ qalsaydı, görəsən Amerikanın Vyetnamla müharibəsinə rəvac verə bilərdimi? Eləcə də o, ölkəsini bu müharibəyə qoşardımı? Məlumdur ki, Amerikanın Vyetnam müharibəsində itkiləri onu siyasi sferada da müəyyən məğlubiyyətlərə düçar etmişdir. F.Kennedinin yerinə başqa birisinin gəlməsi hadisələrin məcrasını dəyişməklə bərabər, həm də həmin hadisələrə keyfiyyətcə yenə məzmun gətirmiş oldu.



Təbii ki, bu fikrin eksperimental şəkildə təsdiqi qeyri-mümkündür. Yəni F.Kennedinin sağ qalacağı təqdirdə nə edəcəyi heç kəsə məlum deyildir. Lakin bəzi hallarda müəyyən situasiyalarda bu eksperimenti təsdiq edəcək faktlar vardır. Yenə Amerika tarixinə nəzər salaq. Tarixdən məlumdur ki, Franklin Ruzvelt 1933-cü ilin fevral ayında prezident seçilmişdir. Hələ prezident andı içməmiş, ona sui-qəsd edildi. Kütlə içərisində özünə yer tapmış qatil atəş açarkən kütlədə olan bir qadının əlinin hərəkəti Ruzvelti ölümdən xilas etdi. Növbəti ay o, öz vəzifələrini həyata keçirməyə başladı. Onun yeni lider olması, yeni islahatlar həyata keçirməsi yeni siyasi kursu formalaşdırdı. Bu isə Amerika hökumətinin yalnız funksiyalarını deyil, həm də strukturunu dəyişdirdi.

Yenə fikri eksperimentə müraciət edək. Əgər güllə Ruzveltə dəysəydi nə baş verəcəkdi? Nəticədə bu halda onun yerini tutmalı olan şəxs Con Qarner ola bilərdi ki, o, da Texas konqresmeni idi və real namizəd kimi dəstəklənirdi. Hər şəxsiyyətin şəxsi keyfiyyətləri onun davranışında önə çıxır. Məhz onun malik olduğu cəhətlər hansı şəkildə olursa-olsun istər siyasi, istərsə də digər proseslərə təsir göstərməyə bilməzdi. Con Qarner Ruzveltdən fərqli olaraq daha mühafizəkar idi. Onun hakimiyyətə gəlməsi demokratiyanın boğulmasına, insan hüquqlarının pozulmasına və nəhayət Ruzveltdən fərqli və Amerikaya sərf etməyən siyasi kursun yaranmasına gətirib çıxaracaqdır. Belə hadisələr Almaniyada və İspaniyada da baş vermişdir.

Bu iki hadisənin tarixi planda təhlili və fikri eksperimentlər bəzi nəticələr çıxarmağa imkan verir. Göründüyü kimi şəxsiyyətin siyasi hadisələrə təsiri danılmazdır. "Şəxsiyyət tarixin yaradıcısıdır" deyənlər təbii ki, səhv etmirlər. Başqa bir tərəfdən, bu hadisələrin psixoloji təhlili göstərir ki, şəxsiyyət siyasi hadisələrə bilavasitə öz şəxsi keyfiyyətləri vasitəsilə təsir edir. Şəxsiyyətdə interiozasiya olunmuş keyfiyyətlər istər-istəməz onun siyasi fəaliyyətinə təsir

göstərir, hadisələri istiqamətləndirmək yönümündə başlıca mövqe tutur. Birində formalaşmış mühafizəkarlıq, digərinin innovasiyalılığı, başqa birinin avtoritarlığı, zəifliyi və s. siyasi hadisələrə psixoloji məqamlar kimi təsir göstərir. Deməli, şəxsiyyətin siyasi hadisələrə təsirinin əsasında psixoloji qanunauyğunluqlar durur. Siyasi şəxsiyyətin necə olması, hansı iradəyə malikliyi, onun şəxsiyyətinin strukturunda mümkün olan və dominantlıq kəsb edən keyfiyyətlərin məcmusu cəmiyyətin sosial-siyasi sferasına, siyasi hadisələrə mühüm təsir göstərir.

D.Y.Rayqorodski Sovetlər İttifaqında baş verən hadisələrin təhlili kontekstində qeyd olunan məsələlərə aydınlıq gətirməyə çalışmışdır. Müəllif yazır: "Mən tam əminəm ki, əgər 1985-ci ildə M.Qorbaçovun yerinə L.Brejnevi, H.Andropovu və ya K.Çernenkonu xatırladan şəxsi keyfiyyətlərə malik lider seçilsəydi, tamam başqa hadisələr baş verə bilərdi" [20]. Doğrudur, M.Qorbaçov hakimiyyətə gəlməsəydi, təbii ki, sovetlər imperiyası o zaman belə tez dağılmağa başlamazdı. Lakin bu ayrı bir zamanda baş verəcəkdi. Ola bilsin ki, Qorbaçovun " yenidənqurması" əvəzinə, hansısa başqa bir ideya irəli sürüləcəkdi. Problemin həlli o zamankı vasitə və yollarla deyil, başqa metodologiya ilə həyata keçiriləcəkdir. Buradan belə çıxır ki, siyasi lider yalnız hadisələrin gedişinə, onun inkişaf dinamikasına təsir göstərir, əslində onun mahiyyətinə təsir göstərmir. Təbii ki, belə nöqteyi-nəzərlə razılaşmaq olmaz. Respublikamızın müstəqillik qazandığı bir dövrdə baş verən siyasi hadisələr, dəyişikliklər, eləcə də hərc-mərclik və s. kimi konfliktli situasiyalar zamanında həll olunmasaydı və ümummilli lider Heydər Əliyev hakimiyyətə gəlməsəydi nə baş verərdi? Müstəqillik aktının qəbulundan əvvəl, 1988-ci ildən etibarən tarixi Azərbaycan torpaqları olan Ermənistandan 250 min azərbaycanlının erməni milliyyətçiləri tərəfindən qovulması və sonrakı illərdə baş vermiş məcburi müharibələr Azərbaycan dövlətinin müstəqilliyini saxlamağa çətinlik törədirdi. Ayrı-ayrı "siyasətçilər" ölkəni parçalamağa, onun müstəqilliyinə son qoymağa və bununla da öz çirkin niyyətlərini həyata keçirməyə çalışırdılar. Erməni-rus birləşmələrinin Qarabağda törətdikləri vəhşiliklərə cavab reaksiyası təbii ki, adekvat olmurdu. Problem siyasi arenada həll edilməyə çalışılırdı. Demək olar ki, ölkə öz müstəqilliyini itirmək təhlükəsi qarşısında qalmışdır. Ayrı-ayrı şəxslərin siyasi iddiaları öz həddini keçmişdi. Bir anlığa təsəvvür edək ki, 1993-cü il hadisələrində Heydər Əliyev fenomeni yoxdur. O zaman bu missiyanı sonralar kiminsə həyata keçirməsi hətta nəzəri baxımdan mümkünsüz görünür. Belə ki, Respublika hissələrə parçalandıqdan sonra vahid dövlət olmadığı halda kim bu vəzifənin öhdəsindən gələ bilərdi? Təbii ki, yaxın gələcəkdə heç kəs bunu öz üzərinə götürə bilməzdi. Demək olar ki, əsl mülki fəlakət baş verə bilərdi. Azərbaycanın bir hissəsini ermənilər, bir hissəsini ruslar, digər hissəsini İran işğal edəcəkdir. Bununla da Azərbaycan deyilən məmləkətin mövcudluğu fakt qarşısında qalacaqdır. Məhz ümummilli lider Heydər Əliyevin gərgin siyasi fəaliyyəti sayəsində ölkə öz müstəqilliyini, öz mövcudluğunu qoruyub saxlaya bilmişdir. Azərbaycan H.Əliyev sayəsində nəinki regionun, hətta beynəlxalq aləmin sözü keçən dövlətlərindən birinə çevrildi. Məhz Heydər Əliyevin siyasi iradəsi, şəxsi keyfiyyətləri sayəsində respublikamız inkişaf etməyə və postsovet respublikaları içərisində öncül yerlərdən birini tutmağa layiq oldu.

Siyasi liderlərin fərdi-psixoloji xüsusiyyətlərini bilmədən nəinki, şəxsiyyətin siyasi proseslərə təsirinin psixoloji mexanizmini, həmçinin, liderliyin dəyişməsini, dünya siyasətində onun rolunu qiymətləndirmək olmaz. ABŞ-nın Fars körfəzində əməliyyat keçirməsi tarixi baxımdan qaçılmaz idi. Lakin buna qədər Amerika siyasi liderləri belə bir siyasətin həyata keçirilməsini dəstəkləsələr də, onların ideyalarının praktik baxımdan həyata keçməsi şübhə

doğururdu. Məhz belə bir hərbi kompaniyanın Çorc Buş həyata keçirdi. Lakin C.Buşun əvəzinə hakimiyyətdə başqa bir siyasi lider olsaydı yəqin ki, onun həyata keçirilməsi çətin olardı.

Siyasi liderin fərdi xüsusiyyətlərindən asılı olaraq onun siyasi proseslərə təsiri və bu proseslərin uğurla həyata keçirilməsi hər bir siyasi liderə qismət olmur və ya sadəcə olaraq buna psixoloji keyfiyyətlərin fövqündə dayanan siyasi iradə çatışmır. Ümummilli lider Heydər Əliyevin siyasi iradə göstərməsi ilə bağlı olan bir məsələ də 1994-cü ildə Azərbaycanın iri neft müqavilələri bağlaması ilə əlaqədar idi. O zamankı mürəkkəb siyasi situasiya, ölkəmizə ayrı-ayrı dövlətlər tərəfindən təzyiqlər, dövlət çevrilişi qorxusu, "böyük qardaşın" vasitəli təzyiqləri və s. kimi faktlar, amillər bu müqavilənin bağlanmasına və onun gələcəyinə şübhə yaradırdı. Yəqin ki, başqa dövlət adamları, siyasi liderlər bu addımı ata bilməzdilər və ya iri dövlətlərin maraq dairəsindən çıxa bilməzdilər. Lakin ümummilli lider H.Əliyev heç nədən çəkinmədən siyasi iradəsini ortaya qoydu və bununla özünün böyük dühа, dövlət adamı olduğunu bir daha təsdiqlədi.

Fərdi psixoloji xüsusiyyətlər, onların şəxsiyyətin strukturunda tamlıq yaratması siyasi proseslərin sistemliliyinə zəmanət verir. Belə faktlar siyasətçiləri və psixoloqları belə bir qənaətə gəlməsinə imkan verir ki, şəxsiyyət siyasi hadisələrin və ona təsirin fövqündə durur. Bu aksiomadır və bunu danmaq olmaz.

Bəzi müəlliflər isə belə hesab edirlər ki, şəxsiyyətin siyasi proseslərə təsiri onun fərdi-psixoloji xüsusiyyətlərindən asılı olmayıb, situasiyanın özündən asılıdır. Məhz bu məqsədlə ayrı-ayrı tədqiqatçılar şəxsiyyətin iştirakı olmayan siyasi hadisələri təhlil edib, siyasi hadisələrin şəxsiyyət determinantlarından danışırlar. F.Qrinstayn hesab edir ki, şəxsiyyətin siyasi proseslərə təsiri mürəkkəb və əksər hallarda şərh edilməsi mümkün olmayan



bir məsələdir [12]. O, fikrini əsaslandırmaq üçün bir neçə arqument gətirir:

1.Siyasi liderlərin şəxsiyyəti heç də hər kəs üçün maraqlı deyil və xüsusi əhəmiyyət kəsb etmir. Belə ki, onların davranış modelinin, siyasi rollarının müqayisəsi ortaq məxrəcə gəlməyə imkan vermədiyindən, hesab etmək olar ki, onların şəxsiyyəti siyasi rol fonunda sanki "əriyir", yəni şəxsiyyət məsələsi arxa plana keçirilir.

2.Şəxsiyyətin siyasi hərəkətləri daha çox sosial gerçəkliklə şərtlənib ki, bu da daha çox siyasi liderin şəxsi keyfiyyətlərinin iqtisadi faktlarla asılılığından irəli gəlir.

3.Siyasi liderin şəxsi keyfiyyətləri ya az görünəndir, ya da siyasi davranış sinfi məqsədlərlə, milli dəyərlərlə və s. ilə şərtlənmişdir.

4.Şəxsiyyət fenomeni siyasi element kimi əhəmiyyətli fenomen kimi qəbul edilə bilməz. Belə ki, hətta onun tərəfindən qəbul edilmiş hər hansı siyasi hərəkət, təsir öz əhəmiyyətinə görə siyasi hadisələrin nəticəsinə təsir göstərə bilməz.

Siyasi proseslər öz mahiyyəti etibarı ilə insan amilinin fonunda qərar tutur. İnsan amili olan yerdə isə psixoloji qanunauyğunluqlardan danışmamaq olmaz.

Siyasi hadisələrin tarixi-psixoloji planda təhlili göstərir ki, şəxsiyyət amili siyasi-proseslərin fövqündə durur. Bir sıra məqamlarda isə siyasi prosesin özü demək olar ki, şəxsiyyətin xüsusiyyətlərinə uyğun inkişaf edir.

Ümumiyyətlə faktlar göstərir ki, şəxsiyyətin siyasi proseslərə təsiri mexanizmi olduqca mürəkkəbdir və burada bir sıra amillər həmin təsirin gerçəkləşməsini təmin edir. Bunlardan biri şəxsiyyətin fərdiləşməsidir.

Məlumdur ki, fərdiyyət anlayışı insanın özünəməxsusluğunu, təkrarolunmazlığını, orijinallığını ifadə etmək üçün istifadə olunur. Şəxsiyyətin fərdiləşməsi prosesi insanın özünəməxsus dəyərlərinin

dərk olunması, onun davranışında reallaşdırılması, ünsiyyətdə və fəaliyyətdə öz təkrarolunmazlığının göstərilməsi, eləcə də kollektivdən, onun meyillərindən asılılığın azalması, muxtariyyət qazanılması prosesidir [1]. Ümumiyyətlə, şəxsiyyətin fərdiləşməsi prosesini öyrənərkən kollektivin, sosial münasibətlərin ona təsirini əsas kimi götürürlər. Bu problemə müxtəlif səpgidə V.M.Bexterev, Z.Freyd, K.Yunq, E.Fromm, V.N.Myasişev, L.M.Baktin və başqaları toxunmuş və məsələnin köklü həlli variantlarını göstərməyə çalışmışlar.

V.M.Bexterev kollektivin şəxsiyyətin inkişafına və özünütəyinetməsinə sıxışdırıcı təsirini tarixi-psixoloji baxımdan öyrənməyə çalışmışdır. Kollektiv fərdin özünütəyin etməsinə təsir göstərərək, onun fərdi cəhətlərini sıxışdırır və formalaşmış şəxsiyyətin özünütəyini prosesini pozur. V.M.Bexterev bu hadisəni antisosial hadisə kimi qiymətləndirərək, hesab edir ki, cəmiyyətin inkişafı şəxsiyyətin maraqlarını çoxluğun maraqlarına tabe etdirilməsi yolu ilə gedir. Kollektiv fərdin şəxsi keyfiyyətlərini sıxışdıraraq kəmiyyətə üstünlük verir, şəxsiyyət isə ayrıca şəxs kimi özünün yaradıcı enerjisini üzə çıxararaq fərdi xüsusiyyətlər kəsb edir [10].

Tarixi inkişaf prosesində şəxsiyyət özünün ilkin kollektiv başlanğıcından tədricən uzaqlaşır və analoji olaraq fərdi inkişaf onun özünütəyininin vasitəsinə çevrilir.

Şəxsiyyətin siyasi proseslərə və kollektivə təsirinin tarixi məqamlarını E.Fromm özünün tarixi-psixoloji konsepsiyasında hərtərəfli şəkildə şərh etməyə çalışır. O, inanırdı ki, sosial tarix fərdiyyətin inkişaf etməsi ilə, analoji olaraq hər bir ayrıca insanın inkişaf tarixi ilə müşahidə olunur. Özünün "Azadlıqdan qaçış" kitabında E.Fromm fərdiləşməni tarixi inkişaf prosesində fərdin özünün ilkin əlaqələrinin itirilməsində, zəifləməsində görürdü [24].

E.Fromm fərdiləşmənin inkişafının iki tarixi-psixoloji aspektini göstərir: birinci aspekt şəxsiyyətin inkişafıdır, ikinci aspekt isə,



tənhalıq, dünyadan ayrılma, tərki dünyalıq, başqalarından ayrılmaqdır ki, bu da insanda həyəcan və qorxu hissi yaradır. Nəticədə insan öz fərdi xüsusiyyətlərindən, fərdiləşmə prosesindən əl çəkməli olur və onda cəmiyyətlə bir olmaq arzusu yaranır.

İnsanlarda yaranmış şəxsi həyəcan hissi qlobal tarixi hadisələrə, faciələrə gətirib çıxarır. Məhz bu psixoloji əsas E.Fromma görə kütləvi hərəkatlar, inqilabi təbəlüddatlar yaradır. Müəllifə görə alman faşizminin yaranması məhz belə bir psixoloji-tarixi prosesin nəticəsidir. İkinci bir yol, daha məhsuldar olan yol isə şəxsiyyətin təbiətlə və insanlarla spontan əlaqələrinin qurulması ilə bağlıdır. Bu prosesdə fərdiyyət sıxışdırılır, lakin bütünlüklə darmadağın edilmir. İtaliya Renessansının X əsrdə yüksəlişini müəllif buna misal gətirir.

Şəxsiyyətin fərdiləşməsi və onun muxtariyyət qazanması məsələlərinə K.Yunq öz münasibətini belə səciyyələndirir: "Şəxsiyyətin inkişafı - həmişə risk və faciədir, kim öz həyatını uda bilmədiyi gedişə qoya bilər". Öz işlərində K.Yunq bu problemi dərindən təhlil etməyə cəhd göstərir. K.Yunq öz əsərlərində iki tarixi tendensiyanı qarşı-qarşıya qoyur: şəxsiyyətin bütövlüyü və kütlə üzərində hökmranlığa cəhd. Yunqun fikrincə, şəxsi inkişaf aksiyası kollektiv üçün qeyri-populyar olaraq, onda həmişə əks hərəkət yaradır. Ancaq cəmiyyət məhz fərdi şəxsiyyətlərin hesabına dəyişir, onun mənəvi inkişafı ilə sıx bağlı olur [9].

Şəxsiyyətin siyasi proseslərə təsirinin mexanizmini müəyyənləşdirmək üçün təbii ki, şəxsiyyətin məhsuldar yaradıcı fəaliyyətini də qiymətləndirmək vacibdir.

İnsanın həyat və fəaliyyət potensialı hər şeydən əvvəl tarixi planda qiymətləndirilə bilər. Ancaq xalqın tarixi yaddaşı o kəslərdə daha çox özünü göstərir ki, onlar tarixi hadisələrə, siyasi proseslərə real təsir göstərmiş, mədəniyyətin və cəmiyyətin inkişafı üçün öz potensialından istifadə etmişdir. Qəhrəman, böyük dühа,

tarixi şəxsiyyətlər probleminə psixoloji baxış demək olar ki, onların yaradıcı fəaliyyətinin, məhsuldar siyasətinin psixoloji şərtlərinin müəyyənləşdirilməsi ilə məhdudlaşır. Deməli, burada məsələni bir qədər genişləndirmək, yalnız psixoloji deyil, həm də tarixi-psixoloji aspektdən yanaşmaq və məsələni bu səpkidə öyrənmək lazımdır.

Bu problemi, onun qanunauyğunluğunu, səbəb və mexanizmini A.Q.Asmolov öz modelində inandırıcı şəkildə şərh etmişdir. A.Q.Asmolovun fikrincə, "İnkişaf edən sistemin fəal elementi kimi subyektin özünügöstərməsinin öyrənilməsi insanın təbiətdə və cəmiyyətdə inkişafının aspektlərini özündə əks etdirən prinsiplərin ayırd edilməsini tələb edir" [8]. A.Q.Asmolov burada bir neçə prinsip ayırd edir:

Birinci prinsip. İstənilən inkişaf edən, dəyişən sistem özündə iki mübarizə aparan tendensiyanın qarşılıqlı təsirini ehtiva edir. Burada sistemin qorunub saxlanması meyli və mövcud sistemin dəyişilməsi tendensiyası hökm sürür. Tipik adaptiv təzahürlər (davranış stereotipləri, vərdişlər, yönəlişlər, reproduktiv təfəkkür) sosial qrupda şəxsiyyətin sabitliyini təmin edir və cəmiyyətin bütövlüyünü qoruyub saxlayır. İnsan fəallığının produktivliyi (yaradıcılıq, təxəyyül, şəxsiyyətin özünügerçəkləşdirməsi) dəyişən unikallıq kəsb edirsə və dəyişikliyə meyllilik yaradırsa, bu fəallıq qeyri-adaptiv, qeyri-utilitar fəallığa çevrilir. Belə fəallıq tipinə bir sıra sosial hərəkətlər daxil edilə bilər ki, bunlar cəmiyyəti sabitlikdən məhrum edir. A.Q.Asmolovun fikrincə, "fərdiyyətin təkamül baxımdan əhəmiyyəti artıq adam" qismində mədəniyyətin inkişafına elə yeniliklər gətirir ki, indiki halda bu mədəniyyətin mövcudluğu qəbul edilmir "[ 11 ].

İkinci prinsip. Hər hansı təkamül edən sistemdə artıq qeyri-adaptiv elementlər mövcuddur ki, onlar sistem dəyişdikdə belə özünün inkişafını təmin edən nəzarətə malik olur. Fərdi dəyişilmə



tarixi baxımdan sistemin bütünlüklə dəyişməsi deməkdir. Cəmiyyətdə hər hansı boşluq, inkişafdan qalma, onun üzvlərinin təmin olunması məhdudlaşdıqca siyasi fəaliyyət cəmiyyətin yenidən qurulması, onun yeni fazaya keçirilməsi və mədəniyyətinin inkişafı üçün stimul ola bilər.

"Şəxsiyyətin fəaliyyət kimi" və "şəxsiyyətin tip kimi" məhdudlaşdırılması onun sosiotipik davranışını, onun fəaliyyətinin müxtəlif təzahürləri ilə əlaqələndirməyə imkan verir. Təbii ki, bu prinsiplər fəaliyyət və cəmiyyət sisteminin bir-birilə qarşılıqlı təsiri mexanizminin ayrı-ayrı elementlərini özündə əks etdirir.

Bəzi müəlliflər şəxsiyyətin siyasi proseslərə, tarixi hadisələrə təsirini çox vaxt ikili məzmunda səciyyələndirirlər. Yəni şəxsiyyət həmin proseslərə təsir göstərdiyi kimi cəmiyyət də şəxsiyyətə, onun fərdiyyətinin təzahürünə hərtərəfl təsir göstərir.

Tarixi şəraitin şəxsiyyətin formalaşmasına təsiri tarixi-psixoloji tədqiqatların hərəkətverici qüvvəsi kimi çıxış edir. Bu zaman şəxsiyyət tarixi prosesin obyekti kimi çıxış edir. Yəni şəxsiyyətə olan siyasi, iqtisadi, hüquqi, əxlaqi təsirlər onun tarixi inkişaf prosesində formalaşmasında, fərdiyyətinin təzahüründə əsaslı amil kimi diqqət mərkəzinə gətirilir.

E.Y.Bobrova şəxsiyyətin tarixi-psixoloji cəhətlərini "Şəxsiyyətin tarixi özünəməxsusluğu" termini ilə ifadə edir [10]. Müəllifə görə şəxsiyyətin tarixi özünəməxsusluğu – kompleks psixoloji xassələri, şəxsiyyət üçün xarakterik olan konkret-tarixi şəraitin təsiri nəticəsində ortaya çıxır.

Şəxsiyyətin tarixi özünəməxsusluğunun psixoloji baxımdan tədqiqi özündə bir sıra prinsipial aspektləri əks etdirir:

1. Tarixi şəxsiyyət tipinin formalaşmasının əsas amillərinin səciyyəsi. Bunun üçün tarixi şəxsiyyət tipinin formalaşmasının qanunauyğunluqları, o cümlədən sosializasiyanın tarixi şərtlərini tədqiq etmək lazımdır. Deyək ki, bir tarixi şəraitdə sosializasiyaya

təsir göstərən amil, digər şərait üçün məqbul sayıla bilməz. Çünki, tarixi situasiya, hadisələrin inkişaf dinamikası mürəkkəbləşdikcə, şəxsiyyətin tarixilik kəsb etməsi də fərdiləşir.

2. Konkret tarixi şəraitdə şəxsiyyət komponentlərinin təşəkkülünün əsas meyllərinin, tendensiyalarının xarakteristikası. Bu prinsipi reallaşdırmaq üçün şəxsiyyətin sosializasiyasının psixoloji effektlərini və burada dominantlıq kəsb edən sosializasiyanın psixoloji mexanizmindən asılılılığını tədqiq etmək zəruridir.

3. Şəxsiyyətin tarixi tipinin psixoloji portretinin yaradılması. Qeyd etdiyimiz prinsipi reallaşdırmaq üçün psixoloji xüsusiyyətlərin, özünəməxsus komplekslərin fərdə məxsusluğunu xarakterizə edən cəhətlərini (məsələn, xarakteri, özünüdərketmənin xüsusiyyətlərini, şəxsiyyətin istiqamətlərini və s.) ayırd etmək vacibdir.

Şübhəsiz, şəxsiyyətin siyasi proseslərə, tarixi hadisələrə təsirinin mexanizmində şəxsiyyətin sosiallaşması və konkret tarixi situasiyanın sosializasiyası mühüm rol oynayır. Ancaq bununla belə hətta bu mexanizmin özünün tam şəkildə açılması da məsələnin bütünlüklə həllinə rəvac verə bilməz. Çünki, tarixi hadisələrin özü psixoloji effektə malik olur. Demək olar ki, tarixi hadisələrin psixoloji effektə malik olması faktı hər kəs tərəfindən birmənalı qarşılanmır. Məsələn, Z.Freydin tarixi-psixoloji konsepsiyasından irəli gələn elmi ənənələr şəxsiyyətin həyatı ilə bağlı hadisələrin tarixi hadisələrlə qarşılıqlı əlaqəsini demək olar ki, müəyyən mənada inkar edir. Şəxsiyyətin dünyagörüşü və fenomenoloji əhəmiyyəti onun siyasi hadisələrə təsirini azaldır. Qərb siyasi psixologiyasında da bu ənənələrin davam etdirilməsinin şahidi oluruq. Ancaq rus psixologiyası şəxsiyyətin siyasi proseslərə təsirini və şəxsiyyətin tarixi yaratması prinsipini qəbul edir və bunu əsaslandırmağa çalışırlar. Məsələn, B.Q.Ananyev hesab edirdi ki, tarixi hadisələrin iştirakçısı və müasiri olan insana tarixi hadisələrin və onun həyat tarixinin obyekti kimi baxılmalıdır. B.Q.Ananyevin fikrincə,



insanın fərdi inkişafında baş verən dəyişikliklər konkret tarixi zamanda və konkret sistemin dəyişilməsi ilə əlaqədardır[7]. Buradan belə qənaətə gəlmək olar ki, hər bir insan özündən çox öz zəmanəsinə oxşayır. Görkəmli şəxsiyyət Həzrət Əlinin fikirləri də çox dəqiq şəkildə burada öz əksini tapır: “İnsanlar öz ata-babalarından çox, zəmanələrinə oxşayırlar”.Şəxsiyyət ontogenetik inkişafdan, sosial hadisələrdən, siyasi təsirlərdən kənarda götürülə bilməz. Hər bir insanın formalaşmasına onun fəaliyyəti ilə yanaşı, konkret tarixi hadisələr də təsir göstərir. Əksər hallarda isə bu təsir əks əlaqə mexanizmi üzə-rində qurulur. Yəni konkret tarixi-siyasi hadisələr şəxsiyyətə təsir göstərdiyi kimi, şəxsiyyət də hadisələrin gedişinə, onun dinamikasına təsir göstərir. Belə fikri əsas gətirmək olardı ki, əslində tarixi hadisə insandan, onun varlığından kənarda baş vermir. Daha doğrusu, elə siyasi hadisələri yaradan, onların dinamikasını tarazlayan insanlardır. Həmin insanlar içərisindən çıxan və öz fəaliyyəti, qabiliyyəti, şəxsiyyət keyfiyyəti ilə fərqlənən liderlər siyasi hadisələri cəmiyyətin tələblərinə uyğun inkişaf etdirir, onu yaradırlar. Məsələyə bir qədər də konkret yanaşsaq, belə qənaətə gələ bilərik ki, şəxsiyyət amili – psixoloji səciyyəsi ilə vəhdətdə həm də siyasi hadisədir. Deməli, şəxsiyyət siyasi hadisələrə təkcə təsir göstərmir, həm də siyasi hadisələr onun şəxsiyyətində təzahür edir.

Qərb və Amerika siyasi psixologiyasında şəxsiyyət və onun siyasi proseslərə təsiri məsələləri Z.Freydin konsepsiyasından qaynaqlanır. Burada əks əlaqənin mexanizmi, yəni şəxsiyyətin formalaşmasında siyasi hadisələrin rolu travmatik təsirlərdə axtarılır. Tarixi hadisələrin kütləyə, şəxsiyyətə təsiri məsələləri Z.Freydin «Mousey və monoteizm» əsərində öz əksini tapmışdır. Bu konsepsiyaya istinad edən V.Lenger cəmiyyətin psixologiyasında baş verən hadisələrin kökünün elə cəmiyyətdən gəldiyini xüsusi qeyd edir. Sosial hərəkatların və kütləvi iğtişaşların kökü-

nün tarixi-psixoloji səbəblərdə axtarılması ideyası tarixi hadisələrin psixoloji effektə malik olması qənaətinin əsasını qoydu. Doğrudur, bu problem E.Erikson, Q.Birevskiy, P.Levenberq, R.Biniron, P.Veyt, H.Hilbert və başqa tədqiqatçılar tərəfindən problematik səviyyədə tədqiq edilmişdir Lakin daha çox bitmiş fikir P.Levenberqin konsepsiyasında öz əksini tapmışdır. P.Levenberq I dünya müharibəsində özünəməxsus tarixi-psixoloji effekt müəyyənləşdirmişdir. Özünün "Nasist gənclər hərəkatının psixotarixi kökləri" əsərində müəllif alman gənclərinin yeni nəslinin formalaşmasında dünya müharibəsindəki məğlubiyyətlərin, uşaqlıq həyəcanlarının, inqilabi hadisələrin onların psixi inkişafına təsir göstərdiyini xüsusi qeyd edir.

Tarixi və tibbi mənbələrin kompleks öyrənilməsi, təhlili, sosioloji faktların, bədii ədəbiyyatın, incəsənətin tədqiqi P.Levenberqə aşağıdakı qənaətə gəlməyə imkan verir: I dünya müharibəsi, müharibədən sonrakı iqtisadi vəziyyət gənc almanlara travmatik təsir göstərərək, gələcəkdə millətdə zəif fərdiyyət, yüksək aqressivlik, totalitar liderə tabe olmaq kimi keyfiyyətlər formalaşdırmışdır.

B.Melisa bu faktı "Ümumi qorxu hissi" ilə bağlayır və hesab edir ki, boğulma, məhv olma və soyqırıma məruz qalma qorxusu insanları kütləvi şəkildə vahid liderə tabe olmağa gətirib çıxarır.

Şəxsiyyətin siyasi hadisələrə təsiri mexanizmi hər şeydən əvvəl həmin təsirin hansı formada həyata keçirilməsi, eləcə də təsirə məruz qalmanın psixoloji mexanizminin tarixi-psixoloji aspektləri K.Yunqun konsepsiyasında özünəməxsus şəkildə şərh olunmuşdur. Tarixi hadisələr, tarixi dəyişmələr Yunqa görə şüursuzluq sferasında baş verən fəallığın nəticəsində mürəkkəbləşmiş psixoloji situasiyadır. "Real dəyişilmələr – Yunq izah edir ki, - insanın öz daxili aləmindən başlamışdır və bu adam bizlərdən hər hansımız ola bilərik "[23]. Qeyd etmək lazımdır ki, K.Yunq kollektiv şüursuzluğun tarixi proseslərdəki rolunu bir sıra müddəalarda əks etdirmiş-



dir. Yunq əmin idi ki, insan onu kimin idarə etməsindən və necə idarə etməsindən asılıdır. Bu asılılıq tarixə qədərki dövrdən yaranaraq dövrümüzə qədər gəlib çatmışdır. Müəllifə görə bu missiyanı isə arxetiplər yerinə yetirir. Arxetiplər qüsursuz hərəkətlərdə reallaşır və sarsıntılarla qarşılaşmış insanları bəlalardan qurtarır, onları sakitləşdirir. Məsələn; qəhrəmanlarla insan özünü eyniləşdirərək şəxsi natamamlıq hissindən qurtulmağa çalışır. Gündəlik həyat məhdudiyyətlərindən uzaqlaşan insan yüksək keyfiyyətlər əldə edir ki, bu da onu mümkün sarsıntıdan qoruya bilir.

K.Yunqa görə tarixi hadisələr kollektiv şüursuzluğun yenidən ortaya çıxmasıdır. Olduqca maraqlı olan bu konsepsiya, siyasi hadisələrə, iğtişaşlara, tarixi dəyişilmələrə kollektiv psixoz kimi baxır və siyasi liderin rolunun, onun fərdi qabiliyyətlərinin təzahürünü kollektiv şüursuzluqdan irəli gələn amillərlə bağlayır. K.Yunq psixoloji hadisələri demək olar ki, kollektiv şüursuzluğun təzahürü ilə eyniləşdirir. Burada "Mən" "Bizə" çevrilir və şəxsiyyətin siyasi proseslərə təsiri məsələləri olduqca mürəkkəbləşmiş simvollarla verilir. K.Yunq Hitlerlə Stalini siyasi lider kimi aşağıdakı kimi təsvir edir. Stalin sadəcə olaraq kəndli instinktinə malik qüdrətli vəhşi heyvandır. Bu cəhətdən o, bütün diktatorlardan qüdrətlidir. O, öz güclü boynu, tərpənən bığları və xama yeyən pişik təbəssümü ilə Sibir pələnginin xatırladır.

Hitlerə gəldikdə isə bu tamam ayrı məsələdir. Onun bədəni fiziki cəhətdən heç bir təsir bağışlamır. Üzü isə xəyalpərvərliyi ilə seçilir. Hitler hər bir almanın təhtəlşüurudur. Onun güzgüsüdür. Amma Almaniyadan kənarda olan heç nəyi əks etdirmir. Hitler alman gəncinin pıçıltılarını gücləndirən rupordur. Hitlerin hakimiyyəti siyasi deyil, magiya hakimiyyətidir. Hitlerin sirrinin iki xüsusiyyəti var: birincisi, onun təhtəlşüurundan şüuruna birbaşa yol var; ikincisi, o, öz təhtəlşüuruna itaət edib onun ardınca gedir, eyni zamanda öz daxili səsinə qulaq asır. Onun daxili səsi bütün

alman xalqını əks etdirən təhtəlşüurdur. Hitler Almaniyanı idarə etmir. O, sadəcə olaraq, hadisələrin ümumi tendensiyasının ötürücüsüdür. Stalində isə bu başqa formada təzahür edir. Onun xarakterində aparıcı cəhət şəxsi ambisiyadır. O, ölkəni çar kimi idarə edir.

K.Yunq şəxsiyyət və siyasi hadisə fenomenologiyasının, onların qarşılıqlı əlaqəsinin mexanizmini təhtəlşüurda, özü də kollektiv şüursuzluqda axtarır. O, şəxsiyyətin siyasi proseslərə təsirini danmır. Lakin onu daha çox siyasi hadisə ilə eyniləşdirir. K.Yunq konsepsiyasında xüsusilə onun "Metamarfoza və libido rəmzləri" əsəri psixologiyada yeni bir mərhələ açdı və göstərdi ki, insanın və xalqların qədim kollektiv şüurunun mifoloji motivlərlə birgə sonrakı bütün mərhələləri şəxsiyyətin beynində və hətta genlərində yatıb qalır və psixi xəstələrin, paranoidlərin sayıqlamalarında üzə çıxır.

K.Yunq haradasa bütün anlaşılmaz, murəkkəb, sirli cəhətlərin pərdəsini açdı, şəxsiyyətə və siyasi hadisələrə yeni kontekstdən yanaşmaqla, şəxsiyyətin siyasi proseslərlə əlaqələrini özünəməxsus şəkildə izah etdi.

K.Yunqun təsvir etdiyi təhtəlşüur bütün bəşəriyyətə xas olan və hər hansı ruhi fərdin əsaslandığı tərbiyə və ya mərhələdir. Onun siyasi xadimlər haqqındakı fikirləri də olduqca rəngarəng və elmi xarakterlidir.

Şəxsiyyətin əlverişsiz tarixi şəraitdə özünütəyin etməsi yalnız onun fərdi-psixoloji xüsusiyyətləri ilə müəyyən edilmir, həm də siyasi şəraitlə şərtlənmiş olur. Z.Freydin fikrincə, şəxsiyyət əlverişsiz sosial situasiyalarda, mürəkkəbləşmiş siyasi hadisələrdə özünəməxsus, özünəuyğun yollar seçir. Onlar aşağıdakılardır:

- Başqa insanlardan uzaqlaşma (sakitliyə çəkilmək);
- Öz şəxsi orqanizminə təsir göstərmək, kimyəvi təsir, intoksikasiya;
- Ruhi sakitliyə qapılmaq;



- Qeyri-siyasi sferada calışmaq (yaradıcılıqla məşğul olmaq);
- Başqaları ilə birlikdə, onların xoşbəxtliyi naminə siyasi hərəkatlara qoşulmaq, siyasi liderə çevrilmək.

Şəxsiyyətin tarixi özünütəyinin, məqsədəyönəlişliyinin qorunub saxlanmasına təsir göstərən başlıca amil siyasi davranışdır. Siyasi davranış şəxsiyyətə təsir göstərməyin mühüm vasitəsidir. Məlumdur ki, siyasi davranış cəmiyyətin siyasi strukturuna olan münasibətin sosial davranış tipidir. Siyasi fəaliyyət sferasına münasibətdə sosial davranış siyasi səciyyə daşıyır. Tarixdən istənilən sayda nümunələr gətirməklə, sosial davranışın öz hüdudlarından kənara çıxmasının, özünün siyasi liderliyinin itirilməsinin və siyasətin obyektinə çevrilməsinin şahidi ola bilərik. Siyasi davranışın tarixi-psixoloji fenomen kimi səciyyəvi xüsusiyyətlərini aşağıdakı kimi fərqləndirmək olar:

- sosial destruktivlik və ya mövcud sosial və siyasi sistemin dəyişilməsi istiqamətləri;
- psixoloji altruizm və ya şəxsiyyətin həyat üçün vacib olan yaradıcı enerjisinin mikrososial şəraitin yaradılmasına sərfi, özünügerçəkləşdirmə üçün zərurətin meydana çıxması;
- situativliyin və siyasi fəallığın subyektlər üçün qeyri-spesifik psixoloji əhəmiyyətə malik olması, siyasi hadisələrə təsiri şəxsiyyət xüsusiyyətləri ilə deyil, tarixi şəraitlə müəyyən olunur [10].

Əlverişsiz tarixi şəraitdə insanın, şəxsiyyətin siyasiləşməsi onun cəmiyyətə münasibətinin dəyişilməsinin nəticəsi kimi çıxış edir. Burada formalaşan "inamsızlıq situasiyası", insanın cəmiyyətdə koqnitiv oriyentasiyasını itirməsi, ətraf gerçəkliyin dərk olunmasının psixoloji aktuallıq kəsb etməsi və s. kimi hallarda siyasət diqqət mərkəzinə gəlir və refleksiv səciyyə daşıyır. Tarixi özünütəyinetmə məqamında siyasi təsəvvürlərin və ideyaların qavranılması prosesi insanın cəmiyyətə neqativ emosional münasibəti fonunda

baş verir. Əksər insanlar mümkün situasiyada siyasi ustanovkanı mənimsəyir, siyasətin potensial subyektlərinə çevrilirlər.

İnsanın, şəxsiyyətin psixoloji xüsusiyyətlərindən, onun iddia səviyyəsindən, siyasi rejimdən və insanın mövcud ölkədəki siyasi fəallığından asılı olaraq, "dünyanı", "cəmiyyəti" dəyişmək cəhdi müxtəlif formalarda özünü göstərə bilər. Bir sıra tədqiqatçıların fikrincə, bu, aşağıdakı əlamətlərə, səciyyəvi xüsusiyyətlərə görə fərqlənə bilər:

- Müxalifətçilik. Bu halda siyasi fəaliyyət siyasi strukturun dəyişilməsinə, qanunlara münasibətə və mümkün siyasi rejimin yenidən qurulmasına istiqamətlənir.

- İdeoloji radikalizm. İslahatçı və radikal doktrina formasına yönəlmiş ideoloji nəticələrə səbəb olur.

- Siyasi romantizm. Burada siyasi mübarizənin açıq və başlıca üsullarından istifadə olunur. Belə situasiyalarda siyasi fəallıq məqsədə yönəlişlikdən, ifrat fanatizmə qədər yüksələ bilir və hər hansı siyasi hərəkat həmin situasiyada şəxsiyyət məzmunu kəsb edir.

- Demokratiklik. Başqa cür deyilsə, öz siyasi fəaliyyətinə daha çox insanın cəlb olunması, ictimai fikrə appelyasiya meylləri, siyasi hərəkatın kütləvi formalarından istifadə.

Sosial davranışın obrazları tarixi şəraitdən asılı olmayaraq müşahidə olunur. Qeyri-kütləvi hərəkatlər sosial davranış kimi sosial sistemin dəyişilməsinəvəinsanın həyat şəraitinin yaxşılaşmasına gətirib çıxarmır. Lakin bununla belə tarixi psixoloji fenomenlər kütləvi xarakter daşıyır və şəxsiyyətin özünün tarixi özünüdəyişmədə mümkün sosial-psixoloji fenomen xüsusiyyəti kəsb edən siyasi davranışa tarixi davranışın bir növü kimi baxırlar. Bir sıra mənbələrdə tarixi davranış aşağıdakı kimi səciyyələndirilir: "Tarixi davranış – şəxsiyyətin sosial fəallığı olub, qeyri-əlverişli tarixi situasiyada şəxsiyyətin özünügerçəkləşdirilməsinə, saxlanılmasına yönəlmiş şəxsiyyətin tarixi özünütəsdiqidir " [10].



Bütün bunlar onu göstərir ki, şəxsiyyətin siyasi davranışı, həm də tarixi davranışdır. Bu halda konkret götürülmüş siyasi davranış sırf tarixi hadisə elementinə çevrilir. Məhz şəxsiyyət bu yöndə siyasi hadisələrə təsir göstərir, onların istiqamətlənməsinə şərait yaradır, bir sıra hallarda isə tarixin yaradıcısına çevrilir. Hətta bəzi sistemlər istər müsbət, istərsə də qəbul edilməyən olsun sırf şəxsiyyətlərin adı ilə bağlanır. Məsələn, "Hitler nasizmi", "Stalin repressiyası", "Qorbaçov yenidənqurması" və s.

Bu faktlar bir daha onu göstərir ki, tarixi hadisələr mütləq mənada şəxsiyyət amili ilə bağlı olur. Şəxsiyyət özünün fərdi-psixoloji xüsusiyyətləri, eləcə də siyasi davranışı, sosial davranışı, iradi keyfiyyətləri ilə siyasi hadisələrin vektoruna, onun leytmotivinə çevrilir. Mexanizm etibarilə şəxsiyyət özünügerçəkləşdirmə üsulları ilə bu tarixi şəraitə, insanlara, bəzən regional səviyyədə, bəzən isə qlobal səviyyədə təsir göstərə bilir.

**Mövzuya aid sual və tapşırıqlar:**

1. Şəxsiyyət kimdir?
2. Q.V.Olport "psixofiziki sistemin dinamik təşkili" dedikdə nə nəzərdə tutur?
3. Z. Freydin əsərlərində şəxsiyyətin strukturu hansı formada öz əksini tapmışdır?
4. Siyasi davranış nədir?
5. Psixoloji altruizm nədir?

**Ədəbiyyat:**


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı:Çinar-Çap, 2002, 540 c.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Poliqraf, 2003, 365 s.

3. Əliyev B.H. Şəxsiyyət probleminə yeni baxış / Elm XXI əsrin astanasında. Elmi-praktik konfransın materialları. Bakı: Renessans, 1999, s.3.
4. Əliyev B.H. Milli dövlətçilik və şəxsiyyət /Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin anadan olmasının 80 illiyinə həsr olunmuş elmi konfransın materialları.Bakı: Renessans, 2003, s.3-22.
5. Məhərrəmov M.C. İzahlı psixoloji lüğət. Bakı: Azərnəşr,1999, 149 s.
6. Андреева Г.М. Социальная психология. Учебник для высших учебных заведений. М.: Аспект Пресс, 2001, 290 с.
7. Ананьев Б.Г. Человек как предмет познания.Некоторые черты психологической структуры личности. Ленинград,1985, с.39-41.
8. Асмолов А.Г. Психология личности: принципы общепсихологического анализа. М.: МГУ, 1990, 367 с.
9. Ашин Г.К. Лидерство: Социально-политические и психологические аспекты. Кн. Политика: проблемы теории и практики. В 2-х частях. Часть II, М.: ИН И ОН ЛН СССР, 1990, 103 с.
10. Боброва Е.Ю. Основы исторической психологии. СпБ: Петербургского Университета, 1997, 236 с.
11. Божович Л.И. Личность и ее формирование в детском возрасте. М.: Весь мир, 1968, с.54-91.
12. Гринстайн Ф. Личность политика. М.: Инфра-М, 1969, 245 с.
13. Кон И.С. Постоянство и изменчивость личности // Психологический журнал, 1978, №4, с.6-17.
14. Маслоу А. Самоактуализация. М.: Питер, 1982, 190 с.
15. Немов Р.С. Психология. Кн.1. 3-ое изд, М.: ВЛАДОС, 1998, 608 с.



16. Оллпорт Г. Личность в психологии. СПб: Ювента, 1998, 280 с.
17. Психология. Словарь. М.: Политиздат, 1990, 560 с.
18. Психология формирования и развития личности. М.: Наука, 1981, 368 с.
19. Сеидов С.И. Психология менеджмента. Баку: 2000, 228 с.
20. Хрестоматия по политической психологии /Под ред. Д.Я.Райгородский. Т.1. Самара: Бах -Рах, 1999, 608 с.
21. Фрейд З. Психология масс и анализ человеческого "Я". М.:Академический проект, 2014, 120 с.
22. Эриксон Э. Детство и общество. М.: Мысль, 1996, 410 с.
23. Эстетическая теория. Критика психоаналитической теории искусства. М.: Республика, 2001, 510 с.
24. Фромм Э. Бегство от свободы: человек для себя. Минск: Попури, 1998, 672 с.
25. Шестопал Е.Б. Личность и политика. М.: Мысль, 1988, 183 с.

# IV FƏSİL
# SİYASİ LİDERLİK
## 4.1. Siyasi liderliyin psixoloji xüsusiyyətləri

Dünya miqyasında baş verən sosial-siyasi proseslərin mürəkkəbliyi və gərginliyi, dövlətlərarası və regionlararası münaqişələrin coğrafiyası nəzərə alınarsa, siyasi liderlərin istər dövlət daxilində, istərsə də dövlətlərarası münasibətlərdə mühüm rol oynadığının, bəzi hallarda isə bütöv xalqların taleyi üçün müəyyənləşdirici amil olduğunun şahidi olarıq.

Siyasi lider problemi bütövlükdə sosial münasibətlərin bütün səviyyələrində daha geniş problem olan liderliyin tərkib hissəsidir. Siyasi liderlik problemi müasir sosial psixologiyada fundamental məsələlərdən biri kimi qəbul olunur. Siyasi lider elə bir şəxsiyyətdir ki, o, sosial hərəkata, bu və ya digər partiyaya, birliyə və s. başçılıq etmək məsuliyyətini öz üzərinə götürür. Hal-hazırda cəmiyyət siyasi liderdən qurucu və yaradıcı potensial, fərdilik tələb edir.

Siyasi lider cəmiyyətin, qrupun, təşkilatın elə bir növüdür ki, şəxsi nüfuzu ona siyasi proseslərdə mühüm rol oynamağa imkan yaradır. Siyasi liderlərə böyük sosial qrupların maraqlarına cavab verən aydın siyasi proqramın olması, iti və çevik zəka, güclü iradə, siyasi intizam, hazırcavablıq, ekstremal vəziyyətlərdə özünü itirməmək, soyuqqanlılıq, özünəgüvənmə, gələcəyi qurmağa yönəlmiş zaman hissi, qarşıda qoyilan məqsədlərə nail olmaq üçün təşəbbüs, taktika və strategiyanın seçilməsində onların siyasi fəaliyyətini müsbət şəkildə korrelyasiya edən ünsiyyət istedadı və çalışqanlıq, təşkilatçılıq, natiqlik qabiliyyəti, çeviklik kimi keyfiyyətlər xasdır.

Tədqiqatçılar siyasi liderin 40-dan çox şəxsiyyət keyfiyyətlərini qruplaşdırmışdır. Öz növbəsində bu 40 element 6 şkala üzrə təsnif edilmişdir:



1. Fiziki göstəricilər (yaş və enerji);
2. Sosial göstəricilər;
3. İntellektuallıq;
4. Şəxsiyyət keyfiyyətləri;
5. Sosial xüsusiyyətlər;
6. İnzibati qabiliyyətlər [13].

Bu tədqiqatlarda şəxsiyyət komponentləri siyasi liderliklə əlaqələndirilir. Ancaq bir cəhəti qeyd etmək istərdik ki, bu cəhətlərdən hansının liderlikdə dominantlıq kəsb etməsi göstərilmir.

Bəzi tədqiqatlarda bir sıra keyfiyyətlər: ağıl, özünümüşahidə, özünəinam, nəticəyə cəhd, ünsiyyətcillik və enerjililik siyasi liderin şəxsiyyəti ilə pozitiv suratdə korrelyasiya olunur.

Ayrı-ayrı tədqiqatlar isə daha çox ekstrovertliyi, tərbiyəliliyi, populyarlığı, xarici və daxili aləmin mütənasibliyini siyasi liderə məxsus keyfiyyətlər kimi təqdim edir. Siyasi liderlik insan şəxsiyyətinin müxtəlif aspektləri ilə bağlıdır. Təbii ki, insanlar içərisindən daha çox enerjili, ağıllı, öz məqsədlərinə nail olmağa çalışan, öz məqsədi uğrunda səylərini cəmləşdirən, başqaları ilə ünsiyyət qurmağı bacaran insanlar liderə və ya siyasi liderə çevrilirlər.

Sokratın fikrincə, sülh dövrünə nisbətən həlledici anda enerjili liderə daha çox simpatiya yaranır, çünki, belə bir anda ondan aktiv hərəkətlər tələb olunur. O adamlar lider ola bilərlər ki, onlar sosial qarşılıqlı əlaqələr sistemini yaxın məqsədə tabe etdirmək qabiliyyətinə malik olsunlar [17].

Tarixi şəxsiyyətlərin fəaliyyətinin, davranış manerasının təhlili göstərir ki, cəmiyyətdə siyasi liderin rolu çox böyükdür. Təhlillər göstərir ki, siyasi liderlər öz ünsiyyətcilliyi, natiqliyi, qətiyyətliliyi, çevikliyi ilə milyonlarla insanın rəğbətini qazanmışlar. Bu misallar Heydər Əliyevə, Atatürkə, Çörçilə, Şarl de Qolla, Ruzveltə, Kennediyə və başqalarına da aiddir.

Hakimiyyət və idarəçilik olan yerdə liderlik də mövcuddur. Siyasi liderlə yanaşı, biznes sahəsində, ailədə, tələbə qrupunda və digər sahələrdə də liderlər mövcuddur.

Liderlik vəzifə deyil, həyat tərzidir və insanların həyatının hər bir aspektinə aid olan prosesdir. Yəni, insanları adi halda etməyəcəkləri işləri görməyə həvəsləndirmək və nüfuz etmək sənəti və elmidir. Əsasən liderlik ağalıq etmə, əmretmə deyil. Çünki, ən yaxşı liderlər öz adamlarını aşağı hiss etməyə qoymurlar və əllərindən gələni edirlər ki, öz ətrafındakılarının liderlik bacarıqları inkişaf etdirilsin. Ümumiyyətlə, öz komanda üzvlərinə yaxşı işləmək və məqsədlərə nail olmaq üçün nüfuz edirlər.

Liderlik bir sosial hadisə kimi mürəkkəb təşkil olunmuş sistemlərin müəyyən obyektiv tələbatlarına əsaslanır və onun mövqelərini dəqiqliklə seçib ayırması sistemi təşkil edən toplumun tipindən asılıdır. Müasir elmdə siyasi liderliyin müəyyən edilməsində bir neçə üsul mövcuddur. Onlardan biri öz diqqətini başqa insanlara təsir göstərmək aspektində cəmləşdirir. Lakin heç də hər hansı təsir liderliyi təmin etmir. Bunun üçün üç əsas xüsusiyyətə xas olmaq lazımdır. Birincisi, təsir daimi olmalıdır. Siyasi proseslərə birdəfəlik təsir göstərən insanı siyasi liderlərə aid etmək olmaz. İkincisi, liderin rəhbərlik təsiri bütövlükdə cəmiyyətə sirayət edilməlidir. Üçüncüsü, liderin nüfuzu xüsusi olaraq fərqlənməlidir. Lider və onun ardıcılları arasındakı üzvlərinə təsirində bir istiqamətlilik olmalıdır.Digər üsul liderlikdə idarəçilik statusunu vurğulayır. İdarəçilik rollarının yerinə yetirilməsi cari sistemdə mövqelərin tutulması insana lider statusu verir. Başqa sözlə, liderlik bu mövqeyi tutmuş şəxsin, cəmiyyətin bir qisim yaxud bütün ümidlərinin kollektiv davranışlarını təşkil etmək, istiqamətlənmiş qabiliyyətinə malik olan insanın toplumdakı yeri deməkdir. Siyasi lider sadəcə olaraq siyasi proseslərə rəhbərlik edən cəmiyyətin idarə olunması funksiyalarını həyata keçirən siyasi təşkilatları və hərəkatları öz ar-



dınca aparan şəxs deyil. O, hər şeydən əvvəl hadisələrin gedişini dəyişdirməyə siyasi prosesləri istiqamətləndirməyə qadir olan adamdır. Heç də təsadüfi deyil ki, hər bir baş nazir, parlamentin spikeri siyasi lider hesab olunur. Siyasi liderlər cəmiyyətdə siyasi prosesləri fəallaşdırmaya nail olurlar.

Ümumiyyətlə, əla liderlərin səkkiz xösusiyyətini göstərmək olar:

1. Onlar yüksək optimistli realistlərdir. Ümidsizlik əla liderlərin həyatında yer tutmur. Bitməyən optimizmi saxlayaraq onlar məqsədləri qarşısında duran maneələri və reallığı dərk edirlər. Yorulmadan onları dəyişməyə və məğlub etməyə çalışırlar.

2. Əla liderlər davamlı həyat boyunca öyrənən şəxslərdir. Yəni hər bir zaman nə isə yeni bir şey oxuyub, mütəmadi olaraq yeni bir şeylər, bacarıqlar mənimsəmək üçün çalışırlar. Davamlı olaraq özlərini narahat etməkdən çəkinməyib yeni təcrübələr, biliklər toplamağa çalışırlar. Çünki nə qədər öyrənirsənsə, bir o qədər anlayırsan ki, nə qədər az bilirsən.

3. Özünə inamlı və çox az zəiflikləri olan şəxslər lider ola bilər. Sözsüz ki, heç kəs özünə inamı olmayan şəxsi arxasınca aparmaq istəməz. Özünə əmin, lakin öz şəxsi zəifliklərini dərk etməyən lider çox dağıdıcı qüvvədir. Lider öz çatışmazlıqlarını daim axtarıb onların güclü cəhətlərinə çevirməyənədək öz üzərində işləyirlər.

4. Əla liderlər digər insanlara inanırlar və öz ətrafında olan insanların bacarıq, bilik təcrübələrini artırmağa çalışırlar. Onlar ətrafında olan insanların rifahına qayğı ilə yanaşır, şəxsi inkişaf üçün şərait yaradır və anlayırlar ki, potensial və davranış tam fərqli xüsusiyyətlərdir və digərlərin görünməyən potensialını inkişaf etməyə diqqət yetirirlər. Ən əsası əla liderlər təşkilatın davamlı uğurunun yalnız özlərində deyil, cəlb etdiyi insanlarda görür və onların uğurlarına sevinirlər.

5. Onlar həyatlarına missiya кimi baxırlar. Əla liderlər həyata və işə кaryera кimi yox, missiya кimi yanaşırlar. Bu yüкsəк səviyyədən daxili xaraкterə çevrilmiş dünya baxışı və motivasiyadır. Bunun кöкündə özündə öncə digərlərə xidmət hissi istədiyi insanlara bu xidməti düzgün və müкəmməl çatdırmaq istəyi durur. Höкümət işində olarкən əla liderlər heç vaxt varlanmağı gözləmirlər. Bəlкə onlar şəxsi zənginləşmə haqqında höкümət işindən öncə və sonra düşünürlər və amma höкümət işində olarкən isə heç vaxt düşünmürlər.

6. Səmimiliкdir. Çünкi, səmimiliyin olmaması ideyaların və adaptasiyanın qarşısını alır və işin sürətini zəiflədir.

7. Gələcəyə hədəflənən şəxslərdir. Onlar hal-hazırda mövcud olmayan və кeçmişdə də yaşanmayan şeylərin gələcəкdə baş verə biləcəyini görürlər və daha bir vacib məqam odur кi, onlar bu gələcəyə necə çatacaqlarını görürlər. Bu proses hər bir insanda inкişaf etdirilə bilər. Əgər biz öz кaryeramız və onu necə inкişaf etdirməк barədə düşünə biliriкsə, onda bir təşкilat barədə də gələcəyə baxış yarada bilə və bir çox gənclərə xeyir verə biləriк.

8. Saatsazlar. Əla liderlər öz-özünə çalışan bilən bir təşкilati mexanizm qurmağa çox böyüк önəm verirlər. Onlar təşкilatı qurmağa və ya yenidən qurmağa başlayanda ilк öncə özlərinin təsəvvür etdiкləri son nəticəni gözləri önünə gətirərəк təşкilatın dəyərləri və missiyasını müəyyən edirlər. Liderliк, dürüstlüк, yaradıcılıq və əzmкarlıq ən yaxşı təşкilatda tapılan tipiк xüsusiyyətlərdir.

Beləliкlə, liderin fəaliyyətinin universallığı bununla şərtlənir кi, adamların, qrupların, təşкilatların və hərəкatların fəaliyyətinin bütün üzvləri liderə ehtiyac duyur. Yəni ictimai həyatın müxtəlif sferalarını lidersiz təsəvvür etməк qeyri-mümкündür. Çünкi, lider başqalarından öz idarəetmə fəaliyyətinə görə fərqlənir və кolleкtiv qrupu öz ardınca aparıb onları daha da qabiliyyətləndirir və nəhayət öz üstün кeyfiyyətlərinin onlarda da mövcud olmasına səy göstərir.

Ümumiyyətlə, 1940-cı ildə tədqiqatçılar liderliк xüsusiyyətlərinin 79 кeyfiyyətinin siyahısını tutmağa müvəffəq olmuşdular: ağıllı, möhкəm iradəli, məsuliyyətli, gələcəyi görmə qabiliyyəti və s. Siyasətdə isə fəaliyyətinin xaraкterinə görə 3 səviyyəli liderləri bir-birindən ayırırlar:

1. Kiçiк qrup insanların lideri. Bu təqdirdə lider işgüzar, intelleкtual lider кimi dəyərləndirilir.

2. İctimai hərəкatın lideri. Bu cür səviyyəli lider dəstəкləyən qrupun ona etimad göstərməsi sayəsində təsir göstərir.

3. Haкimiyyət münasibətləri sistemində fəaliyyət göstərən siyasətçidir. Bu halda siyasi liderliк sosial təsisat кimi çıxış edir.

### 4.2. Liderlik haqqında nəzəriyyələr

'Siyasi psixologiyada ən fundamental problemlərdən biri də liderlik problemidir. Problemin öyrənilməsinə keçən əsrin 30-cu illərindən başlanmışdır. İlk dəfə olaraq Amerikanın müxtəlif universitetlərində aparılan tədqiqatlar liderlik haqqında müxtəlif nəzəriyyələrin formalaşmasına təkan verdi. Ümumiyyətlə, siyasi liderliyi özündə ehtiva edən bir neçə nəzəriyyə mövcuddur. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Xassələr nəzəriyyəsi və ya liderliyin xarizmatik nəzəriyyəsi
2. Liderliyin situativ nəzəriyyəsi
3. Liderliyin şəxsi-situativ nəzəriyyəsi
4. Liderliyin sintetik nəzəriyyəsi
5. Liderliyin qarşılıqlı gözləmə nəzəriyyəsi
6. Liderliyin motivasiya nəzəriyyəsi

7. Liderliyin mübadilə və transistik təhlil nəzəriyyəsi

8. Liderliyin atributiv nəzəriyyəsi [14]

***Xassələr nəzəriyyəsi və ya liderliyin xarizmatik nəzəriyyəsi-*** Bu nəzəriyyəyə əsasən, insan anadan olan andan onu başqalarından fərqləndirən, cəmiyyətdə onun liderlik mövqeyini təmin edə biləcək xüsusiyyətlərə malik olur.

Bu nəzəriyyə öz kökünü F.Haltonun konsepsiyasından götürür və liderliyi irsi amillərlə izah etməyə çalışır. Bu istiqamət çərçivəsində millətlərin, hakimiyyət qüvvələrinin nümayəndələri tədqiq edilmiş, şahların nigah əlaqələri təhlil edilmişdir. Bu yanaşmanın əsas qayəsi ondan ibarət idi ki, əgər siyasi lider öz ardıcıllarından fərqli olaraq liderlik keyfiyyətlərinə malikdirsə (irsən keçmiş), bu keyfiyyətlər onun özünügerçəkləşdirməsinə zəmin yaradacaqdır. Xassələr nəzəriyyəsinə görə liderliyin siyasi-psixoloji keyfiyyətlərinin mühüm hissəsi mədəniyyətlə determinasiya edilir. Məsələn, qədim misirlilərə görə onların hökmdarları "qəlbdə anlama" keyfiyyətinə malik idi. Qədim yunanlara görə isə hökmdarların (siyasətçilərin) dörd əsas keyfiyyəti olmalı idi : ədalət, müdriklik, hiyləgərlik, cəsarətlilik.

Qəhrəmanlıq nəzəriyyəsinin nümayəndələri olan T.Karlayl, Y.Cenninqs və C.Daud isə qəhrəmanlığı irsən ötürülən və kütlələri cəlb edən keyfiyyətlərinə görə öyrənirdilər. "Qəhrəmanlar nəzəriyyəsi" əsasında yaranan "Xassələr nəzəriyyəsi" isə lider fəaliyyəti hansı xüsusiyyətlərə malik olmalıdır sualına cavab axtarır. Bu nəzəriyyənin tərəfdarları O.Ted, L.Bernard və V.Binxam olmuşdur. İlkin olaraq, bu sahədə axtarışlar "cizgilər nəzəriyyəsi" adlanan nəzəriyyədə öz əksini tapmışdır. Bəzən onu "xarizmatik" ("xarizma" –sözündəndir) nəzəriyyə də adlandırırlar.

Bu nəzəriyyəyə əsasən, lider və ya rəhbər o adam ola bilər ki, anadangəlmə şəxsi keyfiyyətlərin, psixoloji cizgilərin müəyyən məcmusuna malik olmuş olsun. Bu nəzəriyyənin tərəfdarları iddia edirlər ki, siyasət elm deyil, özünəməxsus məharətdir, sənətdir. Siyasətçi isə – bir növ artistdir, onun fəaliyyəti anadangəlmə talanta



əsaslanır.

Bu nəzəriyyəyə əsasən, müəyyən şəxsi keyfiyyətlərə malik olan insan daxil olduğu situasiyanın xarakterindən asılı olmayaraq yaxşı lider olacaq. Bu nəzəriyyənin mütləq təcəssümü ətrafdakıların tabe olduğu, inandığı xarizmatik lider anlayışıdır (yunan dilindən tərcümədə charizma-allah vergisi, nemətidir). Xarizma-siyasi rəhbərliyin aktiv enerji təzahürü və nümayişi ilə xarakterizə edilən əhəmiyyətli aspektlərdən biridir. Bu kütləvi emosiya və təsirlərə salınmış fiziki təzahür ola bilər. Yunqun fikrincə, öz şüursuzluğu ilə şüurlu əlaqə imkanı əldə edən və onun mahiyyətini dərk edən hər kəs qeyri-iradi şəkildə öz əhatəsinə təsir göstərir. O, eyni anda həm məftun edir, həm də ki, susdurur. Xarizmatik liderin rolu, xüsusən, tarixi dönüş mərhələlərindəki sosial qeyri-sabitlik dövründə artır. Xarizmatik lider bəzən öz mövcudluğu faktı ilə belə milləti birləşdirməyə, uğurlara inam yaratmağa qabildir. Bu zaman xalqda daha çox paternalist şüur formalaşır və bütün yaranan problemlərin həllini rəhbərin çiyinlərinə atır. Bu halla biz XX əsrin 90-cı illərinin əvvəllərində rastlaşmışıq. Məhv olma anında xalq öz lider-xilaskarını müəyyənləşdirdi və bütün ağırlığı onun çiyinləri üzərinə qoydu. Azərbaycan xalqının təkidli çağırışı ilə onun böyük oğlu Heydər Əliyev maddi resursların olmadığı, ərazilərin xeyli hissəsinin zəbt olunduğu və vətəndaş müharibəsi şəraitində yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtdı və nəinki xalqın bütün ümidlərini doğrultdu, hətta qeyri-mümkün olanları belə mümkünləşdirdi. Xarizmatik siyasi lider inam yaradır. Xarizmatik lider yeni münasibətlər sisteminin yaradıcısıdır[1]. Əhalinin "əzablardan qurtulması" ümidini məhz xarizmatik liderdə onu digərlərindən fərqləndirən məsuliyyət hissinin olması doğurur. Dahi siyasi lider fikirləşməyə və ləngiməyə vaxt olmadığı, vahid düzgün qərar qəbulunun zəruri olduğu ölümə bərabər anlarda məsuliyyəti öz üzərinə götürərək onu həyata tətbiq etməsi ilə fərqlənir.

Sonradan bu mövqenin əsasında "elita və kütlə" nəzəriyyəsi formalaşdı. Bu nəzəriyyəyə əsasən, istənilən cəmiyyətin həyatını

mütləq şərt kimi iki təbəqəyə - "elitaya" (üzvlərinin başlıca təyini idarəetmə olan, müəyyən üstünlüklərə malik idarəedici qrupa) və "kütləyə" (liderlərin ardınca kor-koranə gedən insanlara) bölünür.

Bu mövqe ilə razılaşmaq – siyasətçinin malik olmalı olduğu keyfiyyətlərin, səmərəli siyasətin qanunauyğunluqlarının öyrənilməsinin əhəmiyyətsizliyini qəbul etmək deməkdir. Lakin, təcrübə göstərir ki, bu baxımdan müəyyən qanunauyğunluqlar mövcuddur, yəni liderliyin tipik cizgiləri mövcuddur.

Daha sonra biheviroistlər belə bir müddəanı əsaslandırdılar ki, siyasi liderlik cizgilərinin heç də hamısı anadangəlmə deyildir, onlardan bəziləri təlimlənmənin və təcrübənin toplanmasının nəticəsi kimi əldə edilə bilər. O zamandan bəri, bu istiqamətdə, zəruri şəkildə liderlərə xas olmalı olan universal cizgilərin araşdırılmasına yönəlmiş. çoxsaylı tədqiqatlar həyata keçirilir. Bu sahədə ABŞ-da daha ciddi tədqiqatlar aparılmışdır.

Lakin tez bir zamanda aydın oldu ki, bu məsələ - demək olar ki, həlli qeyri-mümkün bir məsələdir. Belə ki. bir neçə fundamental keyfiyyətin araşdırılmasından başlanan bu tədqiqatlar sonda bu cür cizgilərin sayını iki yüzə çatdırdılar. Eyni zamanda, bu cizgilər çox "səpələnmiş" (xatırlanma və ümumi həcmdə faiz çəkisi baxımından) haldadırlar. Bundan əlavə, praktiki müşahidələr göstərir ki, bir çox hallarda, bu cizgilərə malik olmayan şəxslər liderliyin öhdəsindən müvəffəqiyyətlə gəlirlər. Əksinə, bu cizgilərin mövcud olması heç də həmişə insanı səmərəli liderə çevirmir. Nəticədə, bütün bünlar digər mövqelərin də meydana gəlməsini şərtləndirmiş oldu.

***Liderliyin situativ nəzəriyyəsi-*** Bu nəzəriyyəyə görə uyğun olaraq effektiv lider olmaq üçün "böyük insan" olmaq lazım deyil. Daha çox lazımi yerdə və lazımi vaxtda uyğun gələn insan olmaq lazımdır. Həm insanın şəxsiyyətini, həm də onun liderlik rolu oynamalı olduğu vəziyyətin xarakterini nəzərə almaq lazımdır.

Lider hər zaman və hər yerdə lider ola bilməz. Şəxsiyyət öz liderlik keyfiyyətlərini yalnız müvafiq situasiyada təzahür etdirə



bilər. Liderin fəaliyyətini situasiya ilə qarşılıqlı əlaqədə nəzərdən keçirən liderliyin situativ nəzəriyyəsi çox geniş yayılmışdır. Bu nəzəriyyədə əsas vurğu liderlik cizgilərinin öyrənilməsindən şəraitin və siyasi fəaliyyətin obyektinin öyrənilməsinə doğru yerdəyişməyə məruz qalır, yəni liderlik şəraitin tələbinə cavab kimi meydana çıxır. Burada şəxsiyyətin cizgilərinin, fəallığının əhəmiyyəti kiçildilir, həlledici üstünlük şəraitə verilir. Şəxsiyyətin cizgiləri ancaq "situativ" kəmiyyətlərdən biri kimi nəzərdən keçirilir. Bu cür digər kəmiyyətlər kimi təşkilatın strukturu və ölçüləri, yerinə yetirilən işin növü, təşkilatın üzvlərinin fərdi xüsusiyyətləri (konkret olaraq, gözləntiləri), qərarların qəbul edilməsi vaxtı, təşkilatın psixoloji mühiti və s. fərqləndirilir. Bütün çatışmazlıqlarına baxmayaraq, "situativ nəzəriyyə"nin proqressiv cəhəti, liderlik üçün təkcə şəxsiyyətin müəyyən cizgilərinin deyil, həm də digər amillərin əhəmiyyətinin qəbul edilməsidir. Bu konsepsiya daxilində iki nəzəriyyə yaranmışdır:

1.Siyasi fəallığın səmərəliyi onun üslubu və düşdüyü şəraitə nəzarətin səviyyəsi ilə müəyyən olunur (F.Fidler nəzəriyyəsi).

2.Siyasi liderin davranış tələbatının ödənilməsi və qrupun sıravi üzvlərinin məqsədlərinin əldə olunması üçün imkan yaradır (R.Xonsun məqsədyönlük nəzəriyyəsi). Bu nəzəriyyənin dörd üslubu var:

- direktiv liderlik (qrup üzvlərinin fəaliyyətinin müvəffəqiyyətlə yerinə yetirilməsi yəni, zəruri olan informasiya ilə təmin olunması)
- dəstəkləyici liderlik (qrup üzvlərinin tələb və ehtiyatlarının təmin olunmasında istifadə olunur)
- iştirakçı liderlik (qrupda qərarların qəbul edilməsində məsləhətləşmə və yoldaşlıq)
- yüksəldici lider (qrupun üzvlərinin yüksək məqsədlərə çatmaq meylinin dəstəklənməsi).

Liderliyin situasiya nəzəriyyəsinin əsas ideyası Fred Fidlerə məxsusdur. Bu nəzəriyyənin əsas ideyası ondan ibarətdir ki, lider-

liyin effektliyi bir tərəfdən liderin tapşırığa və ya münasibətlərə nə qədər istiqamətlənməsindən, digər tərəfdən liderin qrupa təsir dərəcəsindən və bu qrupa nəzarət etmək bacarığından asılıdır. Bu səbəbdən də liderin iki əsas tipini ayırd etmək olar. Birinci tip lider adətən tapşırıqlara, ikinci tip lider isə qarşılıqlı münasibətlərə istiqamətlənir. Birinci tip lider cəhd edir ki, iş lazım olduğu kimi edilsin, lakin bu zaman qrup üzvlərinin qarşılıqlı münasibətləri və hissləri arxa plana keçir. Belə lider sürətlə və operativ şəkildə qərar qəbul etməyə və qrup üzvlərinin hərəkətlərinə sərt şəkildə nəzarət etməyə qabildir. İkinci tip lider üçün qrupda emosional fon, müsbət hisslər və qarşılıqlı münasibətlər vacibdir. Beləliklə, birgə fəaliyyətin effektivliyi qrup üzvləri arasında qarşılıqlı münasibətlərin yaxşılaşdırılması yolu ilə təmin edilir.

Rəhbərin, siyasi liderin yanaşma tərzi eyni anda həm işə, həm də insana istiqamətlənə bilər. F.Fidler bildirirdi ki, bu iki tip liderdən heç biri digərindən effektiv deyil. Bu nəzəriyyənin əsas ideyası ondan ibarətdir ki, hər şey situasiyaya liderin hansı dərəcədə nəzarətindən və onun qrup üzvlərinə olan təsirindən asılıdır. "Yüksək" nəzarət situasiyasında liderin tabeliyində olanlarla şəxsiyyətlərarası münasibətləri normal olur, onun qrupdakı mövqeyi sözsüz olaraq nüfuzlu və üstün kimi qəbul edilir, qrupun yerinə yetirdiyi iş isə yaxşı strukturlaşdırılmış və dəqiq müəyyən edilmiş olur. "Aşağı" nəzarət situasiyasında isə əksinə, liderin tabeliyində olanlarla qarşılıqlı münasibətləri qeyri-normal olur, qrupun yerinə yetirməli olduğu iş isə dəqiq müəyyən olunmur. Tapşırığa meylli liderlər ya çox yüksək, ya da çox aşağı nəzarətin olduğu vəziyyətlərdə daha effektiv olurlar. Yüksək nəzarətin olduğu vəziyyətdə insanlar razı və xoşbəxtdirlər, hər şey normal axarda gedir və tabeçilikdə olanların hissləri və qarşılıqlı münasibətləri barədə narahatçılıq keçirməyə ehtiyac olmur. Bu, "rəhbərin əlində böyük bir dəyənəyin olduğu, amma hamının onun sevdiyi" bir vəziyyətdir.



Burada yalnız tapşırıqların yerinə yetirilməsinə diqqət yetirən lider ən yaxşı nəticələrə nail olur. Vəziyyətə nəzarətin çox aşağı olduğu zaman tapşırığa meylli liderə daha yaxşı vəziyyəti təşkil etmək müəssər olur. Öz səlahiyyətlərindən istifadə edərək o, əmrlər və intizam cəzalarının köməyi ilə qarışıq və qeyri-müəyyən iş şəraitinə bir düzən gətirə bilər. Bu birbaşa məcburiyyət halıdır: "Rəhbərin əlindəki böyük dəyənəyi heç kim sevmir, amma hamı ona tabe olur". Ancaq nəzərə almaq lazımdır ki, tapşırığa meyllilik və diktatorluq eyni məfhum deyildir. Orta nəzarət situasiyalarında qarşılıqlı münasibətlərə yönəlmiş liderlər daha effektiv hesab edilirlər. Hər bir lider spesifik xarakter cəhətlərinə, rəhbərlik metodlarına, kütləyə təsiretmə bacarığına, qarşıya qoyulmuş məqsədə çatma vasitələrinə və s. malikdir [7].

Liderliyin situativ nəzəriyyəsinin tərəfdarları hesab edirdilər ki, liderin meydana çıxması, məkan, zaman və şəraitdən asılıdır. Başqa cür deyilsə, müxtəlif konkret situasiyalarda qrup fəaliyyəti qrupun ayrıca üzvünü fərqli keyfiyyətlərinə görə irəli çıxarır, məhz o şəxs hansısa keyfiyyətlərinəgörə lider olur. E.Xartlı öz tədqiqatlarında bu nəzəriyyənin modifikasiyasını təklif etdi. O, hesab edirdi ki, birincisi, əgər insan bir situasiyada lider olarsa, aydındır ki, o digər situasiyalarda da lider olacaqdır; ikincisi, qrupun həmin şəxsi stereotip qaydalara uyğun qavraması onun lider kimi təsdiqinə gətirib çıxarır; üçüncüsü, müəyyən situasiyada insan liderə çevrildikdə, özünə avtoritet qazandırır ki, bu da onun sonrakı situasiyalarda da idarə edən olmasına zəmin yaradır; dördüncüsü, o adamlar ki, lider seçilirlər, onlarda bu mövqeyə çatmaq, nail olmaq motivasiyası güclü olur.

Təbii ki, birinciyə nisbətən ikinci nəzəriyyəni daha məqbul hesab etmək olar. Lakin bu nəzəriyyənin özündə də çatışmayan cəhətlər çoxdur. Bu baxımdan bir cox tədqiqatçılar yuxarıda qeyd edilən nəzəriyyələri birləşdirərək onların əsasında yeni bir nəzəriy-

yə yaratmağa çalışmışlar. Bu daha çox kompromis yanaşmanı xatırladır.

***Liderliyin şəxsi-situativ nəzəriyyəsi-*** Qərb psixoloqları Q.Hert və S.Miller lider fenomenini müəyyənləşdirərkən dörd elementi əsas götürməyi təklif etmişlər:

1) liderin insan kimi keyfiyyətləri və motivləri;

2) lider obrazı və ardıcılların yolunu davam etdirməsi motivi;

3) liderin rolunun səciyyəsi;

4)institusional kontekst və ya rəsmi və hüquqi parametrlərin mövcudluğu [14].

Burada liderlik fərdin ayrıca xarakteristikası kimi deyil, insanlar arasındakı münasibət kimi təqdim edilir. Daha dəqiq desək, cəmiyyətə münasibət və özünün fərqli keyfiyyətləri bu prosesdə əhəmiyyətli elementə çevrilir.

Məhz bu nöqteyi-nəzəri əsas kimi götürən B.Kettel liderliyə liderin məqsədi ilə onun davamçılarının məqsəd və tələbatları arasında dinamik qarşılıqlı təsir kimi yanaşmağı təklif etmişdir. Şübhəsiz ki, belə yanaşma liderliyi şəxsi seçimə və qrup məqsədinə çatmağa tabe etdirir.

Ümumiyyətlə götürdükdə, siyasi psixologiyada mövcud olan siyasi lider problemi müxtəlif istiqamətlərdə araşdırılsa da baza, təməl rolunu məhz şəxsi-situativ nəzəriyyə oynamışdır. Hər bir halda şərh etdiyimiz müxtəlif yanaşmalarda bu konsepsiyanın ayrı-ayrı elementləri sezilməkdədir.

***Liderliyin sintetik nəzəriyyəsi-*** Qərb siyasi psixologiyasında "liderliyin sintetik konsepsiyası" adlanan nəzəriyyə dominant mövqe tutur. Bu nəzəriyyəyə əsasən, siyasət– qrupda şəxsiyyətlərarası münasibətlərin formalaşması prosesidir, lider isə - bu prosesin idarə edilməsinin subyektidir. Bu cür yanaşmada liderlik qrupun fəaliyyətinin bir funksiyası kimi nəzərdən keçirilir, buna görə



də onun öyrənilməsi, hər şeydən əvvəl, qrupun məsqəd və vəzifələri baxımından daha zəruridir. Düzdür, eyni zamanda liderin şəxsiyyəti, onun keyfiyyətləri də nəzərdən qaçırılmır.

Bu nəzəriyyə bütövlükdə siyasət prosesinə kompleks yanaşma ilə səciyyələnir. Siyasi lider rolunun həyata keçirilməsinin xarakterinə, bir-birinə qarşılıqlı təsir edən üç kəmiyyət təsir edir: liderin keyfiyyətləri, onun ardıcıllarının keyfiyyətləri və liderliyin həyata keçirildiyi mühitin xarakteri.

***Liderliyin qarşılıqlı gözləmə nəzəriyyəsi-*** G.Xomans, D.Xemfil, R.Stoqdill, S.Evans, F.Fidler və başqaları tam fərqli şəkildə liderliyin qarşılıqlı gözləmə nəzəriyyəsini yaradaraq, siyasi liderin operasional modelini qurmağa çalışmışlar. "Liderliyin səmərəliliyinin ehtimali modelini" hazırlayan F.Fidler liderlik stilləri və stiuasiya dəyişmələrinin inteqrasiyasına əsaslanaraq göstərmişdir ki, liderlik effektliyi konkret situasiyalara əsaslanan qrupun xarakterindən asılıdır. Öz tədqiqatlarında o, əsas diqqəti liderin stili ilə situativ dəyişmələrin inteqrasiyasına yönəldir. Bu nəzəriyyənin əsas qayəsi ondan ibarətdir ki, qrupun effektivliyi konkret situasiyada liderlik stilindən asılı olaraq ehtimali xarakter daşıyır. F.Fidler liderin iki mümkün stilini ayırd edir: problemlərə yönəlmə və şəxsiyyətlərarası münasibətlərə bələdləşmə. Bununla yanaşı o, emosional və instrumental liderliyi də fərqləndirir.

Müəllifin fikrincə, liderliyin stili situativ dəyişikliklərə aşağıdakı kimi uyğun gəlir:

1) Güclü hakimiyyətə sahib olmaq üçün lider üçün əlverişli şəraitin olması.

2) Yalnız məqsədə nail olmaq üçün bir üsulun, vasitənin mövcudluğu liderə siyasi hadisələrə təsir etmək imkanı verir.

3) Tərəfdaşları ilə şəxsi münasibətlərin optimal olması lider üçün əlverişli şərait yaradır [15].

Liderlik üçün daha optimal və əlverişli situasiya, ardıcılları ilə yaxşı münasibət, liderin güclü mövqeyi yaranmış problemlərin

həllində mühüm rol oynayır. Bu şərtlərdən çıxış edən F.Fidler belə bir qənaətə gəlir ki, problemlərə yönəlmiş liderlik situasiya əlverişli olduqda və ya onun üçün əlverişsiz olduqda belə effektiv xarakter daşıyır. Bu nöqteyi-nəzəri təhlil edən D.Y.Rayqorodski qeyd edir ki, instrumental ustalığı, səriştəliliyi çətin ki, siyasi həyatda üstün mövqe kimi qiymətləndirmək mümkün olsun. Fikrini faktlarla sübut etməyə çalışan müəllif R.Niksonun 1960-cı ildə keçirdiyi seçki kompaniyasında məğlubiyyətinin əsas səbəbi diqqətini həddən ziyadə öz platformasına yönəltməsi və elektorat üçün öz imicinin lazımi səviyyədə qiymətləndirilməməsi ilə izah edirdi. 1968-ci il seçkilərində R.Nikson bu səhvi buraxmadı və seçkilərdə qalib gəldi.

Göründüyü kimi siyasi liderin ayrı-ayrı cəhətlərinin, eləcə də onun siyasi fəaliyyətinin və psixoloji keyfiyyətlərinin inteqrativ sintezinə həsr edilmiş tədqiqatlarda da siyasi liderin effektivliyini tam şəkildə sübut edən dəlillər çatışmır.

***Liderliyin motivasiya nəzəriyyəsi*** -bu nəzəriyyə də geniş populyarlıq qazanmışdır. Bu konsepsiya S.Mitçel və S.Evans tərəfindən yaradılmışdır. Mövcud konsepsiyaya görə liderin fəaliyyətinin effektivliyi onun ardıcıllarının motivasiyası ilə qarşılıqlı təsirindən qaynaqlanır. Verilən tapşırıqların produktiv şəkildə yerinə yetirilməsindən və iş prosesində ardıcıllarının reallıqdan çox asılı olması faktı bu nəzəriyyəni populyarlaşdırır. Bir qisim siyasətçilər üçün hakimiyyət məqsəddir, digərləri üçün vasitədir və tələbatların predmeti qismində çıxış edir. Lakin bu və ya digər halda siyasətçi hakimiyyət uğrunda mübarizəyə daxil ola bilər və bu mübarizə nə qədər kəskin və gərgindirsə, bir o qədər də şans çoxdur ki, mübarizəyə bu növ qatılma və onun stimullaşdırıcı məqsədi – qalib gəlmək məqsədi bütün digər motivləri yığaraq ən nəhayət onları dəyişdirərək siyasətçinin fəaliyyətində dominant motivə çevriləcək. Ən dərin psixoloji motivasiya müstəqil qurulmuş, müxtəlif şəkilli,



emosional tutumlu sosial münasibətlər və ünsiyyətdə şəxsiyyətin özünüreallaşdırması tələbatıdır.

Aparılmış tədqiqatların təhlili göstərir ki, ətraf aləm amili liderin tərəfdarlarının motivasiyasına təsirindən asılı olaraq üç funksiyanı yerinə yetirir:

1.Qarşıya qoyulmuş məqsədin yerinə yetirilməsi prosesində tərəfdarların motivasiya funksiyası.

2. Davranışın sistemləşdirilməsi funksiyası.

3.Həll edilmiş məsələnin, nail olunmuş məqsədin mükafatlandırılması funksiyası.

Bu nəzəriyyəni təhlil edərkən belə qənaətə gəlmək olar ki, burada liderin fəaliyyətinin effektivliyi, həm də müxtəlif situasiyalarda bunu necə qiymətləndirməsindən asılıdır. Doğrudan da bir sıra tarixi hadisələr bu modelin işlək mexanizm olduğunu sübut edir.

***Liderliyin mübadilə və transistik təhlil yanaşması***-Siyasi liderlik məsələsinin şərhində nəzərə çarpan və diqqət mərkəzinə gətirilən nəzəriyyələrdən biri də mübadilə nəzəriyyəsidir. Bu nəzəriyyənin yaradıcılarından hesab olunan J.Xomans, J.Marc, Q.Saymon, J.Tibo, F.Kelli, K.Çerçen və başqaları liderə öz elektoratının tələbatlarını hiss edən, onların arzularını reallaşdıra bilən şəxs kimi yanaşırlar. Daha doğrusu, onlar liderlikdə məhz bu cəhətləri əsas götürürlər. Bu nəzəriyyəyə görə başlıca məsələ lider və onun tərəfdarlarının qarşılıqlı təsiri məsələsidir.Məsələn, əksər tədqiqatçıların fikrincə, bir sıra siyasətçilərdən irəlidə olan F.Ruzvelt elə bir lider olmuşdur ki, o, kütləni narahat edən problemləri həll etmək iqtidarında olduğu üçün onun xalq arasında etimadı yüksək olmuşdur. Franklin Ruzvelt xalqın tərbiyə olunmasını dövlət adamının ən ali vəzifəsi hesab edirdi.

Təbii ki, bu nəzəriyyə siyasi liderliyə həsr olunmuş nəzəriyyələrdən daha çox fərqlənir. Çünki, burada siyasi liderin xalqın tə-

ləbatları və arzuları uğrunda çalışması, vuruşması, mübarizə aparması ön plana çəkilir.

***Liderliyin atributiv nəzəriyyəsi-*** Liderlik haqqında təsəvvürlərin daha bir qrupunu atributiv nəzəriyyələr təşkil edir. Bu qrup konsepsiyaların əsas ideyası belədir: qrupda liderliyə, qrup üzvlərinin əksəriyyətinin fikrinə müvafiq adamın təqdim olunması əsasdır. Yəni, lider elə keyfiyyətlərə malik olmalıdır ki, o keyfiyyətlər qrupun bütün üzvlərini təmin etmiş olsun.

***Liderliyin funksiyaları-*** Tədqiqatçı alim U.N.Yemelyanov öz tədqiqatlarında liderin müxtəlif funksiyalarını ayırd edir. Bu funksiyalar həm də siyasi liderə şamil edilə bilər. Onlar aşağıdakılardır:

1. Lider inzibatçı kimi;
2. Lider planlaşdırıcı kimi;
3. Lider siyasətçi kimi;
4. Lider ekspert kimi;
5. Lider qrupun xarici əlaqələrinin nümayəndəsi kimi;
6. Lider mükafatlandırılma və cəzalandırılmanın mənbəyi kimi;
7. Lider qrupun simvolu kimi;
8. Lider fərdi mülkiyyətdən uzaqlaşan faktor kimi;
9. Lider dünyagörüşün göstəricisi kimi;
10. Lider "ata" kimi [18].

Bütün bu funksiyalar içərisində liderin dünyagörüşünün göstəricisi kimi onun funksiyası bizim üçün önəmlidir. Liderin ən mühüm funksiyalarından biri də qrupun davranış xəttinin və məqsədinin qurulması və istiqamətlənməsi ilə bağlıdır.

***Liderlik üslubları-*** Liderin öz funksiyalarını yerinə yetirməsinin fərqləndirici xüsusiyyətlərinin davamlı olaraq yaradılması kimi liderlik üslubu liderin davranışının özünəməxsusluğunu, ətrafdakılar və kütlə ilə qarşılıqlı əlaqə xarakterini, dəyərlər orientasiyasını, mədəniyyət səviyyəsini və bir çox digər faktorları müəyyən edir. Siyasət müəyyən tipləşdirməyə məruz qalan liderlik üslublarının çoxluğu ilə formalaşır.



Liderlik üslubuna bu və ya digər psixoloji xüsusiyyətlərin üstünlüyü kimi baxsaq, o zaman əsaslar kimi aşağıdakı tipləri göstərmək lazımdır:

- Paranoyidal üslub ( lider-ağa: I Pyotr, İ.V.Stalin)
- Demonstrativ üslub (lider-artist: V.V.Jirinovski )
- Depressiv üslub (lider-silahdaş: çar Fyodor İvanoviç, L.İ.Brejnev )
- Şizoid üslub (lider-tənha: I Pavel )

Siyasətçinin ətrafı ilə münasibətinin xarakterindən asılı olaraq bu üslubları fərqləndirirlər:

- Avtoritar üslub (bir şəxsin güc tətbiq etmək, cəzalandırma təhdidlərinə əsaslanan istiqamətverici təsirini nəzərdə tutur );
- Demokratik üslub (bu halda lider üçün ətrafdakıların maraqlarını və fikirlərini nəzərə almaq, onları idarəetməyə cəlb etmək səciyyəvidir.)

## 4.3. Siyasi liderin psixoloji portreti

Siyasi liderliyin psixologiyasının tədqiqi məsələsi ən qədim və eyni zamanda müasir tədqiqat sahəsidir. Tarixdə mühüm iz qoyan, siyasi transformasiyaların səbəbkarı olan, proqressiv dəyişikliklər yaradan şəxsiyyətlər həmişə böyük maraq doğurub. Siyasi liderliyin öyrənilməsində onun motivlərinin aşılanması, mənəvi və intellektual aspektlərinin, mənəvi dəyərlərinin və ən əsas strategiyasının öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Tarixdə şəxsiyyətin rolundan danışarkən iki cəhəti nəzərə almaq lazımdır. Birincisi, şərait və onun tələbini. ikincisi, şəxsiyyəti və onun şəxsi key-

fiyyətlərini. Qeyd etmək lazımdır ki, tarixi şəxsiyyətlərə qiymət verərkən onların öz dövrünün imkanları ilə müqayisədə nələr edə bilmələri bir prinsip kimi əsas götürülməlidir. Məlumdur ki, siyasi liderin psixoloji portretinin yaradılması və onun bütün siyasi liderlərə şamil edilməsi yönümündə aparılmış tədqiqatlar olduqca çoxdur. Ancaq siyasi liderin ümumi sosial-psixoloji səciyyəsini verən, onların davranışında təzahür edən qeyri-adiliyin mexanizmini açan, onun səbəb və qanunauyğunluqlarını göstərən konsepsiyalar hələ də yaradılmamışdır. Bu onunla bağlıdır ki, siyasi liderin psixoloji portretinin yaradılması iki elmin inteqrasiyasında yaranan elementlərin birləşdirilməsini tələb edir, şəxsiyyətin siyasi səriştəsinin psixoloji keyfiyyətlərə uyğunluğunun konseptual mexanizmini yaratmağı zəruri edir. Digər tərəfdən hər bir siyasi liderin yaşadığı zaman və məkan, siyasi şərait, milli stereotiplər, adət-ənənələr amal və məqsəd onun formalaşmasına təsir göstərir ki, bu da bir elmin hüdudlarından kənara çıxır. Bu o deməkdir ki, hər bir siyasi lider öz zəmanəsinin və xalqının milli cəhətlərinin, ümumi dünyagörüşünün, mənəvi sərvətlərinin daşıyıcısı olur. Bununla yanaşı hər bir siyasi və etnik cəmiyyətdə siyasi liderin şəxsiyyət xüsusiyyətləri və psixoloji keyfiyyətləri digər cəmiyyətə köçürülə bilməz. Ayrıca götürülmüş faktlar da bunu təsdiqləyir. Elə tarixi şəxsiyyətlər vardır ki, onların siyasi fəaliyyəti və psixoloji xarakteristikası yalnız milli, konkret şovinist şəraitlə bağlıdır və nəticə etibarilə onların fəaliyyəti müəyyən zaman və məkanla məhdudlaşır, eyni zamanda onların fəaliyyəti tənqid obyektinə çevrilir, unudulur və nəhayət xalqın gözündən düşürlər. Onlar ümummilli liderə çevrilə bilmirlər. Həmçinin siyasi liderlərin fəaliyyətində, siyasi iradəsində elə fenomenal məqamlar özünü göstərir ki, onların fəaliyyəti və siyasi təfəkkürü ayrı-ayrı xalqlar, siyasi liderlər üçün əsas olur, nümunəyə çevrilirlər. Bu baxımdan ümummilli lider Heydər Əliyev öz psixoloji keyfiyyətləri və siyasi təfəkkürü ilə siyasi liderlər ara-



sında müstəsna bir yer tutur. İlk növbədə ona görə ki, onun psixoloji keyfiyyətlərini onun siyasi fəaliyyəti tamamlayır, fəaliyyətinin nəticələri ümumbəşəri əhəmiyyət kəsb edir. M.Veberin sözləri ilə desək, o, xarizmatik tipli liderlərdəndir. Siyasi liderin psixoloji keyfiyyətlərini qiymətləndirərkən və onun psixoloji portretini yaratmağa cəhd göstərərkən hər bir halda, onun siyasi fəaliyyətini, həmin fəaliyyətin nəticələrini təhlil etmək gərəkdir. Məhz siyasi davranış, fəaliyyətin məqsədə müvafiqliyi, müxtəlif situasiyalarda özünü göstərən qərar qəbulu bizə siyasi liderin psixoloji portretini yaratmağa imkan verir.

Məlumdur ki, siyasi liderin psixoloji portretini yaradarkən, onun şəxsiyyət keyfiyyətlərini ön plana çəkmək zəruridir. Xüsusən də şəxsiyyətin özünə münasibəti, öz "Mən" ini dərk etməsi, özünün milli identifikasiyası, özünüqiymətləndirməsi çox vacib cəhətlərdən biridir. Siyasi liderin şəxsiyyəti tam dərk edilməyən müxtəlif elementlərin qarşılıqlı vəhdətindən yaranan struktur elementlərdən təşkil olunmuşdur. Hər bir halda siyasi liderin adekvat özünüqiymətləndirməyə malik olması onun mühüm inteqrativ keyfiyyətlərindən biridir. Adekvat özünüqiymətləndirməyə malik siyasi liderlər siyasi arenada öz rəqiblərinə gözəl nümunə olur, öz davranışları ilə onlarda siyasi liderin necə olması qənaətini yaradır. Onların daxili və xarici siyasəti özünüdərketdirməyə motivasiya olunmayıb, ümummilli dəyərlərin, xalqının milli mənliyinin gerçəkləşdirilməsinə yönəldilmişdir. Özünün siyasi fəaliyyətini adekvat qiymətləndirən siyasi lider digər liderlərə hörmətlə yanaşır və başqalarının da onu yüksək qiymətləndirməsinə şərait yaradır.

L.Y.Qozman və E.B.Şestopal öz tədqiqatlarında belə qeyd edirlər ki, siyasi liderin özünüqiymətləndirməsində nevrotik elementlərin olmaması belə, onun siyasəti davam etdirməsinə səbəb olur [16].Qeyd etmək lazımdır ki, özünüqiymətləndirmədə nevrotik simptomlarının mövcudluğu ümumi planda siyasi liderlərin

özünüreallaşdırmasına gətirib çıxarır. 1990-1993-cü illərdə bu fenomenin təzahürünün şahidi olduq. Milli mənafelərini deyil, öz şəxsi mənafelərini üstün tutan dövlət başçılarının Azərbaycan xalqına gətirdikləri müsibətlər təbii ki, heç kəsin yadından çıxmayıb.

Müasir siyasi lider hər şeydən əvvəl, təşkilatçılıq qabiliyyəti ilə üzvi surətdə birləşən təbii intuisiyanın qeyri-adiliyidir. Komandanı formalaşdırmaq, onu möhkəmləndirmək, məqsədləri müəyyən etmək, cəmiyyət qarşısında zəruri vəzifələr qoymaq, cəmiyyəti bir ləşdirən proqramı yaratmaq bacarığı – siyasətçi qarşısında qoyulan müasir tələblər bunlardır [6]. Siyasi liderin psixoloji portretinin yaradılmasında onun məsuliyyət hissinin hansı səviyyədə inkişaf etməsinə, insanları inandırmaq bacarıqlarına da xüsusi diqqət yetirmək lazımdır. Siyasi liderlərin psixoloji xüsusiyyətlərini öyrənmək üçün əksər tədqiqatçılar bioqrafik metoddan istifadə edirlər.

Siyasi lider şəxsiyyətində formalaşmış əxlaqi cəhətləri üç istiqamətdə nəzərdən keçirmək olar:

1. Əxlaq normaları: cəmiyyət tərəfindən kənarlaşdırılmaq – fərdi tələblər verilməsi kimi, fərdin ictimailiyinə müraciət edilməsi, onun davranışının tənzim edilməsi kimi;

2. Əxlaqi mənlik şüuru: fərdin ictimai tələblərinə daxili münasibəti, bu tələbləri dərk edib qiymətləndirməsi, onları öz niyyətləri ilə tutuşdurması kimi;

3. Əxlaqi hərəkət, əməl: öz niyyət və məqsədlərinin ictimai formalara uyğun və ya onların ziddinə olaraq öz davranışlarında, hərəkətlərində həyata keçirilməsi kimi.

Siyasi liderin şəxsiyyətinin psixoloji çalarlarını ayırd etmək üçün və onu digər keyfiyyətlərlə differensiasiya etmək üçün bilavasitə ən vacib olan bir suala cavab axtarmaq lazımdır. Görəsən insanın siyasəti fəaliyyət növü kimi seçməsini nə motivləşdirir? Onu hansı qüvvələr hakimiyyətə gəlməyə təhrik edir? Tarixən formalaşmış, özümüzdən sonra mənfi və ya müsbət irs qoyub getmiş siyasi şəxsiyyətləri təhlil edərkən bir neçə məqamı fərqləndirmək mümkündür. Bu məqamlardan birinci təhrikedici amil kimi natamamlıq kompleksi qeyd oluna bilər. Ayrı-ayrı tarixi şəxsiyyətlərin, o cümlədən Hitlerin, Stalinin şəxsiyyətində, onların fəaliyyətində, törətdikləri qeyri-bəşəri əməllərdə bu, özünü aydın şəkildə biruzə verir. Ancaq bu, birinci və ya sonuncu motiv deyildir.



İkinci təhrikedici amil şöhrətpərəstlik xəstəliyi, cəmiyyətə özünü nümayiş etdirmək cəhdi və s. ola bilər. Bir sıra tarixi və siyasi xadimlərin fəaliyyətində və davranışında bu cəhət biruzə verir.

Üçüncü məqam, yəni üçüncü təhrikedici amil özünəinamı yüksəltmək, onu qeyri-adekvat səviyyədən çıxarmaq cəhdləri kimi təqdim edilə bilər. 90-cı illərin hadisələri zamanı ölkəmizdə olan siyasi liderlərin və dünyada bir sıra liderlərin fəaliyyəti buna misal ola bilər.

Dördüncü amil, pul, var-dövlət yığmaq hərisliyi və onun rəsmi şəkildə həyata keçirilməsidir. Bəzi liderlər hakimiyyətə gəldikdən sonra siyasi fəaliyyətlə məşğul olmaq əvəzinə, əksinə bundan istifadə edərək real var-dövlət yığmaq, öz varidatını artırmaqla məşğul olurlar.

Bütün qeyd etdiyimiz məqamlarda hakimiyyətə gələn siyasi liderlər və ya hakimiyyət nümayəndələri tarixdə "diktator", "korrupsion", "nasist" və s. kimi adlar iərarxiyasında özlərinə yer almışlar və təbii ki, onların siyasi fəaliyyəti ilə psixoloji keyfiyyətləri, əməlləri üst-üstə düşməmiş,çox az keçmiş tarixin və taleyin arxivinə verilmiş, unudulmuş, bir çox hallarda isə lənətlənmişdirlər. Siyasi-psixoloji baxımdan dövlət başçısının həddən ziyadə yaradıcı keyfiyyətlərə malik olması, kreativ davranışı onun qərar qəbul etməsinə mənfi təsir göstərir. Ancaq tarixi faktlar və siyasi hadisələrin təhlili göstərdi ki, ulu öndər Heydər Əliyevin yaradıcı

davranışı heç bir halda onun düzgün qərar qəbuluna mane olmamışdır. Hətta bəzi məqamlarda ulu öndəri tənqid edən siyasi opponentlər sonda onun nə qədər düzgün və xalq üçün vacib olan qərarların qəbul etdiyini etiraf etməyə məcbur olmuşdular.

Siyasi liderin psixoloji portretini yaratmaqda mühüm bir məqam da, çox vacib olan psixoloji cəhət – riskə meyllilik xüsusi qeyd olunmalıdır. Ehtiyatlılıq və risk etməyə meyillilik inteqrativ vəhdətdə özünü göstərməlidir. Bu, çox vacib keyfiyyətlər olmaqla yanaşı, siyasi liderin iradəsinin bariz göstəricisidir.

Siyasi liderin psixoloji portretini yaratmağa cəhd edərkən, onun intellektual keyfiyyətləri, o cümlədən işgüzarlığı və iş qabiliyyəti xüsusi təhlil olunmalıdır. Psixoloji tədqiqatlar göstərir ki, insanın nitq qabiliyyəti, onun təfəkkürü ilə sıx bağlıdır. Nitqin aydınlığı, məntiqiliyi, zənginliyi öz məziyyətləri ilə fenomenal təfəkkürün göstəricisidir. Bəzi dövlət xadimləri silah gücünə, xarici qüvvələrin himayədarlığı ilə hakimiyyətə gəldiyi və hətta bunların da hesabına hakimiyyətlərini qoruya bilmədikləri bir şəraitdə Heydər Əliyev sözlə milyonları öz ətrafında səfərbər etmiş, məntiqlə düşmənləri susdurmuş, böyük natiqlik istedadı ilə xalqı sıx birləşdirə bilmişdir. Çünki, söz Heydər Əliyevin ən böyük silahı idi.

Siyasi liderin psixoloji keyfiyyətləri yalnız onun davranış tərzində, siyasi iradəsində, mühakimə qabiliyyətində özünü göstərməyib. həm də dövlət quruculuğunda, dövləti idarəetmə mexanizmində. özünün taktika və strategiyasında da göstərir.

Burada mühüm məqama da diqqət yetirmək zəruridir. Belə ki. bu insanın şəxsi-psixoloji keyfiyyətləri pozitiv istiqamətdə formalaşa. onun intellektual qabiliyyətlərində. yaradıcılığında təzahür edə bilər. Lakin bütün bunlar insanın öz şəxsi ambisiyalarını qurmağa. özünügerçəkləşdirməyə. şan-şöhrətə. şəxsi mənafenin yük-



səldilməsinə xidmət edirsə, o , dahiyə çevrilə bilmir, orta və ya yüksək inkişaf etmiş intellektual şəxsiyyət kimi qalır.

Güclü iradəyə malik siyasi xadim isə niyyət və əməllərinin qətiliyi, siyasi mübarizə vasitələrinin seçimində yüksək müstəqilliyi ilə fərqlənir. O, qarşıya qoyulmuş məqsədə çatmaq üçün israrlı və əzmlidir. Əksinə, hətta geniş erudisiyalı və müxtəlif qabiliyyətlərə malik, lakin iradəsiz siyasətçi öz fəaliyyət sahəsində praktik olaraq az effektlidir. İnsan xüsusi, o cümlədən, son dərəcə tamahkar meyllərə əsaslanaraq güclü fərdi iradəyə malik ola bilər və siyasətdə özü üçün əhəmiyyətli qərarlar verə bilər. Lakin tarixi təcrübənin göstərdiyi kimi siyasətdə o insanlar daha çox təsir qüvvəsinə malik olublar ki, onların siyasi iradələri öz ictimai, siyasi, dini və ya digər missiyalarına fanatikcəsinə müvafiq olan ideyalarından doğub. Belə liderlərin əhaliyə təsir etməsinin başlıca amili rolunda onların öz həqiqətlərinə tərəddüd etmədən inanmaları çıxış edir. Bu isə onların ətrafında olanları, bu təntənəli sözlərin arxasında nə isə vacib, müqəddəs bir şeyin gizləndiyinə inanmağa məcbur edirdi. Siyasi liderin şəxsi keyfiyyətlərinin strukturu çox amillərlə, o cümlədən, yerinə yetirilən siyasi məsələlərin xarakteri ilə müvafiq olmalıdır. Siyasi portreti tərtib edərkən siyasətçinin başlanğıc keyfiyyətlərini fərqləndirmək lazımdır. Bu və ya digər xarakter cəhətinin hədsiz inkişafı onun aksentuasiyasına səbəb olur. Siyasətçinin xarakterində belə cəhətlərin olması onun şəxsiyyətinin özünəməxsusluğunu şərtləndirir və məhz bu ona ümumi fonda fərqlənməyə imkan verir.

## 4.4. Siyasi liderin müasir modeli

Müasir dövrdə siyasi liderin bütün tələblərə cavab verəcək modelinin yaradılmasına cəhdlər göstərilməsinə baxmayaraq, hələ də istər siyasi baxımdan, istərsə də psixoloji baxımdan zəruri olan keyfiyyətləri özündə əks etdirən siyasi liderin psixoloji modeli yaradılmamışdır. Bunun başlıca səbəblərindən biri hər bir siyasi liderin özünəməxsus psixoloji xüsusiyyətləri və idarəetmə keyfiyyətləri, müxtəlif milli-etnik şəraitdə məxsusi keyfiyyətlərin fərqli təzahürünün olmasıdır. Bəs görəsən siyasi liderin müasir modeli necə olmaldır? O, hansı meyarları özündə əks etdirməlidir? Bu suallara cavab vermək üçün hər şeydən öncə model anlayışının mahiyyətinə aydınlıq gətirməliyik.

Model real proses və ya hadisə haqqında təsəvvürlərin sadələşdirilmiş sistemidir. Model orijinal obyekt və hadisə ilə əvəzləmə zəminində onun zəruri əlamətlərinin qorunub saxlanmasına yönəlmiş idraki konstruksiyadır. Məhz modelin belə təyinindən çıxış edərək biz siyasi liderin müasir modelini yarada billərik. Amerika psixologiyasının aparıcı tədqiqatçılarından biri C.M.Berns siyasi liderin üç modelini fərqləndirir:

1. *"Medison"* modelidir. "Medison" modeli elitanın və sosial hərəkatin subyektləri arasında konsensus axtarışı prinsipi üzərində qurulmuş liderliyə əsaslanır. Bu modeldə prezident hakimiyyətini təmin edən əksəriyyətin-sabit elitanın formalaşdırılmasına cəhd göstərilmir. Bu model özünəməxsus çatışmazlıqlara malikdir və daha çox idarəetmə məhdudiyyətləri ilə xarakterikdir. Belə sistemdə prezident özünə bu və ya digər sosial azlığın maraqlarının daşıyıcısı kimi baxır və idarəetməni bilavasitə konstitusiya mexanizmi üzərində qurur.

2. *Cefferson modelidir*. "Medison" modelindən fərqli olaraq "Cefferson" modeli daha çox tərəfdarlar arasında geniş



koalisiya yaratmağa meylli, cəmiyyətə təsirli şəxslərin öz tərəfinə çəkilməsi və özünün komandasının yaradılmasına əsaslanan siyasi lider modelidir. Belə şəraitdə əsas tələb birləşdirici ritorika, actuallaşdırılmış vətənpərvərlik ideyaları və milli missiya çıxış edir. Bunun əksi isə prezident seçilməsinin ilk başlanğıcında şəxsiyyət imkanlarının itirilməsi, səlahiyyətlərin və hakimiyyətin cəmiyyətdə çəkisi olan şəxslərlə bölüşdürülməsi və s. təşkil edir. Bütün bunlar isə müxalifətlə mübarizədə ona təminatçı kimi köməklik göstərir.

3. *Hamilton modelidir*. "Hamilton" modeli bilavasitə şəxsiyyət amilinə əsaslanır. C.M.Berne onu "qəhrəmanlıq lideri" kimi müəyyən edir. Belə model idarəetmədə xarizmatik model kimi özünü göstərir. Məlumdur ki, belə lider modeli hər şeydən öncə özünün səlahiyyətlərindən intensiv istifadə edir və onun ətrafında onun komandası toplanır. Belə komanda bilavasitə icraçılardan formalaşdırılır.

Siyasi-psixoloji tədqiqatlardan məlumdur ki, siyasi lider fenomeni fərdi sosial hərəkət subyektlərinin müxtəlif sosial qruplarla qarşılıqlı təsirinin ierarxik prosesidir. M.Herman tərəfindən bu prosesin əsas komponentləri aşağıdakı kimi təsnif edilmşdir:

1. Liderin şəxsiyyəti;
2. Ardıcıllarının xarakteristikası;
3. Onların qarşılıqlı təsiri;
4. Konteks;
5. Bu təsirlər nəticəsində siyasi davranışın formalaşması.

Belə yanaşma liderlik prosesini mürəkkəb sistem kimi qiymətləndirməyə imkan verir ki, burada yalnız liderin fərdi-psixoloji xüsusiyyətləri deyil, həm də siyasi hərəkətin subyektləri səviyyəsi diqqət mərkəzinə gəlir. Belə sistemin mürəkkəbliyi və ziddiyyətliliyi onu konstitusiyanın formal çərçivəsi ilə məhdudlaşdırmağa imkan vermir.

Siyasi liderin və ya prezidentin özünün hakimiyyət səlahiyyətlərinin gerçəkləşdirməsinin praktikliyi iki qrup amillərin xarakterindən asılı olur:

1. Dispozisiya amilləri;

2. Situativ amillər.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, belə kontekstdə şəxsiyyət spesifik açar rolunu oynayır. Əsl həqiqətdə isə şəxsiyyət fərdi səciyyələndirən bir neçə əlamətin məcmusu kimi nəzərdən keçirilir. Münasibətlər sisteminə daxil olan fərd yeni keyfiyyətlər kəsb edərək şəxsiyyətə çevrilir. Amma belə bir nöqteyi- nəzər var ki, şəxsiyyət fərdin yeni keyfiyyət xarakteristikasıdır. Yəni o, yeni törəmə deyil, sadəcə fərdi xüsusiyyətlərin yeni situasiyaya uyğun keyfiyyət dəyişilməsidir. Belə olan şəkildə ümumi və sosial-psixoloji baxımdan şəxsiyyət sosial əhəmiyyətli yeni keyfiyyətlərin fərdin strukturuna daxil olmasıdırsa, mənimsənilməsidirsə, o zaman siyasi lider fərdin siyasi baxımdan əhəmiyyətli olan keyfiyyətlərin məcmusudur. Bu baxımdan siyasi liderin müasir modelini yaradarkən hər iki metodologiyanın əsas kimi götürülməsini məqsədəuyğun hesab edirik.

Qeyd olunan keyfiyyətlər özünü iki səviyyədə göstərir. Birinci səviyyə daxili səviyyədir ki, bu səviyyə daha sabit xüsusiyyətlərlə səciyyələnmişdir və siyasi lider üçün aktual olan autentik psixoloji xüsusiyyətləri və ya psixoloji vəziyyəti əks etdirir. Bu səviyyə ictimai şüurdan asılı olmur.

İkinci səviyyə özündə əvvəlkidən fərqli olan mobil, dəyişkən xüsusiyyətləri əks etdirir və bu xüsusiyyətlərin mənbəyi bilavasitə ictimai şüur our. Yəni bu, dəyişkənlik və adaptasiya imkanları dəyişən mühitin tələblərinə cavab verərək daha təkmil formalarda özünü təzahür etdirə bilir.

C.Barberin tədqiqatlarında və klassik yanaşmalarda siyasi liderlik və ya prezidentlik şəxsiyyət keyfiyyətləri nöqteyi-nəzərindən və ya konteksindən baxılır ki, bu da müasir dövr üçün bir o qədər də aktual deyildir. Lakin bu modeldə öz əksini tapmış bəzi komponentlər siyasi liderin müasir modelinin yaradılmasında mühüm vasilə ola bilər.



Şəxsiyyət keyfiyyətləri konteksində siyasi liderin şəxsiyyətinin strukturuna daxil olan komponentləri aşağıdakı kimi təsnif edirlər:

1. Xarakter;

2. Dünyagörüş;

3. Üslub.

Bu model psixologiyada D.Uznadze və G.G.Diligenski tərəfindən yaradılmış ustanoka modelinə müvafiqdir. Məlumdur ki, yönəlişlik modelində üç səviyyə özünü göstərir: affektiv səviyyə, koqnitiv səviyyə və davranış səviyyəsi. Qeyd olunan bu səviyyələr hər bir siyasi liderdə bərabər səviyyədə inkişaf etmir. Belə ki, psixologiyadan məlumdur ki, xarakter uşaqlıq dövründə formalaşır, dünyagörüş yeniyetməlik yaş dövründə, üslub isə yetkinlik yaşında inkişaf edir. Siyasi liderin formalaşmasında bu üç komponentin çox böyük rolu vardır.

Məlumdur ki, uşağın xarakteri böyüklərin, valideynlərin, həmyaşıdların və müəllimlərin təsiri ilə formalaşır. Bu prosesdə tədricən uşağın özünəmünasibətində müəyyən yönəlişliklər formalaşır ki, bu da onun davranışında və rəftar tərzində özünü biruzə verir. Şübhəsiz bu yönəlişlik zaman keçdikcə dəyişilir. Psixoloji baxımdan yetkinlik yaşında şəxsiyyətin psixi həyatında ortaya çıxan problemlərin əksəriyyətini yalnız uşaqlıq dövründə baş vermiş hadisələrlə, formalaşmış stereotiplərlə izah etmək olmur. Lakin bununla yanaşı nəzərə almaq lazımdır ki, məhz uşaqlıq dövründə formalaşan yönəlişliklər, yönümlər və rəftar tərzi daha sabitdir və dəyişkənliyə az meyillidir, sonda formalaşan bu cəhətlər insanın bütün həyatı boyu davam edir.

Uşağa nisbətən yetkin insan özünün affektlərini idarəetməyə daha qabildir və onları istiqamətləndirməyi bacarır. Məhz uşaqlıq illərində siyasi liderin xarakterinin özülü formalaşır və bunlar situasiyanın və zamanın təsirindən dəyişmir. Hələ vaxtilə Aristotel deyirdi ki, kimin xarakteri nizamlıdırsa, onun həyatı da nizamlıdır. Bu baxımdan nizamlı xarakter insanın gələcək həyat perspektivlərinin istiqamətlərini proqnozlaşdırmağa imkan verir.

Ancaq siyasi liderin davranışında baş verən dəyişikliklər yalnız birmənalı şəkildə affektlərin idarə olunması məsələsi ilə şərh etmək olmaz. Burada siyasi liderdə formalaşan dünyagörüş də mühüm əhəmiyyət kəsb edir.

Şübhəsiz siyasi liderin xarakterinin və dünyagörüşünün formalaşmasında yeniyetməlik yaş dövrü mühüm əhəmiyyət kəsb edir. Yeniyetməlik dövründə insan özünün həyatının mənasını axtarır, başa düşməyə çalışır ki, onun həyatı hansı istiqamətdə gedəcəkdir. Həyatın mənası nədir? Bu və ya digər suallar onda dünyagörüşünü formalaşdırır. Məhz bu yaşdan fundamental dünyagörüş məsələlərinə münasibət formalaşır və mövcud koqnitiv strukturlar mürəkkəbləşir və bu mexanizmlər bəzən dəyişmir. Əvvəlki yaş dövrlərindən fərqli olaraq, yetkinlik yaşı insandan hər hansı davranış aktı və qərar qəbulunda məsuliyyət tələb edir. Məhz o zaman fərd özünün həyatını yaşamağa başlayır ki, o, artıq özü qərar verir və başqalarının nəzarəti olmadan öz işlərini qurmağa çalışır. Belə hallarda onun özünəməxsus həyat kredosu və ya üsulu formalaşır.

Siyasi proseslərdə iştirak edən və siyasi lider kimi formalaşan şəxslərdə ilk növbədə bu sahədə kimdənsə asılı olmayan uğur əldə etmələri vacibdir. Hər bir siyasi lider özünün hafizəsində hansısa davranış stereotipi, obrazı yaradır ki, bu da onun gələcək fəaliyyətində müvəffəqiyyətin açarı kimi çıxış edir.

Gələcək situasiyada keçmiş təcrübə siyasi liderə keçmişi xatırladan və qarşılaşdığı situasiyalarda ilk növbədə ona uğur gətirən, artıq sınanmış, ilk dəfə onun təfəkkür süzgəcindən keçmiş metoddan, davranış üsulundan istifadə edəcəkdir.



Belə olan halda davranış tərzinə və ya üsuluna siyasi lider şəxsiyyətinin formalaşmasının genezisi kimi yanaşmaq olar. Əgər onun hərəkətverici qüvvələri dərin psixodinamik proseslərdə gizlənsə də, davranış stili daha aydın və görünən komponent kimi özünü göstərir ki, bu da siyasi liderin müasir modelinin yaradılmasında xüsusi əhəmiyyət kəsb edir. Belə davranış stili özündə ritorika və şəxsiyyətlərarası qarşılıqlı təsiri əks etdirir.

Heç bir siyasi lider bu funksiyalardan gündəlik istifadədən yan keçə bilməz. Çünki, o, hər gün müxtəlif siyasətçilərlə və ya insanlarla görüşür, müxtəlif mənbələrdən daxil olan informasiyaları təhlil edir və qərarlar qəbul edir.

Siyasi elmlərdə siyasi liderin modelindən danışarkən H.D.Lassuellin modelini nəzərdən qaçırmaq olmaz. O, siyasi liderlərin tipologiyasını aparmaqla siyasi liderlərin davranış stilini müəyyən etməyə çalışmışdır. Tədqiqatçı onları aşağıdakı kimi qruplaşdırır:

- Təbliğatçı. Belə tip siyasi liderlər vurğunu daha çox ritorika üzərində qururlar. Onların fəaliyyətində əvvəla, natiqlik qabiliyyəti yüksək olur, güclü ekstorpolyar və publistik çıxışlar özünü göstərir. İkincisi, onun öz missiyasını duymaq, cəmiyyətin müəyyən təbəqələrinin adından öz fikrini söyləmək və s. daha qabarıq şəkildə müşahidə olunur.
- İnzibatçı. Bu tip özünəməxsus ambisiyalara malik, hakimiyyətə xüsusi münasibəti olan icraçıdır. Bununla yanaşı inzibatçılar situasiyanı strukturlaşdırmaq qabiliyyətinə malikdirlər, fəallıqları, qətiyyətliliyi, bəzi hallarda aqressivliyi ilə seçilir, sabit gerçəklik hissinə malik olurlar.
- Nəzəriyyəçi. Bu tip siyasi liderlər içərisində ən çox yayılmış tiplərdəndir. Onun başlıca xüsusiyyətləri intellektuallıq, hərə-

kətlərin qeyri-müəyyənliyi və məhdudluğundadır. Siyasi reallıqda nəzəriyyəçilərin iki tipinə rast gəlmək olur: ideoloqlar və ekspertlər. "İdeoloqlar" cəmiyyətin inkişafının məqsədini müəyyənləşdirir, gələcəyə proqramlar qururlar. "Ekspertlər" isə əksinə özlərinin siyasi proseslərdə iştiraklarını məhdudlaşdırır, daha çox məşvərətçi və ya məsləhətçi qismində çıxış edirlər. Bütün bunlar bizə siyasi liderin müasir modelini yaratmaq üçün metodoloji əsas kimi çıxış edir və siyasi liderin adekat modelini yaratmağa imkan verir.

Aparılmış tədqiqatlar göstərdi ki, siyasi lider olmaq üçün vacib keyfiyyətlərdən hesab edilən səbirlilik, siyasi iradə, əzmkarlıq, məsuliyyət, özünəhörmət kimi keyfiyyətlər birinci yerdə dayanır. Halbuki siyasi lider üçün vacib olan keyfiyyətlərə daha çox natiqlik qabiliyyəti, öz gücünə inanmaq, müdriklik, idarəçilik qabiliyyəti və s. aid etmək olardı. Bu fakt onu göstərir ki, siyasi liderdə bir sıra peşə keyfiyyətləri ilə yanaşı, şəxsiyyət keyfiyyətləri daha dominantdır və onlar siyasiləşir. Burada siyasi liderin siyasi bilikləri, təcrübəsi ilə yanaşı şəxsiyyət keyfiyyətləri də mühüm yer tutur.

Siyasi liderin müasir modelindən danışarkən etnik-milli amilləri, stereotipləri də nəzərə almaq lazımdır.Yəni elə keyfiyyətlər vardır ki, həmin keyfiyyətlər siyasi lider üçün onun yaşadığı şəraitdə, etnik-milli sferada daha dominant keyfiyyətlər hesab oluna bilər. Məsələn, öz xalqını sevmək, onun üstün cəhətlərini görmək, hər cür neqativlikdən kənarda dayanmaq, uzaqgörənlik, vətənpərvərlik və s. Ədalətlilik və reallığın nəzərə alınması, xalqı özünə inandırmaq və insanları məyus etməmək, demokratiklik, qəbul edilən qərarların öz həllini tapması və gələcək planlarda onların nəzərə alınması kimi məsələlər siyasi liderin qərar qəbulunda başlıca motivasiya kimi çıxış etməlidir. Bunu tarixi rakursdan baxış bucağı da sübut edir. Burada siyasi liderin fərdi-psixoloji istəkləri



deyil, ilk növbədə xalqın istəyinin həyata keçirilməsi, siyasi fəaliyyətə adekvat münasibəti və s. aparıcı elementlərdəndir.

Faktlar göstərir ki, əslində siyasi liderin qərar qəbulunun motivasiya istiqamətlərinin adekvat qiymətləndirmələri konkret götürülmüş ölkədə gedən ictimai-siyasi proseslərin yönümündə də özünü göstərir. Ancaq bu amil çox zaman aparıcı olmur.

Doğrudan da dünya miqyaslı siyasi xadimlərin qərar qəbulunda başlıca məqsəd xalqın gələcəyini düşünmək və onun arzu və istəklərini reallığa uyğun qurmaqdan ibarətdir. Ancaq bir sıra hallarda bu qərarlar cəmiyyətin bir hissəsinin xoşuna gəlməyə də bilər. Amma zaman göstərir ki, onlar qərar qəbulunda həmişə haqlı olmuşlar.

Siyasi liderin milli dəyərlərə müqəddəs fenomen kimi yanaşması, xalqı, milləti, dövləti üçün hər an canından keçməyə hazır olması, onun üçün xalqın xoşbəxtliyinin ən uca amal olmasının aydın seçilməsi müsbət obraz kimi qavranılır. Siyasi lider arxasınca apardığı kütlənin mənafeyini aşağı tutarsa və çətin, həlledici məqamlarda xalqı tərk edirsə, bu, mənfi obraz kimi qavranılır. Deməli, siyasi liderin müasir modelində qavrama indeksi də xüsusi yer tutur.

Dövlət quruculuğunda dinamikanı təmin edən, bu prosesdə müdrik rəhbər, uzaqgörən dövlət xadimi kimi özünü göstərən siyasi lider modeli müasir dövr üçün də vacib modellərdən biridir. Dövlət quruculuğu ilə siyasi liderin keyfiyyətləri arasında birbaşa asılılıq vardır. Belə ki, dövlət əhəmiyyətli qərarların qəbul edilməsində dövlət başçısı üçün zəruri olan keyfiyyətlər kimi əzmkarlıq, qətiyyət, uzaqgörənlik, siyasi iradə və prinsipiallıq, özünə və xalqına inam, verdiyi qərarların xalqın mənafeyinə uyğun olduğuna əmin olmaq və s. kimi keyfiyyətlər əsas kimi götürülmüşdür.

Dövlət quruculuğunda siyasi liderə zəruri olan keyfiyyətlərin təsviri siyasi liderin psixoloji portretini yaratmağa imkan verir. Burada daha çox zəruri olan qavrama indeksi əsas götürülməlidir.

Siyasi liderin müasir psixoloji portretinin yaranmasında daha çox ümumiləşdirilmiş komponentləri kimi görmə qavrayışının təkmilliyi, eşitmə qavrayışının itiliyi, ünsiyyət texnikasının mükəmməlliyi, mülahizənin məzmununun hamı tərəfindən qəbul edilməsi, zəruri fərdi-psixoloji xüsusiyyətlərin olmasını xüsusi vurğulamaq olar.

Siyasi lider haqqında təsəvvürlərin reallığa uyğunluğu onların fərdi-psixoloji xüsusiyyətləri ilə yanaşı, siyasi təcrübəsi və populyarlığı ilə də seçilir.

Bir məsələni də xüsusi qeyd etmək lazımdır ki, siyasi fəaliyyətin və dövlət quruculuğunun müxtəlif aspektlərinin öyrənilməsi də siyasi liderin müasir modelini qurmağa imkan verir. Bu həm də siyasi elitanın siyasi lideri necə qavramasından çox asılıdır.

İdeal siyasi lider özünəməxsus keyfiyyətlərə malikdir. Bunlara ədalətlilik, təmizlik, vətənpərvərlik, siyasi iradə, məsuliyyətlilik, məqsədəyönəlişlik, diqqətcillik, talant, çeviklik, qətiyyətlilik, cəsarətlilik, özünə inamlı olmaq, diplomatiklik və siyasi səriştə və s. kimi keyfiyyətlər daxildir.

### 4.5.Siyasi liderin siyasi psixikası

**Siyasi qavrayış-** Siyasi liderlərin, siyasi qrupların, siyasi hakimiyyətin, siyasi məlumatların və siyasətlə birbaşa əlaqəli digər obyektlərin qavrayışını əhatə edən sosial qavrayış bloku siyasi qavrayış blokudur. Qavrayış seçicilik, mənalılıq xüsusiyyətlərinə malikdir. Siyasi qavrayış da seçicidir. Belə seçicilik siyası sosiallaşma prosesində formalaşır. İdrakın bu xüsusiyyətləri formalaşdıqdan sonra siyasi mədəniyyət, siyasi şüur, eləcə də insan psixikasının digər funksiyaları ilə əlaqələndirilir. Mənalılıq və seçicilik siyasi məlumat, siyasi güc və siyasi liderlərin qavrayışını xarakterizə edir. Xüsusilə söhbət siyasi xadimin obrazından, dövlətin obrazından gedirsə, hər iki fenomen obrazın predmeti-prototipi rolunu oynayır[8 ].



**Siyasi hafizə-** Siyasətdə hafizə psixoloji bir fenomen kimi çox vacibdir. E.B.Şestopalın qənaətinə görə, yaxşı hafizə ilk növbədə cəmiyyətin siyasi həyatının müəyyən hadisələri və prosesləri ilə birbaşa və ya dolayısı ilə əlaqədə olan çox sayda məlumatı şüurundan keçirməli olan bir siyasi lider şəxsiyyətinin zəruri bir xüsusiyyətidir. Eyni zamanda, burada yalnız əzbərləmək deyil, birbaşa fəaliyyətin xarakteri ilə əlaqəli olan bu məlumatların müəyyən bloklarını seçmək və saxlama qabiliyyətindən danışırıq.

Siyasətçiyə siyasi hadisələrə, siyasi həmkarlarına, siyasi opponentlərinə münasibəti inkişaf etdirməyə imkan verən hər şey, yəni insanların yaddaşı, onların siyasi bağlılıqları, siyasi hadisələrə münasibəti, bu hadisələrin qiymətləndirilməsi siyasətçi üçün xüsusi əhəmiyyət kəsb edir.

İkincisi, ayrı-ayrı insan qruplarının və bütünlüklə xalqın tarixi yaddaşı siyasi psixologiya üçün maraq doğurur. Tarixi yaddaş tez-tez siyasi süjetləri bir-birinin ardınca müasirliyin pik nöqtəsinə atır. Sosioloji tədqiqatlar bizə insanların tarixi baxımdan əhəmiyyətli hadisələri necə qəbul etdiklərini çox kiçik bir tarixi fasilə ilə müqayisə etmək imkanı verir.

**Siyasi təfəkkür-** Siyasi psixikanın quruluşunun ən əsas və müəyyənedici hissəsi siyasi təfəkkürdür. Bu, siyasi gerçəkliyin siyasi və psixoloji təhlili və sintezi zamanı vasitəli və ümumiləşdirilmiş nitq prosesi ilə ayrılmaz şəkildə əlaqəli bir sosial şərtdir. Siyasi düşüncə yalnız idrakı deyil, həm də öz ontoloji statusuna malik

olan emosional-qiymətləndirmə mexanizmlərini də əhatə edir. Siyasi düşüncənin prinsip baxımdan əhəmiyyətli bir xüsusiyyəti onun həddindən artıq məntiqsizliyidir [12].

Q.Lebon 20-ci əsrin əvvəllərindəki kütlələrin hərəkətlərindəki irrasional mexanizmlərin və emosional qiymətləndirmələrin həlledici rolunu qeyd etmişdi. Onun fikrinə görə, sosial dinamikanın əsas səbəbi baxış bucaqlarının daim dəyişməsidir. O, bu prosesi belə dəyərləndirir: bir insana məxsus olan müəyyən fikir onun intellektual və mənəvi irsi olduğu üçün "yoluxma yolu ilə" getdikcə daha çox tərəfdar taparaq "kütlələrin ruhuna" nüfuz edir. [11].

Ümumiyyətlə psixologiyada və xüsusən siyasi psixologiyada siyasi düşüncə problemi çox aktualdır, bu problem daha çox bir şəxs tərəfindən uyğun bir nəticə əldə etmək üçün informasiyalardan istifadə etməyin müəyyən yol və vasitələri kimi fəal şəkildə müzakirə olunur. Bəzi tədqiqatçılar üç növ siyasi düşüncənin varlığını müəyyən edən Amerika psixoloqu S.Rozenberqin təsnifatına üstünlük verirlər: ardıcıl-situativ, xətti və sistemləşdirilmiş.

Ardıcıl situativ düşüncə tərzi, siyasi gerçəkliyin hadisələr, fenomenlər, vəziyyətlərə müəyyən ardıcıllıq və uyğunluq olduğunu vurğulayır. Bu tip düşüncə tərzi olan insanlarla (siyasətçilərlə) ünsiyyətə girmək, müəyyən anlayışlarda mücərrədləşdirmə və ümumiləşdirmələr aparmaq, müəyyən oxşarlıqlar tapmaq çox çətindir.

Xətti siyasi düşüncə tərzi, müəyyən bir siyasi hərəkəti müəyyən bir əsasla əlaqələndirən və sonradan gələn prosesləri isə birincinin davamı hesab edən siyasətçilər üçün xarakterikdir. Bu cür düşüncə olduqca analitikdir.

Sistemli siyasi düşüncə tərzi, siyasətin müəyyən münasibətlər, fenomenlər, proseslər, hadisələr sisteminə söykəndiyini düşünən siyasətçilərə xasdır.



Siyasi təfəkkür, praktik olaraq digər əqli əməliyyatlarla, xüsusən təhlil, sintez, müqayisə, ümumiləşdirmə, abstraktlaşdırma, təsnifat, sistemləşdirmə ilə xarakterizə olunur. Bu eyni zamanda təfəkkür formalarına da aiddir, belə ki, əqli düşüncə prosesinin nəticələri, bildiyiniz kimi, mühakimə, mülahizə, nəticə və konsepsiya şəklində mövcuddur. Siyasi təfəkkürün fərdi xüsusiyyətləri də xüsusilə qeyd olunmalıdır: ağlın müstəqilliyi, ağlın tənqidiliyi, dərinliyi, çevikliyi, genişliyi, sürəti, yaradıcılığı [9].

**Siyasi təxəyyül-** Siyasi təxəyyülə, bir qayda olaraq, siyasi baxışlar kontekstində baxılır. Çox insan siyasi baxışlarını inkişaf etdirmək və təkmilləşdirmək üçün müxtəlif yollardan istifadə edir, amma müəyyən zamanda və situasiyadan asılı olaraq onların baxışları hansısa bir obyekt və ya reallıq sahəsindən asılı olaraq kəskin şəkildə dəyişə bilər. Bir çox adi vətəndaşın daxili və xarici siyasətlə bağlı olan konkret məsələlərdə heç bir məlumata sahib olmaması onların siyasi həyat problemləri ilə bağlı rasional fikirlərinin və ideoloji stereotiplərinin olmadığı anlamına gəlmir [10].

Siyasi təmsilçiliyin bir forması kollektiv yaradıcı təxəyyüldür. Siyasi təsəvvür, siyasi fikirlərin işlənməsinə və yaradıcı çevrilməsinə əsaslanan yeni siyasi gerçəkliyin vahid görüntülərinin yaradılması prosesi kimi nəzərdən keçirilə bilər. Bu təsvirləri təxəyyül obrazlarına çevirməyin müxtəlif yolları var: bənzətmə, vurğu, şişirtmə.

**Mövzuya aid sual və tapşırıqlar:**

1. "Qəhrəmanlar" nəzəriyyəsinə görə siyasi liderin əsas keyfiyyətləri hansılardır?
2. Hansı liderlik üslubları müəyyən olunmuşdur?
3. Güvəndiyiniz siyasi liderin psixoloji portretini tərtib edin.

4. "İdeoloqlar tipi ilə "ekspertlər" tipi arasında hansı fərqlər var?
5. Siyasi düşüncənin hansı formaları var?

**Ədəbiyyat:**

1.Əliyev B.H.Siyasi liderin psixoloji portreti problemi / Müasir elm: problemlər, perspektivlər. Bakı, 2000, s.3-4
2.Əliyev B.H. Milli lider dövlətçiliyin və demokratik inkişafın təzahürü kimi // Psixologiya jurnalı, 2003, № 2 , s.3-20.
3.Əliyev B.H. Milli dövlətçilik və demokratik inkişaf // Dirçəliş XXI əsr jurnalı, 2003, № 38, s.80-88.
4.Əliyev B.H. Milli dövlətçilik və şəxsiyyət / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin anadan olmasının 80 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Renessans, 2003, s.3-22.
5. Əliyev B.H.Siyasi psixologiyada ümummilli lider problemləri // Psixologiya jurnalı, 2004, №1, s.3-12.
6.Mamayeva N.Ə. Siyasi lider şəxsiyyətinin formalaşmasının sosial-psixoloji xüsusiyyətləri. Psixol.elm.nam.dis.avtoreferatı. Bakı, 2008, 18 s.
7. Ашин Г.К. Лидерство: Социально-политические и психологические аспекты. Кн.Политика: проблемы теории и практики. В 2-х частях. Часть II, М.: ИН И ОН ЛН СССР, 1990, 103 с.
8. Бозаджиев В.Л. Политическая психология. М.. Академия Естествознания, 2015, 474 с.
9. Головатий М.Ф. Политическая психология. Киев: Свобода 2009, 367 с.
10. Дилигенский Г.Г. Социально-политическая психология. М.: Новая школа, 1996, 352 с.
11. Лебон Г. Психология народов и масс. СПб.: Макет, 1995, 311 с.



12. Ольшанский Д.В. Основы политической психологии. Екатеринбург: Деловая книга, 2001, 496 с.
13. Райгородский Д.Я., Автономова Н.С. Психоанализ власти. Т.2. Самара: Бах-Рах, 1999, 607 с.
14.Хрестоматия по политической психологии. Под ред. Д.Я.Райгородский. Т.1. Самара: Бах-Рах, 1999, 608 с.
15.Хрестоматия по политической психологии. Под ред. Д.Я.Райгородский. Т.2. Самара: Бах- Рах, 1999, 550 с.
16. Шестопал Е.Б. Личность и политика.М.:Мысль, 1988,183 с.
17. Шибутани Т. Социальная психология.М.:Мысль,1999,239с.
18. Eagty A.H., Jotmson B.T. Gender and leadership style: A meta-analysis// Psychol. Bull, 1990, V. 108, N2, p.233-256.

## V FƏSİL
## SİYASİ RƏHBƏRLİK
### 5.1. Siyasi rəhbər və onun mühüm peşəkar keyfiyyətləri

L.Y.Qozman və E.B.Şestopal liderliyin spesifik cəhətlərini açmaq üçün öz tədqiqatlarında liderlik və rəhbərlik fenomenlərini müqayisəli təhlil etmişlər. Keçmiş sovet psixologiyasında da bu anlayışları bir-birindən ayırmışlar. Liderlik dedikdə, işçilərdən birinin şəxsi nüfuzunun kollektivin bir çox və ya bütün üzvlərinin davranışına təsiri nəzərdə tutulur [1]. Rəhbərlik fenomenində isə qrupun təşkili və idarə olunması məsələləri əsas götürülmüşdür.

Bu məsələ digərlərindən fərqli olaraq B.D.Parıginin "Sosial-psixoloji nəzəriyyələrin əsasları" konsepsiyasında hərtərəfli şəkildə differensiasiya olunmuşdur. Müəllif lider və rəhbərin aşağıdakı fərqlərini göstərir:

1. Lider əsasən qrupda şəxsiyyətlərarası münasibətləri tənzim edir, rəhbər isə qrupda rəsmi münasibətlərin təşkilini sosial təşkilat kimi həyata keçirir.

2. Liderliyi mikromühit (kiçik qrup) şəraitində, rəhbərliyi isə makromühitin elementi, ictimai münasibətlərin bütün sistemləri ilə əlaqədə təsvir etmək olur.

3. Liderlik özü-özünə, hiss olunmadan yaranır, rəhbərlik isə ya seçilir, ya da təyin olunur və bu proses özü-özünə təbii surətdə getmir. Başqa bir tərəfdən isə rəhbərlik müxtəlif sosial strukturların nəzarəti altında fəaliyyət göstərir. Liderlikdə bu cəhət yoxdur.

4. Liderlik hadisəsi az sabit hadisə olduğu halda, rəhbərlik daha çox sabit hal kimi özünü göstərir. Liderliyin fəaliyyəti qrupun əhval-ruhiyyəsindən çox asılı olsa da, rəhbərlikdə belə bir asılılıq yoxdur.



5. Rəhbərliyə tabe olanlar, liderlikdən fərqli olaraq, müsbət sanksiyalar sisteminə malik olurlar. Belə bir sanksiya vermə qabiliyyəti liderdə yoxdur.

6. Qərar qəbul etmə prosesi rəhbərlik üçün olduqca çətin və müxtəlif vəziyyətlərdən asılı olduğu halda, lider çətinlik çəkmədən qrup fəaliyyətinin cəhətləri haqqında qərar qəbul etməkdə bir qədər müstəqildir.

7. Liderin fəaliyyət sferası əsasən kiçik qrupdur və o, qrupda liderdir. Rəhbərliyin fəaliyyət sferası isə kiçik qrupda, lakin geniş sosial sistemlə əlaqədə həyata keçirilir. [10].

Çoxsaylı psixoloji tədqiqatların gedişində müəyyən edilmişdir ki, müxtəlif səviyyəli rəhbər işçilərin idarəetmə fəaliyyətində bir sıra uyğun keyfiyyətlər mövcuddur. Bu hal, rəhbər işçinin başlıca xüsusiyyətlərini modelləşdirməyə imkan verir.

Bu baxımdan istər Qərb psixologiyasında, istərsə də rus psixologiyasında xeyli sayda elmi-praktiki yanaşmalar mövcuddur. Bu yanaşmalar bir neçə bloka ayrılmışdır :

1. "Ümumi keyfiyyətlər" bloku adlanır və bu bloka aşağıdakı keyfiyyətlər daxil edilir:

a)intellekt – mürəkkəb və mücərrəd məsələləri həll etmək qabiliyyəti;

b)bilik – konkret peşə fəaliyyəti sahəsində, eləcə də ümumi idarəetmə baxımından fundamental bilik;

c)təcrübə - konkret fəaliyyət, eləcə də ümumi idarəetmə sahəsində praktika.

2. "Konkret keyfiyyətlər" bloku adlanır və bu bloka aşağıdakı keyfiyyətləri daxil edilir:

a)ideya-mənəvi– şəxsiyyətin dünyagörüşünü, mədəniyyətini, mənəvi motivasiyasını ifadə edir;

b)elmi-peşəkar– texniki-iqtisadi idarəetmə səviyyəsini, onun nəzəri və praktiki səlahiyyətini səciyyələndirən biliyi, təcrübəni

əks etdirir;

c)təşkilati–kadrların seçilməsi, onların işinin planlaşdırılması, işin üzərində dəqiq nəzarətin təmin edilməsini əks etdirir;

d)psixofizioloji – siyasətlə məşğul olan şəxs üçün zəruri olan somatik və psixi verilənləri (sağlamlığı, sistemli düşüncəyə meyilliliyi, təfəkkürün inkişafını, yaddaşı, iradi hazırlığı) öyrənir.

3. Bu bloka səciyyəvi fərdi-işgüzar keyfiyyətlər daxil edilir:

a)kommunikabellik - insanlarla cəld ünsiyyət yaratmaq qabiliyyəti;

b)empatiya – insanların halına acımaq, onların əhval-ruhiyyəsini tutmaq qabiliyyəti;

c)stressə qarşı davamlılıq – özünütəlqin qabiliyyəti, emosiyalarını idarə etmək bacarığı;

d)vizuallıq – şəxsiyyətin xarici görkəminin cazibədarlığı [8].

Digər rus tədqiqatçısı L.V.Fatkinin fikrincə, indiyə qədər ən ümumi amil – rəhbərin fəaliyyətinin müvəffəqiyyətini təmin edəcək, vahid təşkilatçılıq qabiliyyəti müəyyən edilməmişdir. Buna görə də səciyyəvi, konkret amilləri axtarmaq lazım gəlir. Bu baxımdan o, özündə bir sıra differensial keyfiyyətləri cəmləşdirən beş səciyyəvi inteqral keyfiyyəti fərqləndirmişdir:

a) adaptasiya mobilliyi – bu və ya digər kollektivdə, bu və ya digər vəziyyətdə, bu və ya digər qarşılıqlı münasibətlər sistemində cəld öz yerini tapmaq bacarığı;

b)emosional və işgüzar liderlik (təşkilatın daxili strukturunda, istər "şaquli", istərsə də "üfiqi" istiqamətdə mövcud olan qeyri-formal qruplarda, problemli vəziyyətlərin əksəriyyətinin həlli zamanı özünü göstərən liderlik);

c)ictimai rolların (funksiyaların) inteqrasiyası bacarığı – öz davranışını ictimai əlaqənin digər iştirakçılarının rol gözləntilərinə uyğunlaşdırmaq;

d)əlaqəlilik – işgüzar əlaqələri yaratmaq, insanları özünə



yaxınlaşdırmaq, münaqişə vəziyyətinə münaqişə tərəflərinin gözü ilə baxmaq, onları dinləmək və inandırmaq qabiliyyəti;

e)stressə davamlılıq – stressə qarşı intellektual, iradi və emosional dözümlülük.

ABŞ tədqiqatçıları F.Fidler və A.Leyster isə liderlə qrup arasında asılılığa təsir edən dörd aralıq dəyişən amil fərqləndirmişdilər:

a) rəhbər işçinin motivasiyası;

b) rəhbər işçinin təcrübəsi;

c)yuxarıda duran rəhbərliklə münasibətlər;

d)tabeçilikdə olanlarla münasibətlər.

Bu baxımdan formalaşmış "Fidler-Leyster" qanunauyğunluğu belə səslənir: rəhbərin yüksək motivasiyası, əhəmiyyətli təcrübəsi, tabeçilikdə olanlar tərəfindən dəstəklənməsi və rəhbərliklə əlverişli işgüzar münasibətləri onun intellektinin və fəaliyyətinin səmərəliliyinə təsirini artırır. Və əksinə, rəhbər işçinin kifayət etməyən motivasiyası və təcrübəsi olsa da, tabeçilikdə olanlar tərəfindən zəif dəstəklənməsi və ya rəhbərliklə gərgin münasibətlərin olması onun intellektinin əmək fəaliyyətinə təsirini azaldır[9].

### 5.2. Siyasi rəhbərliyin səmərəli metodları

Hər hansı bir fəaliyyətlə məşğul olmasından asılı olmayaraq insan birliklərinə rəhbərlik edən şəxslər verilən tapşırıqların yerinə yetirilməsində məsuliyyət daşıyırlar. İnsan rəhbər vəzifəyə keçdikdən sonra onun üçün əsas məsələ planlaşdırma, təşkil etmə, koordinasiya, nəzarət deyil. Rəhbər həm də tabeçiliyində olanların imkan və tələblərinin ödənilməsində cavabdehdir. Rəhbərin tələblərinin yerinə yetirilməsi onun tabeliyində olanlar tərəfindən o zaman məqbul sayıla bilər ki, hər hansı bir işin yerinə yetirilməsi tabelikdə olanların tələblərini ödəmiş olsun. Bu tələblər şəxsi və sosial ola bilər. Bu zaman rəhbər uzun illər sınaqdan çıxmış təsir me-

todlarından istifadə etməlidir. Bu metodlar aşağıdakı rəhbərlik metodlarıdır:

- Xarizmatik;
- Tolerantlıq;
- Ənənəvi;
- Qorxu;
- Həvəsləndirmə;
- Ekspert;
- İnformasiya;
- İnandırma və s.

Xarizmatik metoddan istifadə edən rəhbər özündə aşağıdakı xüsusiyyətləri birləşdirir: impozant xarici görünüş, xarakter müstəqilliyi, opponentləri ilə mübarizədə öz bacarığına inanmaq, kritik vəziyyətdə özünü ələ alma bacarığı, lovğalıq və eqoizmdən uzaq olmaq, qarşı tərəfin hiss və emosiyalarına səbrlə yanaşmaq və hörmət etmək. Belə lider tabeçilikdə olanların idealına çevrilir, onunla birlikdə çətinliklərə qarşı mübarizə aparmaqdan yorulmur.

Tolerantlıq metodundan istifadə edən rəhbər özündə aşağıdakı xüsusiyyətləri birləşdirir -insanlara dəyər vermək, qarşı tərəfin fikir və mülahizələrinə, mövqeyinə (hətta öz mövqeyinə və mülahizələrinə zidd olsa belə) hörmətlə yanaşmaq, bəzi neqativ hərəkətlərə dözümlülük göstərmək, insanlara qarşılıqlı inam və hörmətlə yanaşmaqla baş verə biləcək konfliktlərin və zərərli hadisələrin qarşısını asanlıqla ala bilmək. Belə rəhbər insanlarda özünütəsdiq, özünüruhlandırma imkanlarının üzə çıxmasına, kollektivdə münasibətlərin qorunub saxlanılmasına şərait yaradır.

Ənənəvi rəhbərlik metodundan istifadə edən rəhbər tabeçiliyində olanların ona inamını qazanmaqla həm də tabeçiliyi şərtləndirir. Müəssisə və təşkilatın qanunlarına tabe olma tələbləri həm də tabeçilikdə olanlara onun əvəzinə narahat olma və fikirləşmə hissini verir. Buna baxmayaraq o, qəbul etdiyi hər bir qərar və



işçilərin bu və digər hərəkətləri üçün məsuliyyət daşıyır. Belə rəhbər nə etməli olduğunu qabaqcadan bilməklə yanaşı, həm də sadə və inamlı olur.

Qorxu metodundan istifadə edən rəhbər tabeçiliyindəki maddi və mənəvi cəhətdən zəif olanları ədalətli qanunlarla qorxutmadan istifadə edir, təşəbbüsü boğur. İşini itirmə qorxusu insanları ədalətsizliyə, istismara boyun əyməyə məcbur edir. Belə rəhbərlər əməyə nəzarət üçün çoxlu sayda nəzarətçilərdən istifadə edirlər.

Həvəsləndirmə metodundan istifadə edən rəhbərlər demək olar ki, tabeçilikdə olanların tələblərini nəzərə alaraq əlavə əmək haqqından, vəzifə statusunu artırmaqdan, mükafatlandırmadan və s. istifadə edir.

Ekspert metodundan istifadə edən rəhbərlər tabeçilikdə olanlardan bilik səviyyəsinə, məntiqi təfəkkürünə və geniş təcrübəsinə görə fərqlənir. Bu ən nüfuzlu rəhbərlik metodudur, rəhbərin hörmətini və reytinqini qaldırır. Hər hansı bir mürəkkəb məsələnin müzakirəsi zamanı onun qərarları ilə hamı razılaşır. Bununla yanaşı rəhbər tabeçilikdə olanları da idarəçiliyə cəlb edir, qərarların hazırlanmasını onlara həvalə edir.

İnformasiya metodundan istifadə edən rəhbər yuxarı təşkilatlardan aldığı informasiyanı tabeçilikdə olanlara çatdırır, bununla da onların rəğbətini qazanmağa çalışır. Bu informasiyalar nə qədər düzgün olarsa əməkdaşlar onun ətrafında daha sıx birləşir, mövqeyini gücləndirir. Lakin informasiyaların mənbəyi olmadıqda onun reytinqi aşağı düşür. İnformasiyalar istehsalat texnologiyalarının sirləri ilə bağlıdırsa, onun yayılması şirkətin və ya müəssisənin konkurensiya qabiliyyətlərini itirir və məhvinə səbəb olur. Müəssisənin istehsalat sirlərini bilən yüksək vəsifəli mütəxəssislərin işdən getməsi isə rəhbərliyin işinə mənfi təsir edir.

İnandırma metodundan istifadə edən rəhbər isə həmişə uğur qazana bilmir. Uğursuzluq o zaman baş verir ki, rəhbər tabeçilikdə

olanları verdiyi qərarların və tapşırıqların vacibliyinə və doğruluğuna öz məntiqi ilə inandıra bilmir, nəticədə isə verilən tapşırıqlar icra olunmamış qalır. İnandirma metodunun özünə məxsus xüsusiyyətləri var. Bu xüsusiyyətlərin mahiyyəti ondan ibarətdir ki, rəhbər tabeçilikdə olanların ehtiyaclarına uyğun cəlbedici ideya irəli sürür və onlardan daha artıq iş tələb edir. Bu tələblər elə olmalıdır ki, lazım olduqda onları aşağı salmaq mümkün olsun. Görülən işdən əldə olunan gəlir isə bərabərlik prinsipi üzrə bölünməlidir.

Rəhbər bir tərəfdən tələbkar olmalı, digər tərəfdən tabeçiliyində olanların imkanlarını nəzərə almalıdır. Rəhbər məqsədə çatmaq üçün tabeçiliyində olanlara qarşı heç vaxt ədalətsiz qərarlar verməməlidir. Belə qərarlar ziddiyyətlərə, tətillərə, işdən çıxardılmalara səbəb olur.

### 5.3. Siyasi qərarlarının hazırlanması və qəbul edilməsi

Siyasi rəhbərin mühüm funksiyalarından biri – siyasi qərarların qəbul edilməsi və onların icraçılara çatdırılmasıdır. Hər bir siyasi qərarın düzgünlüyü və vaxında qəbul edilməsi onun bütün fəaliyyətinin səmərəliliyini müəyyən edir.

Siyasi qərarın qəbul edilməsi problem vəziyyətinin meydana gəlməsindən başlayır və qərarın seçilməsi ilə başa çatır. Rəhbər tərəfindən qəbul edilən qərarlar aşağıdakı tələblərə cavab verməlidir:

1. Aydın məqsədə malik olmalı – qərar aydın şəkildə formulə edilməli, ikili şərh və ya şübhə üçün yer qoymamalıdır;

2. Əsaslandırılmış və ziddiyyətsiz olmalı – qərar istər daxili, istərsə də xarici şəraitlə, özündən əvvəlki və sonrakı qərarlarla uzlaşmalıdır;



3. Hüquqi baxımdan səlahiyyətli olmalı – qərar qanunların tələblərinə, yuxarı təşkilatların göstəriş və sərəncamlarına söykənməli, dövlətin və vətəndaşların hüquqlarını nəzərə almalıdır;

4. Konkret olmalı – konkret ünvana və icra müddətinə malik olmalı, nəyi, kimin üçün, nə zaman, harada və hansı müddətdə yerinə yetirmək barədə suallara cavab verməlidir;

5. Vaxtında qəbul edilməli və səmərəli olmalıdır.

Ümumiyyətlə, qərarların qəbul edilməsində üç yanaşma fərqləndirilir: intuitiv, mülahizələrə əsaslanan və rasional.

İntuitiv qərar – onun düzgünlüyünün hiss edilməsi əsasında, hissiyyata əsaslanaraq, "lehinə" və "əleyhinə" olanlar təhlil edilmədən qəbul edilir;

Mülahizələrə əsaslanan qərar – biliyə və toplanmış təcrübəyə əsaslanan qərar;

Rasional qərar – özündən əvvəlkindən fərqli olaraq, keçmiş təcrübədən asılı olmur, lakin analitik qaydada əsaslandırılır.

Rasional qərarın qəbul edilməsində aşağıdakı əsas mərhələlər fərqləndirilir:

1. İstiqamətlənmə mərhələsi – problem şəraitinin müəyyən edilməsi və qərarın məqsədinin müəyyən edilməsi;

2. İnformasiya mərhələsi – problem üzrə informasiyanın toplanması, emalı və təhlili, habelə onun özündən və konkret vəziyyətdən asılı olan məhdudiyyətlərin müəyyən edilməsi;

3. Təşkilati mərhələ - qəbul edilmiş qərarların və onların icra olunma müddətlərinin icraçılara çatdırılması, məsul şəxslərin təyin edilməsi, instruktaj, qarşılıqlı fəaliyyətin təşkil edilməsi;

4. Nəzarət mərhələsi – qərarın yerinə yetirilməsinin uçotu və ona nəzarətin yerinə yetirilməsi[8].

Siyasi təcrübədə qərarın növü yaranan problemin həllindən asılıdır. İnsan amilinin təsiri ilə bağlı kompleks problemlərin həlli ilə bağlı kollektiv qərar qəbul edilir. İstehsal fəaliyyətinin texniki

cəhəti ilə əlaqədar olan məsələlərin həlli ilə bağlı isə fərdi qərarlar kifayət edir. Kollektiv qərarlar qruplarda qəbul edilir. Belə qruplar müdiriyyət, kollegiya, direktorlar şurası, yaradıcı qrup və s. ola bilər. Bu zaman qərarın lehinə kifayət qədər əsasın olması lazımdır.

İdarəetmə təcrübəsində həmçinin qərarların verilməsinə münasibət baxımından bir neçə rəhbərlik növünü fərqləndirmək olar.

1. Fəaliyyət zamanı müvəffəqiyyətin əldə olunmasına çalışan, qərar icraçılarını öz ardınca aparan rəhbər. Belə rəhbər riskdən qorxmur, müsbət motivlidir, fəaldır. Tabeçilikdəkilərin gözündə öz əhəmiyyətini dərk edir.

2. İcraçılar qrupunda özünəyönümlü rəhbər. Fərdi qərarların verilməsinə meyillidir,müstəqillikdən və riskdən qaçır.

3. Mənfi motivləşmiş rəhbər. Ehtiyatlıdır, riskdən və qərar qəbulundan qorxur, məsuliyyəti boynundan atmaq üçün qrupun arxasında gizlənir.

4. Fəal işə qadir olmayan rəhbər. Davranışında əsəbilik meyilləri hiss olunur. Peşəkar səviyyədə idarəetmə işinə yararsızdır.

Qərarlarının qəbul edilməsi siyasi prosesin tərkib hissəsidir. O, özlüyündə idarəetmə məsələlərinin həlli variantlarından birinin seçilməsini nəzərdə tutur. Bu zaman müxtəlif qərar növləri biri – birindən fərqlənir:

a) Təşkilatı qərar - tutduğu vəzifədən asılı olaraq öz borcunu yerinə yetirmək üçün rəhbərin yerinə yetirəcəyi seçimdir. Təşkilati qərarın məqsədi bütün təşkilatın qarşısında duran məqsədin əldə edilməsidir;

b) Proqramlaşdırılmış və proqramlaşdırılmamış qərar-birinci halda mümkün olan alternativlərin sayı məhduddur. Onlardan fərqli olaraq, ikinci halda qeyri-müəyyən, yəni strukturlaşdırılmış



qərarlar həyata keçirilir;

c) İntuitiv və rasional qərarlar- intuitiv qərar kimi seçim ancaq hissiyyata əsaslanır, dəqiq izahı olmayan qərar qəbul edilir. "Lehinə" və "Əleyhinə" kimi əsaslara diqqət verilmir. Rasional qərar qəbulu zamanı isə mülahizələrə əsaslanılır və bir neçə mərhələdən keçir:

-problemin diaqnostikasi;

-məhdudiyyətlərin və qərarların qəbul olunması üçün meyarların formulə edilməsi;

-alternativlərin aşkar edilməsi;

-son seçim.

İdarəetmə qərarlarının verilməsində təkcə rəhbərliyin rəyi rol oynamır. Bu zaman qərarların qəbul edilməsi üçün bu prosesə cəlb edilmiş vəzifəli şəxslərlə qarşılıqlı əlaqə öz təsirini göstərir.

**Mövzuya aid sual və tapşırıqlar**:

1. Rəhbərlik və liderlik arasında oxşar və fərqli keyfiyyətlər hansılardır?
2. "Ümumi keyfiyyətlər" blokuna hansı keyfiyyətlər daxildir?
3. "Fidler-Leyster" qanunauyğunluğunun mexanizmi necədir?
4. Xarizmatik metoddan istifadə edən rəhbər özündə hansı xüsusiyyətləri təzahür etdirir?
5. Rəhbər tərəfindən qəbul edilən qərarlar hansı tələblərə cavab verməlidir?

**Ədəbiyyat:**

1.Bayramov Ə.S., Əlizadə Ə.Ə.Sosial psixologiya. Bakı: Poliqraf, 2003, 365 s.
2.Piriyeva E.A., Məmmədli İ.M. Siyasi psixologiya. Bakı: Eco-print, 2016, 236 s.

3. Ананьев Б.Г. Человек как предмет познания.Некоторые черты психологической структуры личности. Ленинград, 1985, с.39-41.
4.Андреев А.Л. Политическая психология. М.: Весь мир, 2002, 240 с.
5.Андреев С.С. Политический авторитет и политическое лидерство //Социально - политический журнал, 1999, № 1-2, с.15-28.
6.Иванов Л. Политическая психология. М.: Инфра-М, 1990, 410 с.
7.Избранные труды по психологии. М.: Наука, 1997, 520 с.
8.Козлов В.В., Новиков В.В., Гришин Е.В. Политическая психология. М.: Международная Академия Психологических Наук, 2010, 458 с.
9.Колташов В.Г. Политическое лидерство. М.: Питер, 2009, 359 с.
10. Парыгин Б.Д. Основы социально-психологической теории. М.:Parc, 1971, 311с.
11.Ольшанский Д.В. Политическая психология. М.: Питер, 2002, 576 с.
12.Тимошенко В.И. Общественно-политическое лидерство. М.: Наука, 1990, 28 с.



# VI FƏSİL
# HAKİMİYYƏT PSİXOLOGİYASI
## 6.1. Hakimiyyət fenomeninə yanaşmalar

Hakimiyyət problemi politologiya, hüquqşünaslıq, tarix kimi elmlərlə yanaşı, psixologiyanın da tədqiqat obyektidir. Psixologiyada hakimiyyətə daha çox subyektiv aspektdən yanaşılır, hakimiyyət təsisatlarına və hakimiyyət daşıyıcılarına münasibət, hakimiyyətin formaları, seçicilərin əhval – ruhiyyəsi, insanları bu və ya digər hakimiyyətə tabe olmağa və ya əksinə, itaətsizlik göstərməyə vadar edən amillər və s. məsələlər tədqiq olunur. Güc orqanları strukturlarının subyektlərinin birbaşa fəal iştirakı hakimiyyətin subyektiv cəhətləri hesab olunur. Ancaq bəlkə də ən maraqlı sual hakimiyyətin psixoloji mexanizmlərinin problemidir: niyə insanlar bir gücü qəbul etməyə, qaydalara tabe olmağa hazırdırlar, amma qətiyyətlə, bəzən canlarını qurban verərək digərini rədd edirlər? Başqalarından daha güclü olması insanlara nə verir? Siyasi hakimiyyət psixologiyası – hakimiyyətin bir sosial institut kimi formalaşmasının qanunuyğunluqları, mexanizmləri, inkişaf şərtləri və amilləridir. Bu və ya digər hakimiyyət hər hansı bir cəmiyyətə lazımdır və ailələrsiz cəmiyyət məlum olmadığı kimi, hakimiyyətsiz cəmiyyət də məlum deyil. Ölkə vətəndaşlarına qarşı prezidentlər və ya krallar (monarxlar), övladlara qarşı valideynlər, sevgi münasibətdə olanlar bir-birinə qarşı hakimiyyətə malikdirlər.

Siyasi hakimiyyətin psixoloji xarakteristikasını müəyyənləşdirmək üçün ilk növbədə hakimiyyət fenomeninin müxtəlif mövqelərdən təhlili nəzərdən keçirilir:

1. sosiobioloji konsepsiya
2. kompensasiya konsepsiyası

***Hakimiyyət probleminə sosiobioloji yanaşma.*** Hakimiyyətin mahiyyətini sosial-bioloji aspektdən izah etməyə çalışan Aristotel hesab edirdi ki, öz təbiəti etibarilə xalqlar və insanların bir qismi hökmranlıq etməyə, digərləri isə tabe olmağa meyillidirlər. T.Hobbsa görə, insanlar daim və yorulmadan getdikcə daha çox artan, yalnız ölümlə dayandırılan hakimiyyət istəyi ilə hakimiyyətə can atırlar. F.Nitsşe və K.A.Helvetsi də insanların hakımiyyət arzusunu daxili bioloji quruluşla əlaqələndirirdilər.

Bu konsepsiyanı dəstəkləyən tədqiqatçılar insanın bioloji olaraq təyin olunmuş xüsusiyyətlərinin güc və liderliyə çatmaq üçün çox uyğun olması ilə fikrini irəli sürürlər. Bunlara sağlamlıq vəziyyəti, xarici görünüş, sinir sisteminin tipi, psixofizioloji xüsusiyyətlər kimi parametrlər daxildir. İnsanlar da heyvanlar kimi fitri davranış tənzimləyicilərinə, o cümlədən instinktlərə sahibdirlər. Lakin, onların rolu tamamilə fərqlidir. Bioloji təbiətli təhriklər insanlarda həyatın təməli olaraq qalır, ancaq insan motivasiyasının quruluşunun əsasını təşkil etmir. N.A. Monaxovun fikrincə, insanın hökmranlıq və şöhrətpərəstlik arzusu onun "prostaziya" instinktini (üstünlüyə can atmaq) qoruması əsasında yaranır. Heyvanlarda onun birbaşa bioloji məqsədi var və bu, nəsil artırmaq, cinsi partnyorun seçimi ilə əlaqələndirilir. İnsan cəmiyyətində isə bu instinkt öz ilkin funksiyasını itirmiş, lakin enerji əhəmiyyətini qoruyub saxlamışdır. Amerikalı psixoloq R. Uaytın nəzəriyyəsini hakimiyyətin motivlərinin müəyyən edilməsi istiqamətində bir növ bioloji nəzəriyyələrdən sosial nəzəriyyələrə keçid hesab etmək olar. O, insan fəaliyyətinin əsasını ətraf mühit ilə əlaqə üçün "hərəkətdə olmaq" tələbatı olduğu fikrini bildirdi. Bu tezisi siyasətə tətbiq etməyə çalışan U.Stounun fikrincə, hakimiyyət də daxil olmaqla fərdin bir çox niyyətləri bütün insanlara xas olan "hərəkətdə olmaq" tələbatına əsaslanan sosiomədəni öyrənmənin nəticəsidir.



***Hakimiyyət probleminə kompensantor yanaşma.*** Hakimiyyətin motivasiyasının digər geniş yayılmış izahı kompensantor konsepsiyada verilir. Bu nəzəriyyənin əsasını qoyanlardan biri fərdin hökmranlıq və üstünlük arzusunu, hakimiyyətə can atmasını gerçək və ya xəyali natamamlıqlarını aradan qaldırmaq cəhdləri ilə əlaqələndirən A. Adlerdir. Bu mövqe H.D.Lassuell tərəfindən qəbul edildi və o, onun əsasında siyasi motivasiya nəzəriyyəsini inkişaf etdirdi. "İnsanlar hər hansı bir çatışmazlığı kompensasiya etmək məqsədilə hakimiyyətə can atırlar ...". Psixoanalizin görkəmli nümayəndəsi K.Xorni də buna bənzər bir fikir yürütdü. Onun fikrincə, bir çox insanlara "təməl həyəcan" xasdır: özünü "təhqir olunmuş", "alçaldılmış " bir insan kimi qəbul etmək. Belə insanlar hakimiyyətə can atmaqla psixi tarazlığı bərpa etməyə çalışırlar. Kompensasiya nəzəriyyəsi çox məşhur idi , lakin 1950-1970-ci illərdə bir neçə siyasi fəalların arasında aparılmış tədqiqatlar, ilk növbədə, ştatların qanunverici orqanlarının üzvlərinin (D. Barber, B.Stoun, Q.Beril və başqalarının əsərləri) apardığı tədqiqatlar siyasətdə iştirakın kompensantor xarakter daşıdığı fikrini təsdiqləmədi. Qanunvericilər arasında (bütövlükdə cəmiyyətdə olduğu kimi) fərqli hörmət səviyyələrinə sahib insanların olduğu sübut edildi. Eyni zamanda, siyasi fəaliyyətin müvəffəqiyyətinin yalnız özünü qiymətləndirmə ilə deyil, digər fərdi parametrlərlə də müəyyənləşdirildiyi (məsələn, "Mən" konsepsiyasının mürəkkəbliyi) ortaya çıxdı. Siyasi hakimiyyətin motivasiyasının yalnız kompensasiya prinsipi əsasında izah edilməməsi bir sıra səbəblərlə bağlıdır. Hər şeydən əvvəl, kompensasiya (təzminat) başqa yollarla, məsələn, sərvət əldə etmək yolu ilə baş verə bilər. Ümumiyyətlə, kompensasiyanın axtarış istiqamətinə cəmiyyətdəki dəyərlər sistemi əhəmiyyətli dərəcədə təsir göstərir (müqəddəs anlayışlar, bilik, hərbi şücaət və s.), onların əldə olunması özünüqiymətləndimənin artmasına şərait yaradır. Digər tərəfdən,

insan hakimiyyətə can atsa da, oz potensialını siyasətə deyil, digər fəaliyyətə yönəltsə, daha böyük uğur qazana bilər. H.D.Lassuellin fikrincə, hakimiyyət istəyinin məhz siyasi sahədə reallaşdırılacağını müəyyənləşdirmək üçün idrak faktorları mühüm rol oynayır. Hakimiyyət vasitəsilə kompensasiyanın seçimi hakimiyyətin köməyi ilə öz hörmətini və şəxsi nüfuzunu artırmağın müsbət təcrübəsi olduqda baş verir. Beləliklə, kompensantor mexanizmi ayrıca motiv olaraq deyil, əksinə, fərdin bütün motivasiya-tələbat sferasına nüfuz edən bütün motivasiya hadisələrinin məcmusu üçün psixoloji əsas kimi qəbul edilməlidir. H.D.Lassuell konsepsiyasının əsas ideyası onun davamçısı, siyasi psixologiyada psixoanalitik cərəyanın tanınmış nümayəndəsi A.Corcun tədqiqatlarında əks olunmuşdur. Siyasi fəaliyyətin kompensantor xarakter daşıdığını qəbul etməklə yanaşı, o, bir sıra yeni metodoloji müddəalar irəli sürmüşdü. H.D.Lassuelldən fərqli olaraq, A. Corc artıq "siyasi tip"dən deyil, bir çox dəyərlərə sahib olan şəxsdən danışır.

***Hakimiyyətin psixoloji mahiyyəti.*** Müasir dövrdə cəmiyyəti təşkil etmək üçün ən vacib mexanizm rolunu oynayan hakimiyyət kimi bir fenomenin müxtəlif formaları ilə qarşılaşırıq. Hakimiyyət dedikdə nə başa düşürük? Burada siyasi subyektlərin başqalarına müxtəlif qüvvələrin, vasitələrin və metodların köməyi ilə müəyyənedici təsir etmək qabiliyyəti və imkanları nəzərdə tutulur. Hakimiyyət həmişə güclü ilə tabe olan şəxs arasındakı əlaqəni nəzərdə tutur. Cəmiyyətin siyasi-iqtidar münasibətləri müəyyən bir obyektiv gerçəkliyi təmsil edir ki, bu da hüquqi normalarda, idarəetmə orqanlarının hərəkətlərində özünü göstərir və müvafiq iqtisadi, sosial və siyasi amillərlə müəyyənləşdirilir. Hakimiyyətin subyekti müəyyən bir insandır və onun hakimiyyətin həyata keçirilməsinə münasibəti çox müxtəlif ola bilər. Onu bu hakimiyyət ya yora bilər, ya da əksinə, o, təsirini daha da genişləndirmək üçün bütün enerjisini səfərbər edər. Amerika politoloqu P. Dal vurğulayır ki.



məhz psixoloji xüsusiyyətlər, ilk növbədə, motivasiya, hakimiyyətin həyata keçirilməsi zamanı fərqli yanaşmalara gətirib çıxardır. Digər tərəfdən, insan hakimiyyətin obyekti olsa da, subyektivliyini itirmir və avtomatik olaraq gücün iradəsinə tabe olmur. Hakimiyyət fenomeni bir ailədə, bir təşkilatda və s. baş verə bilsə də, insan həyatının başqa bir sahəsi siyasətlə eyni dərəcədə hakimiyyətlə əlaqəli deyil. Siyasət və hakimiyyət bir növ davamlı birlik kimi qəbul edilir. Hakimiyyətin səlahiyyəti olmadan siyasətin əsas funksiyasını - sosial maraqların koordinasiyasını reallaşdırmaq mümkün deyil. Siyasi hakimiyyət ölkə vətəndaşlarının tabeliyini nəzərdə tutur və həm inandırma, həm də məcburetmə üçün ən geniş vasitələrə sahibdir. Bu əlaqəni əks etdirən alman psixoloqu E.Şpranqer, siyasi uyğunluğu və ümumiyyətlə hakimiyyət anlayışlarını ümumiləşdirərək "siyasi tip" anlayışını təqdim etdi. Onun fikrincə, əsas dəyəri hakimiyyət olan insanlar siyasətçilərdir. H.D.Lassuell də "Siyasətlə məşğul olan insanlar adi vətəndaşlardan nə ilə fərqlənir?" sualına cavab axtararkən, eyni fakta əsaslandı. Onun "siyasi insan" ("homo politicus") adlandırdığı tip başqa insanlardan fərqli olaraq müxtəlif dəyərlər içərisində hakimiyyətə daha böyük önəm verir. H.D.Lassuellə görə, "siyasi insan" tipinin xarakterik cəhətləri aşağıdakılardır:

1) daim hakimiyyətə can atması; 2) digər insanlardan və resurslardan hakimiyyətə nail olmaqda vasitə kimi istifadə etməsi ; 3) hakimiyyət resurslarını yalnız öz əlində cəmləşdirmək istəməsi

Hakimiyyət anlayışını təhlil edən yanaşmalarda onun psixoloji xüsusiyyətləri sadalanır. Hakimiyyətin həm şəxsiyyətin özünüqiymətləndirməsində, həm də şəxsiyyətin deformasiyasında rolu qeyd olunur. Hər iki halda motivasiya əsas mexanizm kimi çıxış edir. Bununla yanaşı, hakimiyyət həm hədəflərə çatmaq aləti kimi, həm münasibətlərin sistemi kimi, həm də tam fərqli fenomen kimi xarakterizə olunur.

## 6.2. Siyasi hakimiyyətin motivasiyası

Hakimiyyətin motivlərinə iki aspektdən yanaşılır: 1) Statik aspekt-hakimiyyətin resurslarını ələ keçirmək və genişləndirməklə özünü güclü hiss etmək tələbatı; 2) Dinamik aspekt-bu resurslardan praktikada istifadə etmək istəyi.

İnsanların hakimiyyətə qarşı münasibəti birmənalı deyil. Bir tərəfdən "hakimiyyətə qapılma" mövqeyi var. Digər tərəfdən. bunun üçün o qədər güclü bir istək var ki, ondan, N. Makiavellinin təbirincə desək, "ağlın və qəlbin bütün fəzilətlərini qoruya bilməzlər ...". B.Rasselın bu baxımdan qeyd etdiyi kimi, insanın iki doymaz və sonsuz ehtirası var - şöhrət və hakimiyyət. Ona görə də, hal-hazırda da dünya sosial düşüncəsində hakimiyyətin motivasiyası, mənbəyi və təzahürü problemi daima diqqət mərkəzindədir. Hakimiyyət uğrunda mübarizənin motivləri bu və ya digər şəkildə bir-birinə bağlıdır və qarşılıqlı olaraq bir-birlərinə təsir edirlər.

Rusiya psixoloqu S.Kaverin hakimiyyət motivlərinin çoxtələbatlılıq konsepsiyasını hazırlamışdır. Onun fikrincə, hakimiyyət motivləri beş başlıca tələbat üzərində qurulub:

1) azadlıq (hakimiyyətdən təhlükəsizliyin təmin edilməsi üçün istifadə olunur);

2) hedonistik tələbat (hakimiyyət-maddi ehtiyacların ödənilməsi vasitəsidir);

3) özünütəsdiq (hakimiyyət sayəsində nüfuz, hörmət və ad - san qazanılır);

4) özünüifadə (hakimiyyət önəmli nəticələrin əldə edilməsi, oyun və yarış kimi);

5) şəxsiyyətə çevrilmək arzusu (hakimiyyətə nail olmaqla fərd təkcə özünə deyil, başqalarına da yaxşılıq etməyə çalışır).

Qeyd edək ki, S.B Kaverinın fikri bir sıra xarici alimlərin nöqteyi-nəzəriyyəsi ilə eynidir. Onlar da hesab edirlər ki, hökmranlıq arzusunun yalnız ruhi xəstəlik əlaməti olaraq qəbul etmək lazım deyil. Belə ki, K.Xorninin fikrincə, fərdin zəifliyinin göstəricisi olan hakimiyyətin nevrotik motivasiyasını şəxsiyyətin daxili gücündən, onun obyektiv üstünlüyündən irəli gələn və sosiallaşma xüsusiyyətləri, cəmiyyətin mədəniyyəti ilə müəyyən edilən normal hakimiyyət arzusundan prinsipial şəkildə ayırmaq lazımdır. E.Fromm da bənzər bir nöqteyi-nəzərə sadiq qalaraq psixoloji baxımdan hakimiyyət istəyinin kökünün gücdə deyil, zəiflikdə olduğunu söylədi ... "Hakimiyyət birinin üzərində hökmranlıqdır; güc əldə etmək, gücə nail olmaq qabiliyyətidir" dedi. Yuxarıda nəzərdən keçirilmiş konsepsiya hakimiyyət motivasiyası fenomenini çoxcəhətli bir hadisə kimi xarakterizə etməyə imkan verir. Bu, daha da vacibdir, çünki son illərdə aparılan tədqiqatlardan göründüyü kimi, hakimiyyətə çatmaq və faktiki olaraq hakim olmaq dövründə motivlər iyerarxiyasında dəyişiklik var. Digər tərəfdən, hakimiyyətin motivasiyasından danışarkən, insan davranışının (siyasi daxil olmaqla) heç bir halda başqalarına hakim olmaq arzusu ilə məhdudlaşmadığını da unutmamalıyıq. Bu səbəbdən, A. Corcın hakimiyyət motivinin həm fərdin digər motivləri ilə güclənə biləcəyi, həm də onlarla ziddiyyət təşkil edə biləcəyi mövqeyi çox əhəmiyyətli görünür. Siyasi liderlərin hakimiyyət motivlərinin öyrənilməsi böyük nəzəri və praktik əhəmiyyətə malikdir. Siyasi liderin şəxsiyyəti ən mürəkkəb çoxcəhətli fenomendir və bir-birinə bağlı bir çox fərqli struktur elementlərdən ibarətdir. Bu elementlər siyasi davranışa görə eyni dərəcədə cavabdeh deyillər, onda təzahür olunurlar. Amerika siyasi psixologiyasında aparılan çoxsaylı araşdırmalardan sonra altı blokda qruplaşdırılan ən vacib şəxsiyyət keyfiyyətləri müəyyənləşdirildi: siyasi liderin özü haqqında fikri; siyasi davranışa təsir edən tələbatlar və motivlər: ən mühüm siyasi amallar sistemi; siyasi qərar qəbuletmə üslubu; şəxsiyyətlərarası münasibətlər üslubu; stressə qarşı müqavimət.

***Siyasi liderin Mən-konsepsiyası.*** Gerçək və ya xəyali natamamlıq komplekslərinin kompensasiya problemi hələ Z.Freydin davamçısı A. Adler tərəfindən irəli sürülmüşdür. Bu fikir daha çox H.D.Lassuellin əsərlərində inkişaf etdi. Onun konsepsiyasına görə, insan özünüqiymətləndirməsinin aşağı olmasını kompensasiya etmək üçün hakimiyyətə can atır. Beləliklə, özünüqiymətləndirmə qeyri-kafi olduğu üçün insanı siyasi cəhətdən məqsədəuyğun hədəflərə - hakimiyyətə, nailiyyətə, nəzarətə və s. stimullaşdıra bilər. H.D.Lassuell öz konsepsiyasında əsas diqqəti insanın özü haqqında fikirlərinin inkişafına və bunların siyasi davranışında təzahür etdirməsinə yönəldmişdir. Onun fərziyyəsi ondan ibarət idi ki, bəzi insanlar sarsıntı keçirdiyi üçün və ya qeyri-adekvat özünüqiymətləndirməni kompensasiya etmək üçün hakimiyyətə və ya sevgi, hörmət kimi şəxsi dəyərlərə qeyri-adi dərəcədə güclü tələbat duyurlar. Bu tip fərdi dəyərlər və ya tələbatlar eqo-motivləri kimi qəbul edilə bilər, çünki bunlar insanın ego-sisteminin bir hissəsidir. A.Corc əsərlərinin birində H.D.Lassuellin aşağı özünüqiymətləndirmənin kompensasiya olaraq hakimiyyət istəyi barədə düşüncə xəttini davam etdirdi. O, aşağı özünüqiymətləndirmənin mümkün strukturunu ətraflı araşdırdı və hesab etdi ki, aşağı özünüqiymətləndirməyə səbəb olan beş subyektiv mənfi hiss ola bilər: lazımsızlıq hissi, əhəmiyyətsizlik hissi; mənəvi aşağılıq hissi; zəiflik hissi; bacarıqsızlıq hissi; intellektual çatışmazlıq hissi.

H.D.Lassuell politoloqların və siyasi psixoloqların diqqətini liderin siyasi davranışında özünüqiymətləndirmənin roluna yönəltdikdən sonra, siyasətçinin öz imicinə dair bir sıra araşdırmalar ortaya çıxdı. Hər situasiyada siyasi lider, nadir istisnalar xaricində öz "Mən" konsepsiyasına uyğun davranır. Onun davranışı kimin özünü necə başa düşdüyündən, münasibət qurduğu insanlarla özünü necə müqayisə etməsindən asılıdır. "Mən" konsepsiyası, yəni insanın kim olduğunu dərk etməsi bir neçə cəhətə malikdir.



Bunlardan ən əhəmiyyətlisi "Mən" obrazı, özünüqiymətləndirmə və siyasi liderin sosial yönümlüyüdür. U.Stoun özünüqiymətləndirməni - özünə qarşı müsbət bir hiss, özünə hörmət hesab edir. Sosial oriyentasiya adı altında öz müqəddəratını təyin etmək üçün digər insanlardan asılılıq hissinin əksinə muxtariyyət hissi nəzərdə tutulur.

Psixoloq E.T.Sokolovaya görə, "özünüqiymətləndirmə tam şəkildə yetkinlik dövründə formalaşır və başqalarının əhəmiyyətli xüsusiyyətlərinin qiymətləndirilməsinə və ya özünüqiymətləndirməsinə yönəlmiş üstünlük oriyentasiya şəxsiyyətin ayrılmaz tərzini xarakterizə edən davamlı fərdi fərqlərin göstəricisinə çevrilir". Amerika tədqiqatçıları D.Offer və C. Strozayer "insanın qavrayış, düşüncə və hisslərinin ümumi cəminə" uyğun gələn Mən-siyasətçi obrazını araşdırırlar. Qavrayışlar, düşüncələr və hisslər çox açıq şəkildə Mən obrazında ifadə olunur, burada Mən sıx qarşılıqlı əlaqədə olan altı fərqli hissəyə ayrılır. Bu altı Mən bunlardır: fiziki Mən, cinsi Mən, ailəvi Mən, sosial Mən, psixoloji Mən, ziddiyyətləri aradan qaldıran Mən. E.T.Sokolova qeyd etdiyi kimi, "keyfiyyətlərin dəyəri və subyektiv əhəmiyyəti və onların Mən obrazında və özünüqiymətləndirmədə inikası qoruyucu mexanizmlərin təsiri ilə maskalana bilər". Fiziki Mən siyasi liderin sağlamlığı və fiziki gücü və ya zəifliyi ilə bağlı fikirlərin təsəvvürləridir. Siyasi liderin fəaliyyətinə müdaxilə etməməsi üçün o, kifayət qədər sağlam olmalıdır. Ailəvi Mən siyasətçi şəxsiyyətinin çox vacib ünsürlərdən biridir. Ailədə münasibətlərin yetkin insanın davranışına nə qədər böyük təsir göstərdiyi, ilk növbədə, psixoanalizdən məlumdur. Bəzi siyasi liderlər uşaqlıq dövrünün əsəb sarsıntılarını dəf edə bilir, bəziləri isə edə bilmir və lider olduqda uşaqlıq frustrasiyalarını, natamamlıq komplekslərindən çəkdiyi əziyyətləri aqressiv formada ölkə və dünya sferasına yönəldirlər. Yüksək dövlət vəzifələrində olan insanlar üçün başqaları

ilə birlikdə işləmək bacarığı çox vacibdir. Siyasətçinin bu keyfiyyətə dair təsəvvürləri sosial Mən-də əks olunur. Siyasi lider danışıqlar aparmağı və həmkarlarını ən yaxşı keyfiyyətlərini göstərməyə təşviq etməyi öyrənməlidir. Fərqli qruplarla, bəzən hətta düşmən insan qrupları ilə, digər ölkələrin liderləri ilə səmərəli işləmək üçün şəxsiyyətlərarası münasibətlərdən düzgün istifadə etməlidir. Psixoloji Mən - daxili dünya, xəyallar, arzular, istəklər, illüziyalar, qorxular, qarşıdurmalar - siyasi liderin həyatının ən vacib tərəfidir. Z.Freyd psixopatologiyanın gündəlik həyatın taleyi olduğunu söyləyirdi. Adi insanlar kimi, liderlərdə də nevrotik qarşıdurmalara, psixoloji problemlərə və bəzən psixoz kimi daha ciddi psixopatoloji formalarına qarşı fitri toxunulmazlıq yoxdur. Siyasətçi öz qorxularından şüurlu şəkildə əziyyət çəkir, ya da sakitcə qəbul edir, hətta yumor hissi ilə onlara yanaşır. Getdikcə isə bu qorxular onun davranışında və xüsusən, özünənəzarətin zəiflədiyi dövrdə özünü göstərir. Münaqişənin öhdəsindən gələn siyasi liderin Mən təsəvvürləri - münaqişələri xüsusi bacarıqla aradan qaldırma və köhnə problemlərin yeni həll yollarını tapmaq qabiliyyətinin göstəricisidir. Rəhbər problemi dərk etmək üçün kifayət qədər biliyə və zəkaya sahib olmalıdır. Siyasi qərarlarında özünə inamlı olmalıdır ki, bu etimadı başqalarına çatdıra bilsin. Mən-münaqişələrin aradan qaldırılmasının başqa bir xüsusiyyəti liderin , məsələn, dövlət başçısı kimi, rolu və fəaliyyəti ilə əlaqəli stressləri aradan qaldırmaq bacarığıdır. Stress siyasi liderin intellektual və davranış qabiliyyətini ciddi şəkildə məhdudlaşdıran simptomlara səbəb ola bilər. Stress çətin anlarda idrak və düşüncə proseslərinin funksiyalarına mənfi təsir göstərə bilər, xüsusən lazım olduqda öz-özünə nəzarətin azalmasına səbəb ola bilər. R.Ziller və onun həmkarları, Mən - konsepsiyanın mürəkkəbliyini siyasi lider tərəfindən qəbul edilən Mən keyfiyyətlərinin sayı və ya Mən anlayışının fərqləndirmə dərəcəsi kimi başa düşürlər.



Özünüdərketmənin ilk mərhələlərində insan özünü başqalarından ayırır. Bundan sonra, onun şüurundakı Mən sonsuz sayda hissəyə bölünür. Sonradan, insanın özünü digər insanlarla müqayisədə qiymətləndirmə meyli yaranır. Bu proses L.Festingerin sosial müqayisə nəzəriyyəsində ətraflı şəkildə öz təhlilini tapmışdır. Bu nəzəriyyənin əsas müddəası - insanın öz düşüncəsini və qabiliyyətlərini digər insanlarla müqayisədə düzgün qiymətləndirmək istəyinin təməlində açıq-aydın və dəqiq Mən- konsepsiyasına sahib olmaq tələbatı durur. Sosial müqayisə prosesi vasitəsi ilə insanda özünə istinad nöqtəsi kimi Mən sosial baxışı çərçivəsi qurulur. R.Ziller 1973-cü ildə apardığı digər bir araşdırmada müəyyən etdi ki, Mən-konsepsiyasının yüksək mürəkkəbliyi ilə seçilən insanlar qərar qəbul etməzdən əvvəl Mən-konsepsiyasının mürəkkəbliyi az olan insanlardan fərqli olaraq daha çox informasiya qəbul etməyə meylli olurlar. Mən-konsepsiyası yüksək olan siyasətçilərin başqalarından informasiya alması ehtimalı yüksəkdir. Mən-konsepsiyasının yüksək mürəkkəbliyi ilə seçilən siyasi liderlər həm müsbət, həm də mənfi informasiyaları daha asan qavramağa meyillidirlər və, beləliklə, Mən-konsepsiyasının aşağı mürəkkəbliyi olan liderlərdən daha çox başqaların rəyləri əsasında yaranan situasiyalara münasibət göstərirlər. Eyni zamanda, siyasətçilərin özünüqiymətləndirməsi nə qədər yüksəkdirsə, o qədər də situasiyaya mənfi reaksiya verirlər, reaktivlikləri də o qədər aşağı olur. Yüksək özünüqiymətləndirməyə sahib olan liderlər xarici şərtlərdən daha az asılıdırlar, yüksək özünüqiymətləndirməyə əsaslanan daha sabit daxili standartlara sahibdirlər. Özünüqiymətləndirməsi aşağı olan siyasətçilərin digər insanlardan daha çox asılı olduqları və bu səbəbdən daha reaktiv olduqları təsbit edilir. Rəylərə daha həssasdırlar və başqalarının bəyənməsi və ya bəyənməməsindən asılı olaraq özünüqiymətləndirməni dəyişdirirlər. R.Ziller və həmkarları özünüqiymətləndirmə və Mən-konsepsiyasının mürəkkəbliyini öyrə-

nərək siyasi liderlərin şəxsiyyətinin tipologiyasını işləyib hazırlamışdırlar:

1.Birinci tip ilk baxışdan ziddiyyətli görünən adı ilə - siyasətdən kənar (apolitik) siyasətçilərdən ibarətdir. Bu yüksək özünüqiymətləndirmə və Mən-konsepsiyasının yüksək mürəkkəbliyi ilə seçilən siyasi xadimlərdir. Onlar öz mənliklərini təhdid etmədən özlərinə aid məlumatı assimilyasiya edirlər, bununla yanaşı, reaktivliklərində ciddi məhdudiyyətlər var. Başqalarından kənarlaşdıqlarını hiss edirlər və bu səbəbdən davamçılarının və ya bütövlükdə dövlət əhalisinin davranışlarına reaksiya verməkdə çətinlik çəkirlər

2.Siyasətdə ən uğurlu olan başqa tip praqmatiklərdir. Sosial təşviqlərə cavab verən, özünüqiymətləndirmə və Mən-konsepsiyasının yüksək mürəkkəbliyi ilə seçilən siyasi liderlərdir. Başqalarının fikirlərini dinləyir və rəylərə əsasən siyasi davranışlarını dəyişdirirlər.

3.Digər tip başqalarının fikirlərinə reaksiya verməyən, yüksək mürəkkəbliyi ilə seçilən özünüqiymətləndirmə və aşağı mürəkkəbliyi ilə olan Mən-konsepsiyalı siyasi liderlərdən ibarətdir. Onların idrak prosesləri və davranışları çox sərtdir və özlərinə olan hörmətləri son dərəcə sabitdir.

4.Və nəhayət, dördüncü tip, özünüqiymətləndirmə və Mən-konsepsiyasının aşağı mürəkkəbliyi ilə seçilən dar sosial təşviq dairəsinə intensiv şəkildə cavab verən siyasi xadimlərdir.

Siyasi liderin özünüqiymətləndirməsi ölkəsinin və ya rəhbərlik etdiyi təşkilatın daxili və xarici siyasətində çox vacib bir iz qoyur. Əgər onun ömrü boyu formalaşan özünüqiymətləndirməsi aşağı səviyyədədirsə, özündən davamlı narazılığı onu daxili və ya xarici siyasət sahəsində getdikcə daha çox yeni manеələri dəf etməyə sövq edən hərəkətverici qüvvə ola bilər. ABŞ prezidentləri R. Niksonı, R. Reyqanı və s. bu cür liderlər kimi misal gərimək



olar. Aşağı səviyyədə olan özünüqiymətləndirmə siyasi lideri beynəlxalq və ya daxili aləmdə müxtəlif addımlar atmağa məcbur edir - geniş miqyaslı hərbi və ya sülhməramlı hərəkətlər, ətraf mühit üçün gözlənilməz, fövqəladə dönüşlər, passiv müşahidə və s. Özünüqiymətləndirməsi yüksək olan dövlət rəhbərləri siyasətçi və ali baş komandan kimi öz keyfiyyətlərini həddindən artıq yüksək qiymətləndirirlər və çox vaxt beynəlxalq aləmdəki apardığı siyasət kursunа ümumi, həm xarici, həm də daxili reaksiyanı görmürlər. Öz uğurlarına sevinirlər (mifik olsa da) və tənqidləri qəzəbli paxıl insanlar tərəfindən verilən rəylər kimi təsnif edirlər. Burada siyasi hərəkətin nəticələri ilə subyekt arasında əks əlaqənin pozuntusundan danışmaq olar. Demək olar ki, heç bir nəticə bu lideri hərəkətlərinin nəyə gətirib çıxara biləcəyini düşünərək qorxuda və ya nəyə isə məcbur edə bilməz. Özüqiymətləndirməsi şişirdilmiş digər lider tipləri həm daxili, həm də xarici siyasətlərinin qiymətləndirilməməsi ilə qarşılaşanda qeyri-adekvatlığın təsirindən çox əziyyət çəkirlər. Əgər siyasi liderlərin düşüncəsinə görə onların siyasətləri yüksək əxlaq prinsipləri üzərində qurulub, ancaq ətrafdakılar tərəfindən düzgün dəyərləndirilmirsə, o vaxt onlar ən gözlənilməz addımları atırdılar. Və nə qədər inciyirdilər və narahat olurdularsa, oxşar siyasi addımları daha tez-tez təkrarlayırdılar və kütlə tərəfindən daha çox bəyənilmirdilər. Adekvat özünüqiymətləndirmə ilə seçilən liderlər siyasi arenada tərəfdaşların ən yaxşı nümunəsidir. Xarici və daxili siyasətləri özlərini təsdiq etmək istəyi ilə əlaqələndirilmir; hərəkətlərin nəticələri ilə özləri arasında əks əlaqə fəaliyyət göstərir. Siyasi qabiliyyətlərini adekvat qiymətləndirən lider, bir qayda olaraq, digər liderlərə hörmətlə yanaşır və onlara yüksək qiymət verir. Alçaldılacağından, təhqir olunacağından qorxmayan, özünün yüksək qiymətini qətiyyətlə bilən, özünü qarşılıqlı münasibətdə olduğu şəxslərdən heç də pis hesab etməyən lider hədəflərinə çatmasına imkan verən və qarşılıqlı fayda verəcək

bir siyasi fəaliyyət göstərəcəkdir. Özünüqiymətləndirmədə nevrotik komponentin olmaması, bir qayda olaraq, onun siyasi davranışda da olmamasına gətirib çıxarır.

***Siyasi hakimiyyət istəyinə nevrotik meyillilik.*** Sevgi və məhəbbət axtarışı mədəniyyətimizdə stressdən qurtulmaq üçün tez-tez istifadə edilən yollardan biridir. Hakimiyyət axtarışı isə başqa belə bir yoldur. Sevgi və məhəbbəti qazanmaq başqaları ilə əlaqəni artıraraq barışıq əldə etmək deməkdir, hakimiyyətə can atmaq başqaları ilə təmasları zəiflətmək yolu ilə sakitlik tapmaq və öz mövqelərini möhkəmləndirməklə təskinlik əldə etmək deməkdir. Normal insanda hakimiyyət hissi fiziki gücünün istifadəsi nəticəsində yarana bilər, bu fiziki güc və ya qabiliyyət, ya da zehni qabiliyyət və ya yetkinlik və müdriklik ola bilər. Hakimiyyətə doğru istək xüsusi səbəbdən də ola bilər - ailə, siyasi motiv, peşə qrupu, elmi araşdırma. Lakin, siyasi hakimiyyətə doğru nevrotik meyillilik narahatlıq, nifrət və özünü aşağı qiymətləndirmə hissləri ilə yaranır. Hakimiyyətə doğru nevrotik meyillilik yalnız narahatlıqdan müdafiə deyil, həm də qeyri-adekvat düşmənçiliyini çıxarmaq üçün kanal vasitəsi kimi xidmət edir. Hakimiyyətə can atmaq, ilk növbədə, narahatlığın əsas elementlərindən biri olan çarəsizliyə qarşı müdafiə rolunu oynayır. Nevrotikin özündə olan hər hansı bir köməksizlik və ya zəiflik işığına qarşı o qədər güclü bir nifrəti var ki, o, normal insanın tamamilə adi hesab etdiyi vəziyyətlərdən çəkinməyə çalışır, məsələn, rəhbərlik, məsləhət və ya yardım, insanlardan və ya şərtlərdən asılılıq, başqaları ilə hər hansı bir güzəşt və ya razılaşma. Çarəsizliyə qarşı bu etiraz heç bir anda bütün gücü ilə özünü göstərmir, tədricən artır: nevrotik daxili qadağalarla sıxışdırıldığını nə qədər çox hiss edirsə, o qədər də özünü təsdiq edə bilmir. Zəiflədikcə, zəifliyini ən kiçik dərəcədə də ortaya çıxara biləcək hər şeydən çəkinmək məcburiyyətində qalır. İkincisi, siyasi hakimiyyətə doğru nevrotik meyllik özünü



dəyərsiz hiss etmək və ya görünmək təhlükəsindən müdafiə edir. Nevrotik sərt və irrasional güc idealını inkişaf etdirir, bu da onda nə qədər çətin olsa da hər vəziyyəti idarə edə biləcəyinə və dərhal bununla məşğul ola biləcəyinə inam yaradır. Bu ideal qürurla əlaqə qazanır və nəticədə nevrotik zəifliyi yalnız təhlükə kimi deyil, həm də ayıb bir şey kimi qəbul edir. İnsanları "güclü" və "zəif" lərə bölür, birincisinə heyran olur, ikincisinə isə nifrət edir. Zəiflik hesab etdiyi hər şeydə də həddini aşır. Onunla həmfikir olan və ya istəklərinə boyun əyən bütün insanlara, daxili qadağaları olan və ya duyğularını o qədər diqqətlə idarə etməyənlərin üzündə həmişə sakit ifadə olanlara qarşı az-çox nifrət hiss edir. Zəifliyə də qarşı o son həddə qədər qəddar olur. Özündə olan bu keyfiyyətə də nifrət edir. Öz narahatlığını və ya daxili qadağan etdiyini etiraf etmək məcburiyyətində qalsa, özünü alçaldılmış hiss edir və sonra nevrozuna görə özünə nifrət edir, həqiqəti gizli saxlamağa məcbur olur. Təkcə nevrozun öhdəsindən tək başına gələ bilmədiyi üçün özünə nifrət edir. Bu cür hakimiyyətə çatmaq arzusu yeni xüsusi formalar qəbul edir. Can atdığı hakimiyyətə doğru hansı xüsusi formaların alması nevrotikin ən çox qorxduğu və ya nifrət etdiyi gücün məhrumiyyətindən asılıdır. Hakimiyyət arzusunu xarakterizə edə biləcək başqa xüsusiyyət öz fikirlərində israr etmək istəyidir. Onun üçün daimi kəskin qıcıqlanma mənbəyi başqalarının onlardan gözlədiyini və tam istədiyi vaxta etmək istəməməsi ola bilər. Səbirsizlik, hakimiyyətə can atmağın bu cəhəti ilə sıx bağlıdır. Hər cür gecikmə, hər cür məcburi gözləmə qıcıq mənbəyinə çevriləcəkdir. Çox vaxt nevrotik şəxsən özü və ya ən azından hərəkətinin gücünü idarə edən münasibətin mövcudluğunun fərqində deyil. Təbii ki, bu cür münasibəti anlamamaq və dəyişdirməmək onun mənafeyinə uyğundur, çünki o vacib qoruyucu funksiyalara malikdir. Siyasi hakimiyyət arzusunu formalaşdıran başqa münasibət əsla güzəştə getməmək, təslim olmamaqdır. Birinin fikri ilə

